RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 93 (8972) CÜMƏ, 6 may 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Prezident vəzifə borcunu yerinə yetirərkən xüsusi fərqlənmiş və fədakarlıq göstərmiş bir qrup şəxsi təltif etdi

Təltif edilən şəxslər Sumqayıt şəhərinin Hacı Zeynalabdin qəsəbəsində yerləşən "Azərsun Sənaye Parkı"nın ərazisində baş vermiş yanğının söndürülməsi zamanı vəzifə borcunu yerinə yetirərkən xüsusi fərqlənmiş və fədakarlıq göstərmiş Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşlarıdırlar.

→ 2

## İlham Əliyev Mərkəzi Nəbatat Bağının ərazisində abadlıq, yenidənqurma və tikinti işlərinin həyata keçirilməsi ilə əlaqədar sərəncam imzaladı

Mərkəzi Nəbatat Bağında abadlıq, yenidənqurma və tikinti işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Bakı Şəhər İcra Hakimiyyətinə ilkin olaraq 25,0 (iyirmi beş) milyon manat ayrıldı.

→ 2



# İnamın gücü

→ 4

## Azərbaycanın özü qədər əbədi

Qurtuluşdan Zəfərə → 5

Sosial inkişaf strategiyasının müəllifi → 6

Tarixin ən qüdrətli Azərbaycanı: Heydər Əliyevdən İlham Əliyevə → 7

Tarix yaradan şəxsiyyət → 8

Zamana sığmayan lider → 9

Heydər ƏLİYEV: «Sahibkarlığın inkişafı bizim strateji yolumuzdur" → 11

## Macarıstan Azərbaycan üçün yaxın dost və tərəfdaş ölkədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası ilə Macarıstan arasında əlamətdar tarix - diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Macarıstanın Baş naziri Viktor Orbana məktub ünvanlayıb. Məktubda deyilir:

“Müasir diplomatik əlaqələrimizin tarixi 30 illik dövrü əhatə etsə də, xalqlarımız arasında əsrlərdən bəri davam edən dostluq və əməkdaşlıq ənənələri mövcuddur. Macarıstan Azərbaycan üçün yaxın dost və tərəfdaş ölkədir. Məmnunluqla qeyd etmək istəyirəm ki, ötən onilliklər ərzində dövlətlərarası münasibətlərimiz dinamik və hərtərəfli inkişaf etmiş, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimiz daha da genişlənmişdir”.

→ 2

## "Şuşa" adından sui-istifadə qanunla qadağan olunur

Mayın 5-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Spiker Sahibə Qafarova bildirib ki, iclasın gündəliyinə 22 məsələ daxil edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini müzakirəyə təqdim edib. Bildirib ki, qanuna "Şuşa" adından istifadə etmək üçün xüsusi qaydaların tətbiq edilməsi məqsədilə 3-1-ci maddənin əlavə edilməsi təklif olunur. Yeni maddədə nəzərdə tutulan hallarla bağlı Şuşa Şəhəri Dövlət Qoruğu öz adından və rəsmi "Şuşa" adından istifadə etməkdə müstəsna hüquqa malikdir. Eyni zamanda, Şuşa şəhərində mövcud abidələrin tam həcmdə qorunması məqsədilə bu qanunun 7.5-ci maddəsindən "arxeoloji" sözünün çıxarılması təklif edilir.

→ 3

## İcbari tibbi sığorta əlçatan olacaqmı?

### Yeni dəyişikliklər bu problemi həll edəcək

Dünyanın inkişaf etmiş ölkələrində icbari tibbi sığorta geniş tətbiq olunur. Nəticələr uğurludur. Bu sistem əhalinin tibbi yardım almaq hüququnu təmin edir, istədiyi səhiyyə müəssisəsində müalicə və müayinə olunmaq imkanı verir.

Ölkəmizdə "Tibbi sığorta haqqında" qanun 28 oktyabr 1999-cu ildə qəbul olunub. 2007-ci ildə Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta Agentliyinin yaradılması haqqında Prezident İlham Əliyev tərəfindən sərəncam imzalanıb. Dövlət başçısının 2016-cı il 15 fevral tarixli fərmanına əsasən bu qurum fəaliyyətə başlayıb, 2016-cı il 24 noyabr tarixli fərmanı ilə onun əsasında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs yaradılıb və ilkin olaraq Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonlarında pilot layihə şəklində tətbiq olunmağa başlanılıb.

→ 15



# "Ağıllı" quruculuq

### Qarabağ və Şərqi Zəngəzurun bərpası innovativ əsaslarla həyata keçirilir

→ 13

## "Xalçaçı günü" Şuşada qeyd olunub

Mayın 5-i Azərbaycanda xalçaçıların peşə bayramı - "Xalçaçı günü" ölkəmizin hər yerində silsilə tədbirlərlə qeyd olunur.
Bu il bu günün ikiqat əhəmiyyəti var. Çünki bu il xalçaçıların bayramı mədəniyyət paytaxtımız, Qarabağın sənət məbədi, xalçaçılıq sənətinin beşiyi Şuşada qeyd olundu.



→ 13

"Heydər Əliyev. Elektron sənədlər toplusu" Ümummilli Liderin irsini öyrənənlər üçün ən zəngin internet resursdur → 13

Ankarada Əhməd Cavadın heykəlinin ucaldılması türk dünyasının tarixi şəxsiyyətlərinə ehtiramın növbəti təcəssümüdür → 13

Son 13 il Azərbaycanda 1700-dən çox yaşayış məntəqəsi qazlaşdırılıb → 14

## "Qarabağ Azərbaycandır!" etirafını ilk dəfə Sarkisyan edib, yoxsa Paşinyan?

### Ermənistanda iqtidarla müxalifət biri-birinə bu ittihamı irəli sürür

Ermənistanda narazılıq və qarşıdurma hallarının daha da yüksəlməsi, müxalifətlə hakimiyyət arasında ziddiyyətlərin kəskinləşməsi aydın müşahidə olunur. Müxalifətin İrəvanda keçirdiyi etiraz aksiyaları artıq iki həftədir davam edir. Mitinqlər istər iştirakçıların sayı, istərsə də miqyası baxımından genişlənməkdədir. Hətta vəziyyət o həddə çatıb ki, Paşinyan parlamentdə olan zaman etirazçılar binanı ələ keçirmək planları qurmağa başlayıblar.



→ 15

# Mərkəzi Nəbatat Bağının ərazisində abadlıq, yenidənqurma və tikinti işlərinin həyata keçirilməsi ilə əlaqədar tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Mərkəzi Nəbatat Bağı mühüm təbiət abidəsi kimi, ekoloji təmizliyin qorunması, təbiətin mühafizəsi və əhalinin bütün təbəqələri üçün elmi araşdırma, tədris və maarifləndirmə baxımından əhəmiyyətli rola malikdir. Burada dünyanın müxtəlif iqlim zonalarından toplanan canlı bitki kolleksiyaları yalnız bitkilərin mühafizəsi məqsədilə deyil, həm də ölkədə bu sahədə elmi tədqiqatların davamlı inkişafına xidmət edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Mərkəzi Nəbatat Bağının müasir estetik görünüşünün bərpa edilməsi üçün abadlıq, yenidənqurma və tikinti işlərinin həyata keçirilməsinə və zəruri quruculuq işlərinin aparılmasına dövlət dəstəyinin artırılması məqsədilə **qərara alıram:**

1. Mərkəzi Nəbatat Bağında abadlıq, yenidənqurma və tikinti işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Bakı Şəhər İcra Hakimiyyətinə ilkin olaraq 25,0 (iyirmi beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2022-ci il*

# "Azərsun Sənaye Parkı"nın ərazisində baş vermiş yanğının söndürülməsi zamanı fərqlənmiş Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Sumqayıt şəhərinin Hacı Zeynalabdin qəsəbəsində yerləşən "Azərsun Sənaye Parkı"nın ərazisində baş vermiş yanğının söndürülməsi zamanı vəzifə borcunu yerinə yetirərkən xüsusi fərqlənmiş və fədakarlıq göstərmiş Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"İgidliyə görə" medalı ilə**

Abadov Rəsul Baxşəli oğlu - daxili xidmət baş çavuşu
Ağayev Mirorxan Qəribağa oğlu - polis baş serjantı
Bağıyev Ağarəsul Ağazaid oğlu - daxili xidmət baş çavuşu
Bədəlov Ramil Fəxrəddin oğlu - daxili xidmət baş çavuşu
Əhədzadə Sədi Əlağa oğlu - polis baş serjantı
Əliyev Azər Baləmi oğlu - daxili xidmət baş çavuşu
Fərəcov Paşa Ədalət oğlu - polis baş serjantı
Qarayev Bəxtiyar Orucqulu oğlu - daxili xidmət baş çavuşu
Məcidov Saqid Xıdırnəbiyeviç - daxili xidmət baş çavuşu
Məmmədov İsmayıl Bahadır oğlu - daxili xidmət baş çavuşu
Mustafayev Cahangir İbrahim oğlu - daxili xidmət baş çavuşu
Səfiyarov Çərkəz Əlhəddin oğlu - daxili xidmət baş çavuşu
Tağıyev Vüsal Ramiz oğlu - daxili xidmət baş çavuşu
Tahirov Vüsal Vidadi oğlu - daxili xidmət baş çavuşu
Vəliyev Nuru Ələkbər oğlu - daxili xidmət baş çavuşu
Cəfərov Araz Azad oğlu - polis serjantı
Dadaşlı Yaqub Şirin oğlu - polis serjantı
Əhmədov Əli Qadir Cəbrayıl oğlu - polis serjantı
Məmmədov Əli Vaqif oğlu - polis kiçik serjantı

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Məmmədov Vüqar Şirvan oğlu - polkovnik-leytenant
Məmmədov Kamil Sərdar oğlu - kapitan
Sadıqov Eldar Elçin oğlu - kapitan
Əlimətov Arif Əlimət oğlu - çavuş

**3-cü dərəcəli "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

İsaqov Nurlan Novruz oğlu - daxili xidmət polkovnik-leytenantı
Ramazanov Ramazan Abudinoviç - daxili xidmət polkovnik-leytenantı
Serebrennikov Aleksandr Valeryeviç - daxili xidmət polkovnik-leytenantı
Kərimov Ramil Elşən oğlu - daxili xidmət mayoru
Kolesnikov Andrey Petroviç - daxili xidmət mayoru
Namazov Vüsal Sovet oğlu - daxili xidmət mayoru
Yusifov Ruslan Salman oğlu - daxili xidmət mayoru
Əliyev Hafiz Bəbir oğlu - daxili xidmət kapitanı
Abbasov Mövsüm Nazim oğlu - daxili xidmət baş çavuşu
Cəfərov Kamil Sabir oğlu - daxili xidmət baş çavuşu
Xəlilov Asif Əlişir oğlu - daxili xidmət baş çavuşu
Məmmədxanlı Rza Vahid oğlu - daxili xidmət baş çavuşu
Rüstəmov Ramil Fazil oğlu - daxili xidmət baş çavuşu
Seyidəlisoy Yavər Hüseyn oğlu - daxili xidmət baş çavuşu
Ağazadə Elşən İltifat oğlu - daxili xidmət çavuşu
Hacıyev Cavidan Mehman oğlu - daxili xidmət çavuşu
Haqverdiyev Rüfət Azər oğlu - daxili xidmət çavuşu
Kərimov Şahin Bəxtiyar oğlu - daxili xidmət çavuşu
Məmmədov Röyal Mahir oğlu - daxili xidmət çavuşu
Vahabov Əlihüseyn Zəraşa oğlu - daxili xidmət çavuşu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2022-ci il*

# Azərbaycanla Qazaxıstan arasında dini sahədə əməkdaşlığın artırılması müzakirə edilib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Qazaxıstanın Baş Müftisi Naurızbay Hacı Tağanulı ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Qazaxıstan Müsəlmanları Dini İdarəsinin rəhbər və nümayəndələri ilə görüşdə Azərbaycan və Qazaxıstan arasında tarixi dostluq və qardaşlıq əlaqələrinin bu gün bütün sahələrində, o cümlədən dini-mənəvi müstəvidə davamlı inkişaf etdiyini qeyd edən QMİ sədri bu münasibətlərin dövlətlərimizin və xalqlarımızın ümumi maraqlarına və mənafelərinə cavab verdiyini xüsusi vurğulayıb.

Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin dini idarə rəhbərləri konfransının Türküstanda keçirilməsinə görə ölkə başçısı Kasım-Jomart Tokayevin xüsusi diqqətini qeyd edən Şeyxülislam Allahşükür Paşazadə türkdilli dövlətlərin xalqlarını islam dininin birləşdirdiyini bildirib. QMİ-nin sədri deyib: "Dini və dili ortaq olan xalqların, ilk növbədə, dini liderlərinin də möhkəm bağları olmalıdır və yalnız bu halda müsəlman ümmətinin birliyi möhkəmlənəcək. Bu bünövrənin əsasını möhkəmləndirmək bizə nəsib olub və gələcək nəsillər də davam etdirəcəklər".

Baş Müfti Naurızbay Hacı Tağanulı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Azərbaycan xalqına xeyir-duasını çatdırıb. Hər zaman Azərbaycan və Qazaxıstan müsəlmanlarının qardaşlıq və dostluq əlaqələrinin möhkəm və davamlı olmasını diləyib.

Görüşün sonunda tərəflər dini sahələrdə əməkdaşlığın artırılması barədə razılığa gəliblər.

Xatırladaq ki, QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə "Türk xalqlarının islam sivilizasiyasına töhfələri" mövzusunda beynəlxalq elmi-praktiki konfransda iştirak etmək üçün Qazaxıstanın Türküstan şəhərinə səfər edib.

# Macarıstan Azərbaycan üçün yaxın dost və tərəfdaş ölkədir

## Macarıstanın Baş naziri zati-aliləri cənab Viktor Orbana

Hörmətli cənab Baş nazir.

Azərbaycan Respublikası ilə Macarıstan arasında əlamətdar tarix - diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Sizi təbrik edir, dost xalqınıza ən xoş və səmimi arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Müasir diplomatik əlaqələrimizin tarixi 30 illik dövrü əhatə etsə də, xalqlarımız arasında əsrlərdən bəri davam edən dostluq və əməkdaşlıq ənənələri mövcuddur. Macarıstan Azərbaycan üçün yaxın dost və tərəfdaş ölkədir. Məmnunluqla qeyd etmək istəyirəm ki, ötən onilliklər ərzində dövlətlərarası münasibətlərimiz dinamik və hərtərəfli inkişaf etmiş, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimiz daha da genişlənmişdir.

Bu gün ölkələrimiz arasında siyasi, iqtisadi, energetika, nəqliyyat, kənd təsərrüfatı, təhsil və digər sahələrdə fəal əməkdaşlıq mövcuddur. Hesab edirəm ki, qarşılıqlı faydalı əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün geniş imkanlar vardır.

Hazırda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Biz Macarıstandan olan şirkətlərin də bu prosesdə iştirakını görməkdən məmnun olardıq.

Azərbaycan ilə Macarıstan həm də beynəlxalq və regional təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edirlər. Macarıstanın Avropa İttifaqı çərçivəsində ölkəmizə göstərdiyi dəstəyi və Türk Dövlətləri Təşkilatı xətti ilə əməkdaşlığımızı yüksək qiymətləndiririk. Əminəm ki, Azərbaycan Respublikası ilə Macarıstan arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan dostluq münasibətləri bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Macarıstan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2022-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Diplomatik münasibətlərimizin qurulmasının 30 illiyi münasibətilə Sizə ən xoş arzularımı yetirirəm.

Şadam ki, son üç onillikdə ölkələrimiz arasında əlaqələr davamlı şəkildə inkişaf edib və biz qarşılıqlı hörmətə əsaslanan sıx strateji tərəfdaşlıq münasibətləri qurmuşuq.

Sizi əmin edirəm ki, Macarıstan siyasi, iqtisadi, ticarət və mədəni sahələrdə ikitərəfli əlaqələrimizin dərinləşdirilməsinə sadiqdir. Ümumi məqsədlərimizə nail olmaq üçün Siz bundan sonra da hökumətimin dəstəyinə arxalana bilərsiniz. İnanıram ki, enerji sahəsində əməkdaşlığımızın genişləndirilməsi və macar şirkətlərinin Qarabağın yenidən qurulmasında iştirakı ilə bağlı danışıqlar uğurla nəticələnəcək.

Sizə möhkəm cansağlığı və ali dövləti vəzifənizdə yeni uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Viktor ORBAN,***
***Macarıstanın Baş naziri***

# Azərbaycan Yaponiya üçün mühüm tərəfdaşdır



Milli Məclisin Sədri Sahibə Qafarova mayın 5-də ölkəmizdə səfərdə olan Yaponiya xarici işlər nazirinin parlament üzrə müavini Honda Taro ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, yaponiyalı qonağı salamlayan Milli Məclisin Sədri bu səfərin iki ölkə arasındakı münasibətlərin inkişafına öz töhfəsini verəcəyinə inamını ifadə edib.

Azərbaycan ilə Yaponiya arasındakı əlaqələrin bugünkü vəziyyətinin məmnunluq doğurduğunu deyən Sahibə Qafarova Azərbaycanın Yaponiya ilə əlaqələrin hərtərəfli inkişafına böyük əhəmiyyət verdiyini diqqətə çatdırıb. Bildirib ki, ölkələrimiz arasındakı fəal siyasi dialoq, sıx iqtisadi əməkdaşlıq ikitərəfli əlaqələrin digər sahələrdə də inkişafı üçün yaxşı zəmin yaradır.

Bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu xatırladan Milli Məclisin Sədri Yaponiyanın Cənubi Qafqazdakı ilk səfirliyini məhz Azərbaycanda açmasını ölkəmizlə münasibətlərə verilən əhəmiyyətin göstəricisi kimi qiymətləndirib. Sahibə Qafarova ikitərəfli əlaqələrin inkişafında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin müstəsna rolunu qeyd edib, yüksəksəviyyəli səfərlərin və səfərlər zamanı imzalanmış sənədlərin əhəmiyyətini vurğulayıb.

İki ölkənin qanunverici orqanları arasında əlaqələrdən danışan Sahibə Qafarova parlamentlərarası əməkdaşlığın ikitərəfli əlaqələrin inkişafındakı rolunu xüsusi qeyd edib. Bildirib ki, hər iki ölkənin qanunvericilik orqanlarında fəaliyyət göstərən dostluq qruplarının işi təqdirəlayiqdir.

Spiker yaponiyalı qonağa Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 il davam edən işğalına son qoyulması, işğal dövründə Ermənistanın binalar, infrastruktur, o cümlədən mədəni və dini abidələrimizi tamamilə məhv etməsi, hazırda işğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq və bərpa işləri, həmçinin mövcud mina problemi barədə məlumat verib.

Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, hazırda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması üzrə səylər davam edir. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Brüsseldə keçirilmiş üçtərəfli görüşdə müəyyən razılaşmalar əldə olunub. Ermənistan Azərbaycanın sülh müqaviləsi üçün irəli sürdüyü 5 prinsipi qəbul edir. Biz sülhdən və sabitlikdən danışırıq və inanırıq ki, tezliklə iki ölkə arasında sülh müqaviləsi imzalanacaqdır.

Yaponiya xarici işlər nazirinin parlament üzrə müavini Taro Honda səmimi görüş üçün minnətdarlığını bildirərək Milli Məclisin Sədri ilə görüşün onun üçün böyük şərəf olduğunu qeyd edib. Ölkələrimiz arasında diplomatik münasibətlərin 30-cu ildönümünün qeyd olunması münasibətilə təbriklərini çatdırıb. O, ötən dövrdə Azərbaycan və Yaponiya arasında bir çox sahələrdə, o cümlədən siyasi və iqtisadi sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirib. Nazir müavini Taro Honda qeyd edib ki, Azərbaycan beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsi və regionda sülhün bərqərar olunması baxımından vacib ölkədir. Azərbaycanın Yaponiya üçün mühüm tərəfdaş olduğunu deyən qonaq qarşılıqlı faydalı əməkdaşlığın əhəmiyyətindən danışıb. O, iki ölkə arasında parlamentlərarası əməkdaşlığın inkişaf etdiyini deyib və bu baxımdan qarşılıqlı səfərlərin xüsusi rolunu qeyd edib.

Qonaq Yaponiya və Azərbaycan arasında əlaqələrin daha da fəallaşmasının və inkişaf etməsinin tərəfdarı olduqlarını diqqətə çatdırıb. Nazir müavini Azərbaycanın işağaldan azad olunmuş ərazilərində "yaşıl enerji" zonasının yaradılması, həmçinin həmin ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa işlərində Yaponiya şirkətlərinin iştirakına dair iki ölkə arasında danışıqların aparıldığını da qeyd edib.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlərə dair də fikir mübadiləsi aparılıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanla Yaponiya arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Yaponiyanın xarici işlər nazirinin parlament üzrə müavini Honda Taro ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Ceyhun Bayramov Yaponiya nümayəndə heyətini salamlayaraq bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunmasını vurğulayıb və Azərbaycanın Yaponiya ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edib.

Öz növbəsində, Yaponiya xarici işlər nazirinin parlament üzrə müavini Honda Taro iki ölkə arasında diplomatik münasibətlərin 30 illiyinin qeyd olunması münasibətilə təbriklərini çatdıraraq bu müddət ərzində Azərbaycan və Yaponiya arasında bir çox sahələrdə, o cümlədən siyasi və iqtisadi sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyi bildirib. Nazir müavini enerji təhlükəsizliyi baxımından mühüm rol oynayan Azərbaycanın regionda Yaponiyanın mühüm tərəfdaşı olduğunu ifadə edib.

Tərəflər həmçinin Azərbaycan ilə Yaponiya arasında energetika, alternativ enerji, iqtisadiyyat, humanitar, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlıq münasibətləri ətrafında fikir mübadiləsi aparıblar.

Ceyhun Bayramov qarşı tərəfə Azərbaycanın azad olunmuş ərazilərindəki vəziyyət, işğal dövründə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən məqsədyönlü şəkildə dağıdılması, mədəni irsin talan edilməsi, azad olunmuş ərazilərdə Azərbaycan hökuməti tərəfindən aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, minaların təmizlənməsi, ekologiya və ətraf mühitin qorunması sahəsində görülən işlər barədə ətraflı məlumat verib. Bu xüsusda nazir Yaponiya şirkətlərinin quruculuq prosesində iştirakını minnətdarlıqla ifadə edib.

İşğal amilinin aradan qaldırılması ilə iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün imkanların yaradıldığını qeyd edən nazir Azərbaycanın regionda davamlı sülhün və inkişafın bərqərar olması üçün atdığı əməli addımlardan söhbət açıb.

Görüşdə tərəflər arasında, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, regional məsələlər, o cümlədən Ukraynadakı vəziyyət, habelə qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# Azərbaycanın Baş prokuroru İtaliyada Avropa prokurorluq orqanları rəhbərlərinin konfransında iştirak edir

Xəbər verildiyi kimi, İtaliyanın Baş prokuroru Covanni Salvinin dəvəti ilə Baş prokuror Kamran Əliyev Palermoda keçirilən Avropa prokurorluq orqanları rəhbərlərinin konfransında iştirak edir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tarixi Norman Ədalət sarayında işə başlayan tədbiri açıq elan edən İtaliyanın Baş prokuroru Covanni Salvi müasir dövrün çağırışlarına uyğun olaraq, prokurorluq sisteminin inkişafı, insan hüquqlarının qorunmasında prokurorluğun rolu, mütəşəkkil cinayətkarlığa və cinayətkar qruplara, xüsusilə mafiyaya qarşı mübarizədə, kibercinayətkarlıq, rəqəmsal valyutalardan istifadə etməklə törədilən cinayətlər və digər sahələrdə prokurorluqlar arasında beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayıb.

Konfransın plenar sessiyasında əsas hüquqların müdafiəsi kontekstində prokurorların müstəqilliyi, qərəzsizliyi və hesabatlılığı mövzusunda çıxış edən Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması istiqamətində aparılan mütərəqqi islahatlar haqqında məlumat verib. Prokurorluq orqanlarında həyata keçirilən islahatlar çərçivəsində kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində əldə olunmuş uğurlu nəticələr haqda iştirakçılara məlumat verilib.

Kamran Əliyev transmilli mütəşəkkil cinayətkarlığın müasir çağırışlarına, xüsusilə kriptovalyuta və yeni texnologiyalar vasitəsilə törədilən yeni növ cinayətlərin istintaqında çevikliyin və səmərəliliyin təmin olunması məqsədilə prokurorluq orqanları arasında birgə fəaliyyətin, o cümlədən hüquqi yardım haqqında sorğuların icrasının intensivləşdirilməsinin vacibliyini vurğulayıb.

Konfransda İtaliyanın Baş prokuroru Covanni Salvi ilə ikitərəfli görüş keçirilib. Ölkələrimiz arasında zəngin tarixi və mədəni irsə köklənən dostluq münasibətlərinin mövcudluğu vurğulanaraq, bu əlaqələrin qarşılıqlı hörmət və etimada əsaslanan qurumlararası əməkdaşlığın inkişafına töhfə verdiyi qeyd edilib. Prokurorluqlar arasında əlaqələrin bundan sonra daha dinamik inkişaf etdirilməsinə dair razılıq əldə olunub, tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Konfrans işini davam etdirir.

## Milli Məclisin iclasında

# "Şuşa" adından sui-istifadə qanunla qadağan olunur

**Mayın 5-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Spiker Sahibə Qafarova bildirib ki, iclasın gündəliyinə 22 məsələ daxil edilib. İlk olaraq İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı dinlənilib.**



Daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimov Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair illik məlumatı təqdim edib. Bildirib ki, fundamental insan hüquq və azadlıqlarını pozan və beynəlxalq təhlükəsizliyə təhdid yaradan insan alveri özünün müxtəlif təzahür və formalarında transmilli mütəşəkkil cinayətkarlığın ən təhlükəli növlərindən biri olaraq qalmaqdadır. Beynəlxalq təşkilatların məruzələrindən görünür ki, 2021-ci ildə təxminən 25 milyon insan alveri qurbanı aşkar edilib və qlobal miqyasda hər 10 qurbandan 5-i yetkin qadınlar və üçdə biri uşaqlar olub.

Diqqətə çatdırılıb ki, ötən il Azərbaycanın insan alverinə qarşı mübarizə strategiyası çərçivəsində həmin cinayətlərin qarşısının alınması, qurbanların müdafiəsi,vətəndaş cəmiyyəti, beynəlxalq və xarici təsisatlarla əməkdaşlıq pandemiya dövrünün tələblərinə uyğun davam etdirilib. Bu sahədə qanunvericilik bazası müasir dövrün tələbləri, beynəlxalq qurumların tövsiyələri və mütərəqqi təcrübə nəzərə alınmaqla təkmilləşdirilib. Qeyd olunub ki, insan alveri və məcburi əmək cinayətlərinin aşkarlanması və profilaktikası məqsədilə Milli Fəaliyyət Planının icrası çərçivəsində, habelə beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla tikinti, kənd təsərrüfatı və xidmət sektorlarında Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri tərəfindən monitorinqlər aparılmasına dair normativ hüquqi akt layihələri hazırlanıb Nazirlər Kabinetinə təqdim olunub. İnsan alverinin qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin daha səmərəli həyata keçirilməsi, insan alverinə qarşı mübarizədə koordinasiyanın gücləndirilməsi üçün müvafiq idarələrarası komissiyanın və İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun hüquqi statusuna yenidən baxılaraq tərkibinin yenidən formalaşdırılması haqda qanunvericilik layihələri hazırlanıb. Azərbaycan Respublikasının "Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası"na qoşulması barədə vəsatət də qaldırılaraq aidiyyəti üzrə göndərilib.

Məlumat verilib ki, insan alverinin profilaktikasında mühüm əhəmiyyət kəsb edən maarifləndirmə işi, qanunsuz miqrasiyanın, ölkə ərazisindən insan alveri məqsədilə tranzit istifadə edilməsinin və uşaq nikahlarının qarşısının alınması, baxımsız qalan, təhsildən yayınan, övladlığa götürülmüş, qəyyumluğa, yaxud himayəyə verilmiş uşaqların ailələrinə nəzarətin həyata keçirilməsi, kütləvi informasiya vasitələrinin, internet informasiya ehtiyatlarının monitorinqi və digər zəruri tədbirlər davam etdirilib. Daxili İşlər Nazirliyi tərəfindən antinarkotik təbliğatla bağlı təhsil müəssisələrində 700-ə yaxın maarifləndirmə tədbiri keçirilib.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, 44 günlük Vətən müharibəsində qazanılan Zəfərlə Azərbaycan, eyni zamanda, regionda, bütövlükdə dünyada insan alveri ilə mübarizə sahəsinə öz töhfəsini verib. 30 il davam edən qanunsuz məskunlaşma və qaçaqmalçılıq, transmilli cinayətlərin zonasına çevrilən Qarabağ torpaqları indi azaddır.

Komitə sədri qeyd edib ki, cari ilin aprel ayında Nazirlər Kabineti tərəfindən insan alveri qurbanları ilə bağlı milli istiqamətləndirmə mexanizmi qaydaları barədə sənədə dəyişiklik edilib. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun yanında idarələrarası komissiya yaradılıb. Zahid Oruc ümumilikdə vətəndaşların sabit və təhlükəsiz şəraitdə yaşaması və dünyada sabitliyin qorunması sahəsində ön yerlərdən birini tutan Azərbaycan dövlətinin güc strukturlarının insan alverinə qarşı mübarizə üzrə fəaliyyətinin və təqdim edilən illik məlumatın qənaətbəxş olduğunu bildirib.

İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı ətrafında müzakirələrdə komitə sədri Siyavuş Novruzov, deputatlardan Sahib Alıyev, Vüqar Bayramov, Elşən Musayev, Səbinə Xasayeva, Arzu Nağıyev, Etibar Əliyev, Razi Nurullayev, Kamilə Əliyeva çıxış edərək qeyd və təkliflərini səsləndiriblər. Deputatlar məlumatın yüksək səviyyədə hazırlandığını bildiriblər. Müzakirələrin sonunda İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı səsə qoyularaq nəzərə alınıb.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Qida təhlükəsizliyi haqqında" qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Qeyd edib ki, əvvəlki müzakirələr zamanı qanun layihəsi barədə bir sıra fikirlər səsləndirilib. İşçi qrupu tərəfindən həmin fikirlər nəzərdən keçirilib və sənəd üzərində iş davam etdirilərək qanunun 38 maddəsinə müvafiq dəyişikliklər edilib. Bu dəyişikliklər qanunun təkmilləşdirilməsinə xidmət edir.

Qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul edilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirilib ki, qanunun 21.1.4-1-ci maddəsinə müvafiq olaraq təhsil müəssisələrində, onların filiallarında və elmi təşkilatlarında təhsilini davam etdirən digər çağırışçılarla yanaşı, adyunkturaya qəbul üzrə ilk imtahandan müvəffəqiyyətlə keçən çağırışçılara təhsil imkanlarını genişləndirmək üçün müddətli həqiqi hərbi xidmətə çağırışdan 3 ay müddətinə möhlət hüququ vermək məqsədi ilə dəyişiklik nəzərdə tutulub.

Qanun layihəsi bir oxunuşda səsə qoyulub və qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində və Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Diqqətə çatdırıb ki, qanun layihəsi "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2019-cu il 1720-VQD nömrəli və "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Uşaq hüquqları haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" 2019-cu il 1722-VQD nömrəli qanunlarının icrası ilə əlaqədar hazırlanıb və terminoloji dəqiqləşdirmə xarakteri daşıyır.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova layihə ilə bağlı komitənin müsbət rəyini bildirib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Əhalinin sağlamlığının qorunması haqqında" və "Psixiatriya yardımı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq bir oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini müzakirəyə təqdim edib. Bildirib ki, qanuna "Şuşa" adından istifadə etmək üçün xüsusi qaydaların tətbiq edilməsi məqsədilə 3-1-ci maddənin əlavə edilməsi təklif olunur. Yeni maddədə nəzərdə tutulan hallarla bağlı Şuşa Şəhəri Dövlət Qoruğu öz adından və rəsmi "Şuşa" adından istifadə etməkdə müstəsna hüquqa malikdir. Eyni zamanda, Şuşa şəhərində mövcud abidələrin tam həcmdə qorunması məqsədilə bu qanunun 7.5-ci maddəsindən "arxeoloji" sözünün çıxarılması təklif edilir.

Əli Hüseynli Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Sahibkarlıq fəaliyyəti haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi barədə də məlumat verib. Qeyd olunub ki, yuxarıda deyilənlərlə əlaqədar adları çəkilən qanunlara uyğunlaşdırma xarakterli düzəlişlərin edilməsi nəzərdə tutulub.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Deputat sənədin birinci oxunuşu zamanı səsləndirilən fikirlərə münasibət bildirib, bəzi məqamlara aydınlıq gətirib. Qeyd edilib ki, Məcəlləyə təklif olunan dəyişikliklər əmək münasibətlərinin təkmilləşdirilməsi məqsədi daşıyır. Layihəyə əsasən, Məcəllənin 49-cu maddəsinə yeni 5-ci hissə əlavə edilməklə işçinin müraciəti əsasında əmək müqaviləsi bildirişinin qüvvədən salınması səlahiyyəti əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqana verilir. Eyni zamanda, tərəflərin iradəsindən asılı olmayan hallarda əmək müqaviləsinə xitam verilməsinin əsasları ilə bağlı 74-cü maddəyə müvafiq əlavələr də təklif olunur.

Qanun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti 4 məsələsi ölkə Prezidenti tərəfindən bir məktubla daxil olub və mahiyyətcə bir-birinə yaxın məsələlərdir.

Əvvəlcə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Bildirib ki, qanuna ümumilikdə 10 maddə üzrə 43 dəyişiklik nəzərdə tutulub.Təklif edilən bütün dəyişikliklər mahiyyət etibarı ilə pozitiv xarakter daşıyır və vətəndaşların pensiya təminatının yaxşılaşdırılmasına xidmət edir. Qeyd olunub ki, bu dəyişikliklərin qəbul edilməsi ölkəmizdə pensiya təminatı sistemində sığorta prinsiplərinin daha da gücləndirilməsinə, 17-20 min vətəndaşımızın pensiyaya çıxma şərtlərinin yumşaldılmasına və pensiya məbləğinin artımına hüquqi təminatlar yaradacaq.

Sonra komitə sədri "Sosial müavinətlər haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. Diqqətə çatdırıb ki, qanunun 5-ci və 7-ci maddələrinə təklif edilən dəyişikliklər "Əmək pensiyaları haqqında" qanunun 14-cü maddəsinə nəzərdə tutulan dəyişikliklərlə bağlıdır və mahiyyət etibarı ilə uyğunlaşma xarakteri daşıyır. Bu dəyişiklik qəbul edildikdə, ailə başçısını itirməyə görə pensiya alan ailə üzvlərindən hər hansı birinin həm də sosial müavinət alma hüququ olduqda, şəxsin pensiya və müavinət arasında seçim etmək, həmçinin hər iki sosial təminat hüququndan yararlanmaq imkanı olacaqdır.

Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Onkoloji yardım haqqında" və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirib ki, sənəd onkoloji xəstələrin, eləcə də dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sosial müavinət və əmək pensiyası almaq hüququnu müəyyənləşdirir. Layihə "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihələrə uyğunlaşdırma xarakteri daşıyır, qeyd olunan xəstəliklərdən əziyyət çəkən şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə əlaqədar məlumat verib. Bildirilib ki, sənəd "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsinin qəbulu ilə əlaqədar qanunvericiliyin uyğunlaşdırılması məqsədilə hazırlanıb. Dəyişikliyə əsasən, penitensiar xidmətdə qulluq etmiş əməkdaşların və onların ailə üzvlərinin, habelə penitensiar müəssisələrdə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası almaq hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun təsdiq etdiyi siyahısında nəzərdə tutulan işlərdə işləyən mülki işçilərin pensiya təminatı "Əmək pensiyaları haqqında" qanunla müəyyən edilir.

Fasilədən sonra təqdim olunan məsələlərlə bağlı müzakirələr aparılıb. Komitə sədri Qənirə Paşayeva, deputatlardan Tahir Kərimli, Əli Məsimli, Azay Quliyev, Qüdrət Həsənquliyev, Fəzail Ağamalı təklif olunan dəyişikliklər barədə fikirlərini, qeyd və təkliflərini açıqlayıblar.

İclasda iştirak edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov səsləndirilən fikirlərə aydınlıq gətirib. Müzakirələrdən sonra hər 4 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra iclasda Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) müzakirəyə təqdim olunub. Qeyd edilib ki, sənəddə fiziki şəxslərin kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə əldə etdikləri dividendlərin və faiz gəlirlərinin 2023-cü il fevralın 1-dən etibarən 5 il müddətinə gəlir vergisindən azad edilməsi, habelə hüquqi şəxslərin faiz gəlirlərinə görə vahid vergitutma mexanizminin tətbiq edilməsi nəzərdə tutulub.

Qanun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev mahiyyətcə bir-birinə yaxın olan növbəti iki məsələni təqdim edib. Əvvəlcə, "Ümumi təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) diqqətə çatdırılıb. Bildirilib ki, layihədə ümumi təhsil müəssisələrinin xarakterinə görə ümumi və internat tipli təhsil müəssisələrinə bölündüyü, onların özlərinin də ümumi təyinatlı, inteqrasiya təlimli və xüsusi təhsil müəssisələri kimi qruplaşdırıldığı öz əksini tapıb və müvafiq anlayışlar verilib. Bütövlükdə təklif edilən dəyişikliklərin əsas məqsədi, sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pilləleri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir.

Sonra komitə sədri "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini təqdim edib. Bildirib ki, təklif olunan dəyişikliklər "Ümumi təhsil haqqında" qanuna edilən dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır. Layihədə təhsil müəssisəsinin tipləri və növləri konkretləşdirilməklə hər iki qanunun normaları bir-birinə uyğunlaşdırılaraq sağlamlıq imkanları məhdud şəxslərə zəruri bilik, bacarıq və vərdişlər aşılamaqla onların cəmiyyətə uyğunlaşması istiqamətində sağlam şəxslərlə birgə təhsil almaları üçün xüsusi şəraitin yaradılmasının təmin edilməsi nəzərdə tutulur. Sənədə əsasən, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" qanuna inteqrasiyalı təhsilin təşkili ilə bağlı yeni 11-1-ci maddə də əlavə olunur.

Layihələr ətrafında aparılan müzakirələrdə deputatlar Fazil Mustafa, Sevil Mikayılova, Sədaqət Vəliyeva, Etibar Əliyev, Fəzail Ağamalı fikirlərini açıqlayıblar.

Komitə sədri Bəxtiyar Əliyev səsləndirilən bəzi məqamlara aydınlıq gətirdikdən sonra hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra iclasda birinci oxunuşda olan qanun layihələri müzakirəyə çıxarılıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov "Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, "Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə" medalı ilə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ətraf mühitin mühafizəsi ilə bağlı mühüm layihələrin hazırlanmasında və onların həyata keçirilməsində fəal iştiraka görə, ətraf mühitin mühafizəsi ilə bağlı obyektiv informasiyanın yayılmasına və görülən işlərin təbliğinə verilən töhfəyə görə, ətraf mühitin mühafizəsi ilə bağlı Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində və möhkəmləndirilməsində göstərilən xidmətlərə görə təltif edilirlər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, təklif edilən dəyişiklik inzibati aktla (inzibati aktın qəbul edilməsindən imtina ilə) bağlı məhkəməyə verilən şikayətlər üçün iddia müddətinin axımının dayandırılması hallarını nəzərdə tutan 38.3-cü maddənin təkmilləşdirilməsi ilə əlaqədar hazırlanıb.

Qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun və onun tərkibinə daxil olan informasiya sistemlərinin, informasiya-kommunikasiya şəbəkələrinin və avtomatlaşdırılmış idarəetmə sistemlərinin təhlükəsizliyinin gücləndirilməsi məqsədilə Azərbaycan Prezidenti tərəfindən 17 aprel 2021-ci ildə "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" fərman imzalanıb. Həmin fərmanda bu sahənin hüquqi tənzimlənməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması nəzərdə tutulub.

Təqdim olunan qanun layihəsində kritik informasiya infrastrukturu, onun obyekti və subyekti, digər anlayışlar, kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan, habelə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydasının hüquqi əsasları müəyyən edilir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qanun layihəsi barədə komitənin rəyini diqqətə çatdırıb. Qeyd edib ki, bu qanunun qəbul edilməsi ilə Azərbaycan MDB məkanında kibertəhlükəsizliyə ən çox diqqət ayıran ölkə olacaq. Komitə sədri qanunun Avropa standartlarına uyğun olduğunu söyləyib və onun qəbulunun ölkənin iqtisadi dayanıqlılığına nail olmaq, dövlət büdcə gəlirlərinin təmin olunmasında hər hansı təhlükələrin aradan qaldırılması, bank və maliyyə sektorunun sağlamlığının dayanıqlığının təmin olunması, əhalinin hər hansı ciddi təhlükədən sığortalanması baxımından əhəmiyyətini qeyd edib.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Layihədə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydasının pozulması və bu sahədə səlahiyyətli orqanın tələblərinin yerinə yetirilməməsi və ya ona maneçilik törədilməsi halında inzibati məsuliyyətin və inzibati təqibin müəyyən edilməsi üçün İnzibati Xətalar Məcəlləsinə müvafiq dəyişikliklərin edilməsi təklif olunur.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, sənəd adları çəkilən qanunların "Nağdsız hesablaşmalar haqqında" 2021-ci il 3 dekabr tarixli qanuna uyğunlaşdırılması məqsədi ilə hazırlanıb.

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bu komitələrin sənədlə bağlı müsbət rəylərini bildiriblər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Fatma Yıldırım "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə məlumatında bildirib ki, təklif olunan dəyişikliklər qanunun təkmilləşdirilməsi və bir sıra müddəalarının dəqiqləşdirilməsi məqsədi daşıyır..

Komitə sədri Siyavuş Novruzov, deputatlar Razi Nurullayev, Aydın Hüseynov, Sevinc Hüseynova təklif olunan dəyişikliklər barədə fikirlərini bildiriblər. Komitə sədri Sadiq Qurbanov çıxışlarda səsləndirilən məsələlərə münasibət bildirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında", "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" və "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Qeyd olunub ki, qanun layihəsi "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 9 iyul 2021-ci il tarixli qanununun tətbiqi ilə əlaqədar hazırlanıb, uyğunlaşdırma və terminlərin dəqiqləşdirilməsi məqsədi daşıyır.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

1923 *Azərbaycanın özü qədər əbədi* 2022

# İnamın gücü



Hər əsrin ümumi tarixi mənzərəsini müəyyən edən xarakterik xüsusiyyətlər var. Artıq üçüncü onilliyinə doğru irəlilədiyimiz əsrimiz də böyük ehtimalla daha çox texnologiyaların inkişafı, kosmosun geniş miqyasda fəthi, kainatın sirlərinin insan üçün daha da aydınlaşması, rəqəmsallaşma prosesləri, innovasiyaların həyatın ən müxtəlif sahələrində geniş tətbiqi ilə yadda qalacaq. Bu baxımdan bizim - bu əsrin insanlarının gələcək nəsillər qarşısında öyünəsi çox nailiyyətlərimiz var.

Amma bütün bunlarla yanaşı, XXI əsr əfsuslar olsun ki, həm də qlobal münaqişələr, böhranlar dövrü olması ilə xatırlanacaq. Həqiqətən, bu gün dünyada baş verənləri nəzərdən keçirəndə, ayrı-ayrı epizodları eyni zaman müstəvisində birləşdirəndə bizə elə gəlir ki, sanki dünya tarixinin heç bir dövründə indiki qədər savaşlar, təlatümlər, problemlər yaşanmayıb.

Bir tarixçi kimi həmişə sabaha məhz dünənin və bugünün kontekstindən yanaşıram. Planetimiz genişmiqyaslı böhranlar məngənəsindədir. İqtisadi problemlər, sosial səfalət, insan sağlamlığına qarşı qlobal təhdidlər Yer üzünü ağuşuna alıb. Bir tərəfdən də ekoloji kataklizmlər insan həyatı üçün böyük təhlükəyə çevrilib. Minilliklərlə yaşı olan dövlətlər süquta uğrayır, sivilizasiyalar tədricən aşınıb sıradan çıxır. Bir çox dəyərlər öz əhəmiyyətini itirməyə başlayır. Dünyanın ən möhtəşəm tarixini yaratmış xalqların təmsilçiləri indi miqrant statusu ilə Avropanın inkişaf etmiş şəhərlərinin küçələrində səfil həyatı keçirirlər. Humanizm, insana sevgi, gələcəyə inam öz yerini ksenofobiyaya, fərqli mədəniyyətlərə aid insanların bir-birinə qarşı qeyri-adekvat davranışlarına, dünyamızın sabahı ilə bağlı bədgüman suallara verib. Dünya sanki öz məhvərindən çıxıb.

Belə bir reallıq içində bizim xalq üçün sevinib qürur duyası əsas məqam isə odur ki, bu parçalanan, iflasa sürüklənən, mənəvi ideallarından uzaq düşən dünyada Azərbaycan Respublikasına baxanda ölkəmizi həqiqətən sabitlik adası, inkişaf məkanı, rifah ünvanı kimi görə bilirik.

## Coğrafiya taledir

Belə bir məşhur ifadə var ki, "coğrafiya taledir". Bəli, hər bir xalqın yaşadığı coğrafiya istər-istəməz onun taleyini də, bir çox arxetiplərini də müəyyənləşdirir. Keçmişində, bugünündə dərin izlər buraxır. Bu fikrin dəqiqliyini öz xalqımızın yaşadıqlarında aydın görə bilirəm.

Biz strateji baxımdan son dərəcə əhəmiyyətli bir coğrafiyada yaşayırıq. Tarixən Şərqin qapısı sayılan Azərbaycanın - Odlar yurdunun təbii sərvətləri bu məkanın dünya üçün önəmini daha da artırır. Bu üstünlüklər, təbii ki, bu Vətənin hər bir övladı üçün böyük qürur mənbəyidir. Bununla belə bu cür strateji coğrafiyada yerləşməsi Azərbaycanı əsrlər boyu yadellilərin istilalarına, hərbi yürüşlərinə də məruz qoyub. Fövqəlimperiyalar daim burada öz maraqlarını təmin etməyə çalışıblar. Eyni istəyi müasir dövrümüzün fövqəldövlətlərinin davranışlarında da görmək çətin deyil. Bütün bunların nəticəsində xalqımız tarix boyu amansız tale yaşayıb, ağır sınaqlardan keçib, məşəqqətlərə qatlaşıb.

Bu bir reallıqdır ki, Azərbaycan kimi həssas coğrafiyalarda yaşayan toplumların həyatında lider amili müstəsna rola malikdir. Xalqı müxtəlif dönəmlərdə üzləşdiyi bəlalardan qurtaran, coğrafiyanın cızdığı keşməkeşli taleyin sınaqlarından üzüağ çıxaran, xilas edən məhz liderlər olur. Belə bir həqiqət işığında - doğum gününü xalqımızın əlamətdar bayramı kimi qeyd etdiyimiz Heydər Əliyev dühası, son üç onillikdə isə Prezident cənab İlham Əliyev şəxsiyyəti ön plana çıxır.

## Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan

Azərbaycan dövləti ərazicə o qədər geniş deyil. Dünyanın fiziki-coğrafi xəritəsində miqyası nə qədər böyüdürsən böyüt, yenə də Vətənimizə aid hissə nöqtədən bir qədər böyük görünəcək.

Amma dünya tarixi əsrlər boyu bunu da sübuta yetirib ki, dövlətlərin dünya düzənindəki rolu, əhəmiyyəti heç də onların coğrafi miqyasca böyük-kiçikliyinə bağlı deyil. Müasir dünya xəritəsində Azərbaycan coğrafi anlamda hər nə qədər kiçik görünsə də, ölkəmizin qlobal mahiyyəti, siyasi-iqtisadi, sosial-mədəni miqyası olduqca böyükdür, genişdir, qitələrə sığmayacaq bir şəkildədir.

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan bu gün qitələrarası mühüm nəqliyyat-logistika marşrutlarının yaradıcısıdır. Özü də eyni zamanda bir deyil, bir neçə marşrutun yaradıcısıdır. Bu gün beynəlxalq iqtisadiyyat üçün qan damarı rolunu oynayan, ölkələri, mədəniyyətləri bir-birinə qovuşduran yollar, marşrutlar, kommunikasiya kanalları bizim məmləkətdə birləşir, burada uzlaşır, Azərbaycandan dünyanın fərqli məkanlarına doğru şaxələnir. Bu gün ölkələr, beynəlxalq aləm Azərbaycan vasitəsilə etibarlı kommunikasiya qurur.

Eyni mənzərə qlobal enerji kanallarına da aiddir. Tarixən enerji ölkəsi kimi tanınmış Azərbaycan artıq təkcə Avrasiya qitəsinin deyil, ümumən dünyanın enerji xəritəsini korrektə edən əsas aktorlardan birinə çevrilib. Bu da təbii ki, bir tərəfdən ölkəmizin zəngin təbii resursları, burada mövcud olan sabitlik və inkişaf mühiti hesabınadır. Digər tərəfdən isə Ulu Öndər Heydər Əliyevin gələcəyə aydın baxışla irəli sürdüyü və bu gün Prezident İlham Əliyevin yeni təşəbbüslərlə daha da genişləndirdiyi, möhkəmləndirdiyi qlobal infrastruktur layihələri sayəsindədir.

Azərbaycan bu gün dünyamız üçün böyük təhdidə çevrilmiş beynəlxalq terrorizmə qarşı prinsipial və davamlı şəkildə mübarizə aparan, belə bir bəlanın aradan qaldırılmasına çalışan və bu ümumbəşəri mübarizəyə ardıcıl töhfələr verən öncül dövlətlərdəndir.

Azərbaycan dünyada etibarlı partnyorluğun ən mükəmməl nümunələrindəndir. Tərəfdaşlıq etdiyi bütün platformalarda Azərbaycana inanır, güvənir və bu inamın verdiyi əminliklə də işbirliyindən çəkinmirlər. Bütün bu nailiyyətlər, heç şübhəsiz ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin zəmanəmizin ən parlaq liderlərindən biri kimi şəxsi keyfiyyətlərinin, yürütdüyü məqsədyönlü siyasətin möhtəşəm təcəssümüdür.

Tarixin ən qüdrətli Azərbaycanı - Heydər Əliyevin ideyalardan, şərəfli amallarından dünyaya gələn tarixi reallıqdır, dövlətçilik irsidir. Bu ilk növbədə Ulu Öndər Heydər Əliyevin şah əsəridir.

Eyni zamanda möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dərin intellektinin, geniş vizyonunun nəticəsidir. Keçilməsi o qədər də asan olmayan, saysız çətinliklər hesabına başa gələn əzab-əziyyətli, amma həm də şərəfli uzun bir yolun gətirib çıxardığı milli-strateji hədəfdir, ali məqsəddir.

Xalqımızı bu yola doğru istiqamətləndirən, öz müdrik zəkası ilə yolumuza işıq salıb aydınladan, bugünün möhtəşəm Azərbaycanının ilk kərpicini qoyan isə doğum gününü qədirbilənliklə, minnətdarlıqla qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevdir.

## Heydər Əliyevin Azərbaycanı

Müstəqil Azərbaycan dövlətini haqlı olaraq "Heydər Əliyevin Azərbaycanı" adlandırırlar. Bu bir danılmaz həqiqətdir. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdıb ölkəni və cəmiyyəti üzləşdiyi ağır çətinliklərdən xilas edən, yenicə qazandığı müstəqilliyini, dövlətçilik əsaslarını itirmək təhlükəsi ilə üzləşmiş Azərbaycanı dövlət kimi qurub inkişaf etdirən məhz Heydər Əliyevdir.

Eyni zamanda "Heydər Əliyevin Azərbaycanı" ifadəsi təkcə 1993-cü ildən sonrakı dövrü əhatə edən reallıq deyil. Tarixçi kimi yada salmağı özümə borc bilirəm ki, 1969-1982-ci illərin Azərbaycanı da keçmiş ittifaq miqyasında məhz "Heydər Əliyevin Azərbaycanı" kimi tanınırdı və bu, Ulu Öndərin o illərdə dövlət və xalq qarşısındakı xidmətlərinə verilən layiqli qiymət idi.

Biz Heydər Əliyevin müstəqillik mərhələsində siyasi hakimiyyətə qayıdışı dövrünü xatırlayarkən o illərin ağır böhranlarını, çətin günlərini, ölkə üçün də, xalq üçün də taleyüklü anlarını yaxşı xatırlayırıq. Qısa müddətdə vəziyyəti nizama salmaq, ölkəni çalxalanmalardan, təlatümlərdən xilas edib rəvan bir inkişaf yoluna çıxarmaqdan ötrü Ulu Öndərin fədakar fəaliyyətinin ayrı-ayrı epizodları kino lenti kimi gözlərimiz önündən keçir.

Bunu isə bəzən unuduruq ki, axı Heydər Əliyevin sovet Azərbaycanına rəhbər seçildiyi vaxtlar da ölkənin tarixi üçün bir o qədər xoş dövr deyildi. Bir çox reallıqları nəzərə alaraq 60-cı illərin sonlarını da Azərbaycan həyatı üçün acınacaqlı mərhələ hesab edə bilərik. Heydər Əliyev o illərdə də ölkə rəhbərliyinə çox çətin və mürəkkəb şəraitdə gəlmişdi. Ulu Öndər faktiki olaraq onda da xilaskar, qurucu missiyasını üzərinə götürməli idi və götürmüşdü.

Ümummilli Lider respublika rəhbəri seçiləndə Azərbaycan keçmiş ittifaq miqyasında ən geridə qalmış ölkələrdən idi. 15 ölkə arasında faktiki 14-cü sayılırdı. Ölkə həyatının bütün əhəmiyyətli sahələrində durğunluq müşahidə olunurdu. Mənəvi böhran, aşınma, rüşvətxorluq, korrupsiya, haqsızlıq getdikcə güclənərək cəmiyyətin dayaqlarını sarsıdırdı. İnsanların rifahında, ölkənin ümumi sosial mənzərəsində ciddi bir dəyişiklik hiss olunmurdu. Böyük elmi-texniki tərəqqinin baş verdiyi dünyada, hətta keçmiş ittifaq ölkələrində də ciddi dəyişikliklərin özünü göstərdiyi zamanda Azərbaycan yenə 50-ci illərin inersiyası ilə öz ətalətli həyatını yaşayırdı.

Xüsusilə kənd yerlərində insanlar tarlalarda çəkdikləri ağır əziyyət müqabilində kasıb komalarda yarıac-yarıtox güzəran keçirirdilər. Yol, su, elektrik enerjisi, rabitə, şəhərlərdə mənzil təminatı, ümumilikdə həyat şəraiti, sosial infrastruktur əsrin əvvəllərində olduğundan az fərqlənirdi. Bu reallıqları dəyişə biləcək, ölkəni yaradıcı şəkildə yenidən qurmağa qabil bir rəhbərə ehtiyac vardı. Azərbaycan insanının gözlədiyi həmin o rəhbər məhz Heydər Əliyev oldu. Ulu Öndər 1969-cu ildə Azərbaycana rəhbər gəlməklə vəziyyəti qısa müddətdə büsbütün dəyişdi.

## Qurucu rəhbər

Heydər Əliyev cəmiyyət həyatının bütün sahələrində köklü islahatlara başladı. Ona qədərki heç bir rəhbərin səsləndirməyə cəsarət etmədiyi "Qoy ədalət zəfər çalsın!" çağırışı ilə cəmiyyətə haqq-ədalət gətirdi. Ölkədə elə bir sahə qalmadı ki, orada mühüm yeniliklər özünü göstərməsin. Ən xırdadan ən aliyə, ən yaxından ən ucqara qədər hər şey dəyişdi. Azərbaycanın şəhərlərinin, qəsəbələrinin, kəndlərinin siması yeniləndi. Ucqarlarımızı mədəni inkişaf axınına qovuşduran yollar abadlaşdı. Azərbaycan sanki o illərdə feodalizmdə qalmışdı və birdən-birə böyük intibah dövrünə keçid edirdi.

İnsan prosesin bilavasitə içində yaşayanda həyata keçirilən tədbirləri daha çox cari işlər kimi görür. Prosesdən kənara çıxıb ona tarix kimi baxmaq imkanları məhdud olur. Amma müəyyən zaman keçdikdən sonra artıq ümumən prosesin özü gözlərin önündə böyük bir tarix kimi canlanır. Onun mahiyyətini daha aydın, daha əhatəli görə bilirsən.

Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlişindən sonra başlanan dövr də sözün əsl mənasında intibah mərhələsi idi. Xalq illərdən bəri gözlədiyi, ideallarında yaşatdığı adil, haqqı-nahaqqı öz yerinə qoymağı bacaran qurucu rəhbərə, nəhayət ki, qovuşmuşdu və o, insanların dəstəyindən güc alaraq, onları səfərbər edərək Azərbaycanın mənəvi mühitini də, sosial-iqtisadi simasını da sürətlə dəyişirdi.

O dövrdə şəhər, eləcə də kənd quruculuğu sahəsində görülən işlər son 22 ildəki idarəçi fəaliyyətimdən irəli gələrək məndə xüsusilə maraq doğurur və daim də ən mükəmməl nümunə, örnəkdir. Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişinə qədər Bakının bir neçə məhəlləsində az-çox abadlıq vardı. Paytaxtın mərkəzdən azacıq kənar məhəllələri isə hələ də Orta əsrlər görkəmində qalırdı. Rayon mərkəzlərinin əsas gözədəyən hissələrində də nümayiş üçün müəyyən qədər abadlıq yaradılmışdı. Amma ümumi mənzərə fonunda bütün bunların əhatəsi çox məhdud idi. Azərbaycanda müasir, modern şəhər quruculuğunun, kənd quruculuğunun əsasını məhz Heydər Əliyev qoydu.

Eyni zamanda Azərbaycan insanının zəhmətinə dövlət səviyyəsində dəyər verilməsinin nümunəsini də məhz Heydər Əliyev yaratdı. O illərdə ilk dəfə olaraq Azərbaycan vətəndaşı əməyinin bəhrəsini görməyə başladı. Dövlət öz vətəndaşını səhərdən axşama qədər inzibati güc hesabına tarlalarda, zavod və fabriklərdə, digər təsərrüfat sahələrində qəpikquruşa işlədib qarşılığında onun üçün ciddi bir dəyər yaratmayan zor aparatından insanların rifahını təmin edən, onun sosial ehtiyaclarını yerinə yetirən, həyat səviyyəsinin yaxşılaşmasına, arzularının yerinə yetməsinə kömək edən təsisata çevrildi.

Heydər Əliyev Azərbaycan insanlarını halal zəhmətə ruhlandırdı. Zəhmətkeş əməyini böyük bir dəyərə çevirdi. Azərbaycan insanı öz halal zəhməti hesabına ev-eşiyini də qurdu, maşın da aldı, layiqli istirahət hüquqlarını da təmin etdi, övladına yaxşı təhsil vermək imkanı da qazandı. Məhz o illərdə Azərbaycanın kəndlərində ikimərtəbə evlər, evlərin həyətlərində o dövrün həyat şərtlərinə uyğun minik avtomobilləri görünməyə başladı. Ölkənin ucqarlarında elektrik lampaları parladı, qaz, su, rabitə xətləri, abad yollar çəkildi, keçilməz yerlərdə körpülər quruldu. Vətəndaşların həyatı rahatlığa çıxdı.

## Müdrik islahatçı

Heydər Əliyev müdrik islahatçı, böyük yenilikçi idi. O, Azərbaycanın aqrar sənaye ənənələrini qorudu, lakin bu sahəni də ənənəvi metodlardan uzaqlaşdırdı və müasirlik gətirdi. Aqrar sektoru modernləşdirdi.

Ümumiyyətlə, modernizm daha çox müasir inkişaf tendensiyalarını ifadə etməkdən ötrü istifadə olunan termindir. Amma Heydər Əliyevin ötən əsrin 70-ci illərindəki fəaliyyətinə nəzər salsaq, modernləşmənin xüsusiyyətlərini müşahidə edə bilərik. Quruculuq layihələrində, sənayeləşmədə, aqrar sektorda, insanların gündəlik həyat və məişətində, bir sözlə, həyatın hər bir sahəsində modernləşmə meylləri nəzərə çarpırdı.

Eyni zamanda onu da qeyd edək ki, yenilikçi xarakterinə rəğmən Heydər Əliyev şəxsiyyətində müsbət mənada bir mühafizəkarlıq da vardı. O, milli-mənəvi dəyərlərə sadiq idi, gənc nəslin bu dəyərlər ruhunda yetişib tərbiyə olunmasına çalışırdı, kosmopolit düşüncə tərzinin milli kimliyimizi aşındırmasına yol vermirdi. Bunu da hər hansı inzibati-amirlik metodlarının köməyi ilə deyil, məhz özü şəxsi nümunə göstərməklə edirdi.

Ulu Öndər Azərbaycan insanını məhz azərbaycanlı ruhu ilə yetişdirirdi. Heydər Əliyev tarixən çoxmillətli, çoxmədəniyyətli ölkə olan Azərbaycandakı bütün xalqların nümayəndələrini vahid amal ətrafında, amma sovet xalqı kimi yox, güclü, qüdrətli Azərbaycan xalqının təmsilçiləri kimi formalaşdırırdı. Azərbaycanda yaşayan müxtəlif xalqların təmsilçiləri arasında multikulturalizm, tolerantlıq, fərqli mədəniyyətlərə hörmət və digər bu kimi dəyərləri Heydər Əliyev məhz o illərdə bərqərar etmişdi. Azərbaycan xalqı öz milli kimliyini anlayır və bu vahid xalqı təşkil edən bütün insanlar özünəməxsusluqlarını qorumaqla sülh içində yaşamağı, ölkənin zəngin mədəniyyətinə, tarixi nailiyyətlərinə töhfə verməyi vətəndaşlıq məsuliyyəti kimi əxz edirdilər. Azərbaycanlı olmaları ilə qürur duyurdular.

Belə bir ifadəni də çoxumuz eşitmişik ki, hər bir xalqın taleyini şəxsiyyətlər müəyyənləşdirir. Ulu Öndərin müəyyənləşdirdiyi tarixi taleyimiz, Azərbaycan insanlarının rifahı, ölkənin bütün meyarlar üzrə müstəqil yaşamağa tam hazır vəziyyətə gətirilməsi ötən əsrin 80-ci illərinin sonlarında bizi istiqlal nemətinə qovuşdurdu.

## Dövlət qurucusu

80-ci illərin sonlarında müstəqillik uğrunda mübarizənin başlandığı dövrdə və müstəqilliyin ilk illərində Heydər Əliyevin, əfsus ki, məqsədli şəkildə siyasi hakimiyyətdən kənarda saxlanması, meydanın siyasətdə, idarəetmədə naşı insanların ümidinə buraxılması xalq olaraq bizi ağır sınaqlarla üzləşdirdi. Böyük itkilər, faciələr yaşadıq. Hər günü Azərbaycanın gələcəyi üçün az qala əsrə bərabər o illərdə xeyli geri düşdük. Bu bir həqiqətdir ki, o illərdə Azərbaycanın rəhbəri təsadüfi insanlar yox, məhz Heydər Əliyev olsaydı, o sınaqların, faciələrin çoxu başımıza gəlməyəcəkdi. Ulu Öndər müdrik zəkasının gücü ilə onda da ən müşkül məsələlərə belə uyğun həll yolları tapacaqdı. Əfsus ki, tarixi geri çevirib, xalqların taleyində redaktələr etmək mümkün deyil.

O dövrdəki prosesləri bütün təfərrüatları ilə sadalamağa da bəlkə indi bir o qədər ehtiyac yoxdur. Çünki hər kəs o dövr haqqında ətraflı məlumatlıdır. Sadəcə məni tarixçi kimi narahat edən bir məqam var ki, gənc nəsil arasında o dövrdə baş verənlər barədə müasir üsullarla, modern kommunikasiya kanallarından istifadə etməklə onları maraqlandıracaq tərzdə maarifləndirmə işləri kifayət qədər aparılmır. Bunu isə mütləq etməliyik.

1988-ci ildən 1993-cü ilə qədər olan dövrün məziyyətlərini gənc nəslə aydın formada çatdırmalıyıq. O dövr daim ibrət götürüləsi, nəticə çıxarılası dərsdir, tarixin ibrət dərsidir.

Belə bir məşhur deyim var ki, "tarixini unudan xalq onu təkrar yaşamalı olur". Azərbaycanın bir daha 90-cı illərin əvvəllərindəki təlatümlərlə üzləşməməsi üçün biz o dövrün tarixi mənzərəsini, gerçəklərini gənc nəsillərə öyrətməliyik, həqiqətləri düzgün çatdırmalıyıq.

Həqiqət isə budur ki, Heydər Əliyev o illərdə torpaqları yağmalanan, soyqırımına məruz qalan, çörəklə imtahana çəkilən, vətəndaş müharibəsi təhlükəsi ilə qarşılaşıb, nəinki müstəqilliyini, hətta dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşən xalqa yalnız qurtuluş bəxş etmədi. O, Azərbaycanda rəhbərin vəziyyət bir qədər çıxılmaz hal alan kimi öz postunu məsuliyyətsizcəsinə qoyub qaçmaq, vətəndaşları taleyin ümidinə buraxmaq, xalq qarşısında içdiyi anda, götürdüyü öhdəliklərə xilaf çıxmaq ənənəsinin də qarşısını aldı. Heydər Əliyevə qədərki rəhbərlər öz postlarını qoyub qaçmışdılar. Dar günlərdə, Vətənin taleyi üçün gərgin mübarizə məqamlarında, həlledici qərar anlarında fərarilik yolu tutub xalqa xəyanət etmişdilər.

Bəzən deyirlər, yazırlar ki, Heydər Əliyev Azərbaycan dövlətçiliyini sıfırdan qurdu. Əsla razı deyiləm. Bu fikir mövcud reallıqları tam əks etdirmir. Heydər Əliyev müstəqil dövlətimizi sıfırdan qurmadı. Ulu Öndər dövlət quruculuğu prosesini hətta mənfidən, geridən başlayaraq sıfır vəziyyətindən keçirdi və ondan sonra qurdu. Heydər Əliyev dövlətçiliyimizə qarşı ardıcıl qiyam cəhdlərinin qarşısını aldı. Bir dövlət xadiminin həyatında hər zaman qürurla, şərəflə xatırlanacaq cəsarəti dəfələrlə nümayiş etdirdi. Həyatını riskə qoydu, heç zaman meydandan qaçmadı, əksinə, Azərbaycanın xoşbəxtliyini istəyən insanları meydanda öz ətrafına çağırdı, əzəmətli duruşu, mətinliyi ilə başqalarına da cəsarət aşıladı.

1994-cü ilin məlum oktyabr günlərində Heydər Əliyev xalqı meydana çağıranda onun çağırışına səs verib bir anda meydana toplaşan, Ulu Öndərə dəstək verən, onun şəxsiyyəti ətrafında birləşdiyini göstərən vətəndaşlarımızdan başqa, ətrafda xeyli qanunsuz silahlı adamlar da vardı. Heydər Əliyev əliyalın xalqın arasında, onlarla çiyin-çiyinə, sadə insanların dəstəyini hiss edərək, öz şəxsiyyətinin, qətiyyətinin qüdrəti ilə Azərbaycanı qorudu. Milli dövlətçiliyimizi məhv olmaqdan xilas etdi. Bu təhlükəli dönəmlərin bir daha təkrarlanmaması üçün təminat yaratdı.

Ulu Öndər "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaqla Azərbaycanın iqtisadi inkişafı üçün güclü təməl formalaşdırdı, təbii resursların ölkəmizin, xalqımızın rifahına yönəlməsinə nail oldu. Heydər Əliyev ölkənin demokratik inkişaf amalını, strateji hədəflərini təhdid edən qanunsuz silahlı birləşmələrin fəaliyyətinə son qoydu və nizami ordu quruculuğunu böyük uğurla həyata keçirdi. Cəbhə bölgəsində atəşkəsə nail olub sülh danışıqlarına başlamaqla həm Azərbaycanın sülh niyyətini bütün dünyaya nümayiş etdirdi, eyni zamanda müəyyən bir dövr üçün bütün imkanları, resursları ölkəmizin hərtərəfli inkişafına yönəltmək üçün zəruri vaxt qazandı.

Tarix bu vaxtın getdikcə Azərbaycanın xeyrinə işlədiyini göstərdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbə bu həqiqətin möhtəşəm sübutu oldu. Azərbaycan bütün cəbhələrdə - həm ordu quruculuğunda, həm diplomatik müstəvidə, həm sosial-iqtisadi sahədə, həm gənc nəslin vətənpərvərlik tərbiyəsində illərlə hazırlaşdığı bu haqq savaşını cəmi bir neçə günün içində qazandı. Dünyanı fakt qarşısında qoydu və qələbəmizi dünyaya qəbul etdirdi.

## "Mən ona özüm qədər inanıram"

Bir məqamı da xüsusi qeyd edək: Ulu Öndər Heydər Əliyev 1993-cü ildən etibarən müstəqil Azərbaycan dövlətini qurarkən bu çətin və şərəfli missiyanın yerinə yetirilməsində Ulu Öndərin ən yaxın, ən sadiq və ən fədakar yardımçısı məhz İlham Əliyev idi.

"Əsrin müqaviləsi"nin imzalanmasında və uğurla icrasında, ölkədə yeni siyasi mədəniyyətin formalaşmasında, vətəndaş cəmiyyətinin möhkəmlənməsində, Azərbaycan diplomatiyasının uğurlarında, hətta idman və gənclər hərəkatının genişlənməsində və bununla gənc nəslin vətənpərvərlik tərbiyəsində - bir sözlə, bütün sahələrdə Heydər Əliyev siyasətinin ən öncül icraçısı məhz İlham Əliyev cənabları idi.

Təsadüfi deyil ki, 2003-cü ilin prezident seçkisi ərəfəsində Ulu Öndər "Mən ona özüm qədər inanıram" deyərək cənab İlham Əliyevi xalqa təqdim edəndə əslində xalq da artıq o şəxsiyyətə Heydər Əliyevin inandığı qədər inanırdı. Birmənalı şəkildə inanırdı və sonrakı dövrlərdə də biz bu inamın gücünü gördük.

Prezident İlham Əliyevin qurduğu tarixin ən qüdrətli Azərbaycanı Heydər Əliyev irsinə, Ulu Öndərin tarixi missiyasına verilən ən möhtəşəm dəyərdir. Prezident İlham Əliyevin qurduğu bu Azərbaycan hər cəhətdən dünyada bir nümunədir. Vaxtilə Ümummilli Liderin söylədiyi məşhur kəlam ki, vardı - "Azərbaycan dünyaya Günəş kimi doğacaq", - bu gün Azərbaycanın həqiqətən dünyanın siyasi, iqtisadi, mədəni üfüqlərində Günəş kimi parladığını görürük. Bu gün Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayan Azərbaycan Qafqazda sülh, sabitlik və inkişaf mühitinin də əsas təminatçılarından biridir.

Bu gün yaxın-uzaq ölkələrdə hərbi münaqişələr, o cümlədən Rusiya və Ukrayna arasında baş verən hadisələr, ortada olan həqiqətlər İlham Əliyev müdrikliyini bir daha dərk etməyimizə kömək göstərir. Böyük tarixi zəfərimizlə nəticələnmiş 44 günlük Vətən müharibəsinin tam mahiyyətini hər birimiz üçün aydınlaşdırır. Yada salaq: dünyanın aparıcı dövlətlərinin əksəriyyəti, fövqəlgüclər ənənəvi ikili standartlar prinsipinə sadiq qalaraq bu münaqişədə Ermənistanın tərəfini tutmağa cəhd göstərirdilər. Açıq-aşkar işğalçı tərəfi müdafiə edirdilər. Qeyri-obyektiv iddialarla üzərimizə gəlməyə çalışırdılar, Azərbaycanı məğlub görmək istəyirdilər.

Amma Azərbaycan Prezidenti 44 günlük münaqişənin mürəkkəb gərginliyini o qədər həssaslıqla, incəliklə idarə etdi ki, müharibə Azərbaycan xalqının, haqqın-ədalətin zəfəri ilə başa çatdı. Əsrlərdən sonra ilk dəfə torpağımızı geri aldıq. İkiəsrlik münaqişəyə, 30 illik müharibəyə Prezident İlham Əliyev son qoydu. Heydər Əliyevin ən böyük vəsiyyətini, arzusunu, amalını yerinə yetirdi. Bu həm də Heydər Əliyev siyasətinin təntənəsi idi. Bu siyasət yenə də davam edir və Azərbaycana böyük nailiyyətlər qazandırır.

## Milli birliyimizin təntənəsi

İnsanı mütəəssir edən ən mühüm məqamlardan biri də bu idi ki, Vətən müharibəsində Azərbaycandakı bütün xalqların təmsilçiləri vahid orqanizm kimi, mütəşəkkil qüvvə kimi döyüşdülər, şəhid, qazi oldular və Heydər Əliyevin bizlərə aşıladığı dəyərlər işığında hamımızın ümumi vətənimiz olan Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Etnik mənsubiyyət, dil, din, mədəniyyət fərqlərindən asılı olmayaraq bütün dünya azərbaycanlıları "dəmir yumruq" kimi birləşdilər. Hər kəs Azərbaycan xalqının sarsılmazlığını, mətinliyini, milli birlik ruhunu gördü. Bu da Heydər Əliyevin Azərbaycana bəxş etdiyi çox yüksək dəyərdir.

Ötən əsrin 60-cı illərinin sonlarından başlayaraq Azərbaycanın yaşadığı, yaratdığı tarixin hansı səmtinə baxsaq, orada Heydər Əliyevin nəcib izlərini görərik. Bu, əsl dövlət qurucusunun, dövlət adamının tarixin daş yaddaşına həkk olunmuş nişanələridir və milli yaddaş bunları heç zaman unutmayacaq. Daim böyük rəğbət hissi ilə xatırlayacaq.

Tarixi zəfərimizdən sonra bu gün Qarabağda, Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq-bərpa işlərində də yenə Heydər Əliyevin izini, ruhunu görürük. Heydər Əliyev bizlərə Vətən sevgisini onu qorumaqla yanaşı, Vətəni hər imkanda gözəlləşdirməklə, quruculuqla, Vətənin abadlığına töhfələr verməklə ifadə etməyi öyrədib. Bu gün Heydər Əliyev irsi bu torpaqlarda aparılan quruculuq işlərində yaşadılır.

Ölkəmizin Birinci vitse-prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu Qarabağın, Şərqi Zəngəzurun dirçəlişində fəal iştirak edir, müxtəlif layihələri ilə azad torpaqlarımıza abadlıq, həyat, ümid gətirir.

## Dünya azərbaycanlılarının lideri

Vətən müharibəsindəki qələbəsi ilə regionda yeni reallıqlar yaratmış Azərbaycan yeni bir tarixi dönəmin qapılarını açır. Bu mərhələ Azərbaycan hüdudlarından çox geniş miqyası əhatə edir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev yalnız ölkəmizdə yaşayan on milyondan çox insanı arxasınca aparmır. O təkcə on milyonluq Azərbaycan vətəndaşlarının yox, dünyanın dörd bir qütbündə yaşayan və azərbaycanlı ruhunu özündə yaşadan 50 milyonluq azərbaycanlının lideridir.

Bir mühüm məqam da var: İsraildən Amerikaya, Yaponiyadan Braziliyaya, Afrikadan Vladivostokadək geniş bir coğrafiyada yaşayan, vaxtilə ölkəmizdə doğulub-böyümüş, özünü azərbaycanlı sayan yəhudilər də, ruslar da, ukraynalılar da, hətta başı daşa dəyərək ağıllanıb haqq yoluna gəlmək istəyən ermənilər də Prezident İlham Əliyevi liderləri kimi qəbul edirlər.

Prezident İlham Əliyev bu gün ona inanıb güvənən insanları yalnız liderlik qabiliyyəti, dərin istedadı, parlaq intellekti ilə arxasınca aparmır, o həm də ötən əsrin 90-cı illərinin əvvəllərindən insanların gözləri qabağında olan ömrü ilə, şəxsi nümunəsi ilə inam qazanır. Öz şəxsi nümunəsi ilə hər birimizə ən layiqli vətəndaş, ən məsuliyyətli vətənpərvər olmağı öyrədir.

Cənab İlham Əliyevin liderlik keyfiyyətləri politologiya elmində izah olunan ən üst səviyyələri, ən yüksək məqamları hər nə qədər ehtiva edirsə, eyni zamanda Azərbaycan Prezidenti öz şəxsi keyfiyyətləri ilə də insanlığın, vətəndaşlığın ən ali məqamlarında təmsil olunur. Bu da Heydər Əliyev məktəbinin təntənəsidir.

*Prezident İlham Əliyevin tarixinin ən möhtəşəm çağlarına gətirdiyi Azərbaycan bir zamanlar Heydər Əliyevin arzularında görünən Azərbaycandır və tarixin ən qüdrətli Azərbaycanı bundan sonra da yeni nailiyyətləri ilə bu adı, bu statusu qoruyacaq.*

**Eldar ƏZİZOV,**
***Bakı Şəhər İcra Hakimiyyətinin başçısı,***
***YAP İdarə Heyətinin üzvü***

1923 **Azərbaycanın özü qədər əbədi** 2022

Tarixi təcrübələrə görə, müdrik liderlər göstərdikləri xidmətlərin miqyasına və əhəmiyyətinə görə dünyada fərqli səviyyədə qəbul olunurlar. Onlardan bəzilərinin fəaliyyəti mənsub olduqları dövlətin hüdudları ilə məhdudlaşır və yalnız öz doğma Vətənində hörmətlə yad edilir.

Elə tarixi şəxsiyyətlər də vardır ki, onlar zaman və məkan anlayışına, milli ölçülərə sığmayaraq dünya miqyasında tanınır və qlobal səviyyədə başqaları üçün örnəyə çevrilirlər. Bu baxımdan Ulu Öndər Heydər Əliyev müdrik siyasəti ilə ümumdünya tarixində özünə dərin iz qoymuş dahi liderdir. Azərbaycanın tərəqqisi naminə yorulmaz fəaliyyət göstərməsi, regional və beynəlxalq təhlükəsizliyin təmin olunması istiqamətində məqsədyönlü və uzaqgörən siyasət aparması, bu sahədə böyük uğurlar əldə etməsi Heydər Əliyevin liderliyini səciyyələndirən vacib xüsusiyyətlərdir.



# Qurtuluşdan Zəfərə

## Liderlik keyfiyyətləri və inkişaf

Qeyd edək ki, hələ sovet dövründə Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə böyük uzaqgörənliklə Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşamasını təmin edəcək sosial-iqtisadi və milli-mənəvi bünövrənin yaradılması üçün mühüm işlər görmüşdür. Bunun nəticəsində respublikamızda genişmiqyaslı quruculuq işləri aparılmış, çoxsaylı iri sənaye müəssisələri, o cümlədən ittifaq əhəmiyyətli strateji obyektlər yaradılmışdır. Aqrar respublika olan Azərbaycan aqrar-sənaye respublikasına çevrilmişdir. Respublikada xeyli sayda yeni ali və orta ümumtəhsil məktəbləri fəaliyyətə başlamış, kadr potensialının gücləndirilməsi məqsədilə Azərbaycan gəncləri SSRİ-nin nüfuzlu ali məktəblərinə oxumağa göndərilmişdir. Milli hərbi kadrların yetişdirilməsi və Sovet İttifaqının hərbi ali məktəblərinə azərbaycanlı gənclərin daxil olmasını təmin etmək üçün 1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. Sovet dövrünün siyasi-ideoloji qadağalarına baxmayaraq, xalqımızın milli-mənəvi dəyərləri qorunaraq zənginləşdirilmişdir. Azərbaycançılıq məfkurəsinin ictimai fikirdə aparıcı yer tutması məqsədilə əlverişli ictimai-siyasi, elmi-mənəvi mühit formalaşdırılmışdır. Xalqımızın mədəniyyəti, incəsənəti və ana dilinin inkişafı üçün yeni mərhələnin əsası qoyulmuşdur. Milli özünüdərk hissi güclənmiş, milli mənlik şüuru inkişaf etmişdir.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycanda demokratik siyasi sistemə və bazar iqtisadiyyatına keçidi təmin etmək məqsədilə islahatların aparılmasına başlanıldı. Heydər Əliyev cəmiyyətin bütün sahələrini əhatə edən islahatların konseptual əsaslarını, başlıca hədəflərini müəyyən etdi və bununla bağlı məqsədyönlü siyasət apardı. Məlumdur ki, həmin dövrdə respublikamızda islahatların həyata keçirilməsinə maneçilik törədən faktorlar mövcud idi. Ermənistanın hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və ətraf rayonların işğal olunması, sosial-iqtisadi böhranla, daxili və xarici dairələrin antimilli fəaliyyəti ilə üzləşməsi kimi səbəblər Azərbaycanın inkişafı üçün ciddi problemlər yaradırdı. Heydər Əliyev bu cür mürəkkəb və gərgin şəraitdə müdrik liderə məxsus uzaqgörən siyasət aparmaqla respublikamızda ictimai-siyasi sabitliyin yaradılmasına nail oldu və geniş islahatların həyata keçirilməsinə başlanıldı. Bunun nəticəsində sosialyönümlü bazar iqtisadiyyatı münasibətləri inkişaf etdi, ölkədə mövcud olan iqtisadi, texniki-istehsal və elmi-texniki potensial təsərrüfat dövriyyəsinə cəlb olundu, milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası təmin edildi. Davamlı və dinamik xarakter daşıyan islahatlar mahiyyət etibarilə inkişafın yeni - Azərbaycan modelini yaratdı.

Heydər Əliyev Azərbaycanın iqtisadi inkişafı naminə respublikanın zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni vacib hesab edirdi. Ölkə iqtisadiyyatının hərtərəfli inkişafı məqsədilə neft amilindən məharətlə istifadə etməsi, böyük təzyiqlərə baxmayaraq 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasına nail olması Heydər Əliyevin yüksək siyasi iradəsinin və qətiyyətinin təntənəsi idi. Bu sənəd Azərbaycanın qapılarını bütün dünyanın üzünə açdı, yeni müqavilələrin imzalanmasına və ölkəyə investisiya qoyuluşuna münbit şərait yaratdı. "Əsrin müqaviləsi"nin imzalanması və onun reallaşdırılması Heydər Əliyevin əsasını qoyduğu neft strategiyasının möhtəşəm uğuru idi. Ümumiyyətlə, dahi şəxsiyyətin 1993-2003-cü illərdə Azərbaycana rəhbərliyi dövründə respublikamızın keçdiyi inkişaf yoluna, qazanılan nailiyyətlərə nəzər saldıqda görürük ki, ölkəmiz sözün əsl mənasında böyük zirvələr fəth etmiş, beynəlxalq münasibətlər sistemində söz və nüfuz sahibinə çevrilmişdir.

## Dövlətçilik prinsipinin aparıcı xətti - azərbaycançılıq ideologiyası

Hər bir dövlətin uzunömürlülüyünü təmin edən, cəmiyyəti öz ətrafında birləşdirən və xalqın milli maraqlarına söykənən ideologiyaya ehtiyacı vardır. Çoxmillətli və çoxkonfessiyalı ölkələrdə ideologiyanın mövcudluğu daha aktual əhəmiyyət kəsb edir. Buna görə də Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik prinsipləri içərisində azərbaycançılıq ideologiyası mühüm əhəmiyyət daşıyır. Respublikamızın müstəqillik yolunda kövrək addımlarla irəlilədiyi ilk illərdə Heydər Əliyevin azərbaycançılıq məfkurəsini milli ideologiya səviyyəsinə qaldırması xalqımızın dövlətçilik tarixində mühüm hadisələrdən biridir. Bu məfkurə milli-dini kimliyi ehtiva edən tarixi dəyər olmaqla yanaşı, həm də Azərbaycan dövlətinin tərəqqisini şərtləndirən bitkin ideoloji konsepsiyadır. Azərbaycançılıq milli və dini münasibətlərin harmonik inkişafını, dini-etnik qruplar arasında birgəyaşayışı, ən başlıcası, xalqımızın milli-mənəvi dəyərlərini özündə təcəssüm etdirir. Heydər Əliyevin müstəqil dövlət quruculuğunu uğurla həyata keçirməsi nəticəsində milliliklə dövlətçilik arasında sarsılmaz vəhdət təmin edildi.

Azərbaycançılıq dövlət siyasətinin əsaslarından birini təşkil edərək özündə milli inkişafın ideoloji tərəflərini birləşdirir. Bu məfkurə milli ideologiyanın bünövrəsi kimi müxtəlif mədəniyyətlər, adət-ənənələr və dini konfessiyalar arasında həmrəylik yaradır. O, birlik və həmrəyliyin simvolu kimi milli maraqlardan çıxış edən güclü dövlət hakimiyyətinə, yüksək milli intizama və özünüdərkə əsaslanır.

Azərbaycançılıq milli və dini konfessional zənginliyi özündə ehtiva edən ideoloji baxışlar sistemi kimi müstəqil dövlətçiliyin möhkəmlənməsində xüsusi yer tutur. Təsadüfi deyil ki, Heydər Əliyev bu məfkurəni dövlət idarəçiliyi fəlsəfəsinin əsas tezislərindən biri kimi irəli sürərək bildirmişdir: "Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır. Əgər biz bu məfhumları rəhbər tuta bilsək və bunu əməli surətdə həyata keçirə bilsək, biz Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik. Bu, bizim əsas vəzifələrimizdən biridir".

Azərbaycanda dini-mədəni müxtəlifliyin qorunması istiqamətində ardıcıl dövlət siyasətinin həyata keçirilməsi multikultural və tolerant dəyərlərin inkişafına böyük təkan verir.

## Nümunəvi dövlət-din modeli

Ölkəmiz tarixən dünyada dini dözümlülük ənənələri ilə fərqlənsə də, Azərbaycanın müasir beynəlxalq standartlara cavab verən dünyəvi dövlət-din modeli Heydər Əliyevin xidmətləri sayəsində bərqərar olmuşdur. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi ilə cəmiyyətin bütün sahələrinin, o cümlədən dini münasibətlərin inkişafı üçün demokratik hüquqi normalar yaradıldı. Ölkəmizdə insan hüquqlarının qorunmasına dair qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı, dünyəvi dövlət-din münasibətlərinin tənzimlənməsi prinsipləri təsbit olundu, dini etiqad azadlığı ilə bağlı normativ hüquqi aktlara riayət edilməsinə nəzarət gücləndirildi. Dini konfessiyalar arasında tolerantlıq təmin edildi, eləcə də tarixi-dini abidələrimizin tikintisi, bərpası və qorunması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə başlanıldı.

Azərbaycanda dini təhlükəsizliyin təmin olunması üçün əlverişli mühit yaradıldı. Sovet dövründə ibadət ocaqlarının fəaliyyətinə, dini ayinlərin icrasına qoyulmuş qadağalar aradan qaldırıldı, yeni ibadət evlərinin əsası qoyuldu. Dövlətin dini sahədə siyasəti milli maraqları ifadə edərək dini sabitliyin qorunmasında vacib rol oynadı. Azərbaycan dünyada dünyəvi, demokratik və hüquqi dövlət olmaqla yanaşı, həm də özünün milli-mənəvi dəyərlərinə söykənən ölkə kimi böyük nüfuz qazanmağa başladı.

Azərbaycan dövləti vicdan və dini etiqad azadlığının qorunması istiqamətində məqsədyönlü siyasət həyata keçirdi, milli təhlükəsizliyin təmin olunmasında əhəmiyyətli yer tutan bu sahəyə daim xüsusi həssaslıqla yanaşıldı. Dini qurumların qanunla müəyyənləşmiş qaydada fəaliyyəti üçün lazımi imkanlar yaradıldı. Heydər Əliyev milliyyətindən, irqindən, dinindən asılı olmayaraq, Azərbaycanda yaşayan hər kəsin bütün sahələrdə hüquq bərabərliyinin dövlət tərəfindən təmin edilməsini prinsipial məsələ kimi bəyan etmişdir: "Ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik".

## Siyasi kursda varislik

Ümumdünya tarixindən məlumdur ki, yaşadığı coğrafi ərazidən asılı olmayaraq, xalqların dünyada nüfuzunu artıran yalnız onların maddi-mədəni sərvətləri deyil, həm də mütərəqqi ideyaları ilə tarixi proseslərə ciddi təsir göstərən siyasi liderləridir. Onlar mənsub olduqları xalqın maraqlarını ifadə edərək dünyada uzaqgörən siyasətləri ilə tanınırlar. Belə şəxsiyyətlərdən biri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevdir. Onun məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində ölkəmizin bütün sahələrində əldə olunan uğurlar "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deyən Heydər Əliyev dühasının müdrikliyini və uzaqgörənliyini bir daha sübut edir. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik fəaliyyətini təhlil etdikdə onun güclü siyasi iradəyə və idarəetmə bacarığına malik, xalqına və dövlətinə bağlı lider olduğunu görürük. Bunun nəticəsidir ki, Azərbaycan davamlı inkişaf edən, dünya siyasətində öz yeri, rolu olan dövlət kimi tanınır, xarici ölkələr ona hörmət və ehtiramla yanaşırlar.

Heydər Əliyev irsinə sadiqlik, Ulu Öndərin ölkəmizin inkişaf istiqamətlərini müəyyənləşdirən siyasi kursunun zənginləşdirilməsi və müasir dövrün çağırışlarının obyektiv qiymətləndirilməsi Azərbaycanın tərəqqisini şərtləndirən mühüm faktorlardır. Yeni tipli siyasətçi və dövlət rəhbəri kimi dünyada diqqət mərkəzində olan Prezident İlham Əliyev inamla xalqımızı Heydər Əliyevin ideyaları ətrafında birləşdirir. Heydər Əliyevin siyasi kursunu zamanın tələbinə uyğun şəkildə, məharətlə davam etdirən Prezident İlham Əliyevin apardığı siyasət özündə xalqımızın milli maraqlarını əks etdirir. Davamlı iqtisadi inkişafa malik olması, sosial, humanitar və digər sahələrdə böyük nailiyyətlər əldə etməsi Azərbaycanın dünya birliyində mövqeyini gücləndirir. Milliyyətindən və dini baxışlarından asılı olmayaraq hər kəsin hüquqlarının qorunması, müxtəlif millətlərin mədəniyyətlərinin və adət-ənənələrinin inkişafına şərait yaradılması vətəndaş həmrəyliyini möhkəmləndirir. Azərbaycan fərqli sivilizasiyaların qovuşduğu tolerant məkan kimi ümumbəşəri dəyərlərin inkişafına mühüm töhfələr verir. Prezident İlham Əliyevin siyasətində xalqımızın sosial rifahının yaxşılaşdırılması, neft strategiyasının uğurla davam etdirilməsi, Azərbaycanın maddi resurslarından əldə edilən gəlirlərin ölkənin inkişafına yönəldilməsi, xalqımızın milli-mənəvi, tolerant dəyərlərinin təbliği mühüm yer tutur.

Dövlət-din münasibətlərinin inkişafı məqsədilə həyata keçirilən siyasət Azərbaycanın multikultural və tolerant dəyərlərin inkişaf etdiyi dünyəvi dövlət kimi dünyada nüfuzunu artırır. Ölkəmizdə yalnız əksəriyyət təşkil edən müsəlmanlara deyil, eləcə də digər dinlərin nümayəndələrinə bərabər münasibət göstərilir ki, bu da milli-dini kimliyi qoruyan vacib şərtlərdən biridir. Azərbaycan dövləti qloballaşmanın milli-dini kimliyə təsirini daim diqqətdə saxlayır. Bununla bağlı olaraq Prezident İlham Əliyev demişdir: "Müasir dövrdə qloballaşma şəraitində ayrı-ayrı ölkələrin, regionların və bütövlükdə dünyanın təhlükəsizliyinə təhdidlər artmaqda davam edir, bu təhdidlərin həyata keçirilmə forma və üsulları isə daha da mürəkkəb və təhlükəli xarakter alır".

Prezident İlham Əliyevin siyasətində qloballaşma dövrünün çağırışları ilə xalqımızın milli-dini kimliyinin mahiyyətindən irəli gələn tələblərin uzlaşdırılması xüsusi yer tutur. Bu sahədə siyasət aparılarkən nəzərə alınır ki, qloballaşma ilə milli-dini kimlik arasındakı qarşılıqlı təsirə və onun nəticələrinə xüsusi diqqət yetirilməsi vacibdir. Belə ki, milli-dini kimlik ölkəmizin davamlı inkişafında və onun dünya birliyində böyük nüfuz qazanmasında əhəmiyyətli rol oynamaqla yanaşı, həm də milli mənlik şüurunun inkişafına ciddi təsir göstərir.

Sözügedən istiqamətdə dövlət səviyyəsində görülən işlərin davamı kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında imzaladığı fərmanla milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə verdiyi yüksək qiyməti və dəstəyi bir daha nümayiş etdirdi. Prezidentin bu addımı xalqımızın tarixi yaddaşının, milli-mənəvi dəyərlərinin gələcək nəsillərə ötürülməsinə, gənclərin milli ruhda tərbiyə edilməsinə növbəti töhfəsidir. Fondun təsis edilməsi dini mənsubiyyətindən asılı olmayaraq ölkədə fəaliyyət göstərən konfessiyalara dəstəyi, mənəvi dəyərlərin qorunması və inkişafını, habelə bu sahəyə dövlət qayğısını daha da gücləndirib. Eyni zamanda ölkə başçısının sərəncamı əsasında Azərbaycan İlahiyyat İnstitutunun yaradılması xalqın tarixi ənənələrinə söykənən dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı milli kadrların hazırlanması baxımından səmərəli addımlardan biridir. Bu sərəncam Azərbaycanın xarici dini təhsildən asılılığını azaltmaq, yerli ilahiyyatçı kadr ehtiyacını təmin etmək baxımından olduqca əhəmiyyətlidir. Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirakı ölkəmizdə vətəndaşların dini etiqad, vicdan və təhsil hüquqlarının səmərəli realizəsinin ölkə rəhbərliyinin diqqət mərkəzində olmasının bariz göstəricisi olmaqla yanaşı, bu sahənin milli təhlükəsizliyin vacib elementi kimi nəzərdən keçirildiyini nümayiş etdirir.

Əminliklə deyə bilərik ki, milli birliyin və həmrəyliyin təmin olunması Heydər Əliyevin siyasətində əsas məqsədlərindən biri olub və bu sahədə görülmüş işlərin hazırda uğurla davam etdirilməsi ölkəmizin tərəqqisində mühüm rol oynayır. Ulu Öndərin azərbaycançılıq məfkurəsinə əsaslanan milli ideologiya ilə bağlı siyasi kursunun həyata keçirilməsi vətəndaş həmrəyliyini daha da möhkəmləndirir. Dövlət-xalq birliyi ictimai həyatın bütün sahələrində böyük nailiyyətlərin əldə edilməsinin təməlində dayanır.

Azərbaycançılıq məfkurəsinin və xalqımızın milli-mənəvi dəyərlərinin təbliğində Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etməliyik. Heydər Əliyev kimi tarixi şəxsiyyətin siyasi irsini təbliğ etmək fondun fəaliyyət istiqamətləri içərisində xüsusi yer tutur. Bu məqsədlə fond tərəfindən müxtəlif layihələr həyata keçirilir. Bütün bunlar sübut edir ki, Heydər Əliyev irsini təbliğ etmək həm də xalqımızın Ümummilli Liderinə olan rəğbət və ehtiramından bəhrələnməklə ölkəmizin dünya birliyində mövqeyinin möhkəmləndirilməsi və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından əhəmiyyətlidir.

## Yeni tarixi şərait

2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində başlayan müharibədə xalqımız Prezident İlham Əliyevin hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünün şahidi oldu. Azərbaycanın işğal olunmuş əraziləri Vətən müharibəsində cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə erməni qəsbkarlarından azad edildi. Xalqımızın tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən bu şanlı qələbənin əsasında Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, Azərbaycanın sosial-iqtisadi, siyasi, mədəni, hərbi sahələrdə uğurları və xarici siyasətdə nailiyyətləri dayanır.

Milli həmrəyliyin və vətəndaş birliyinin möhkəmləndirilməsi istiqamətində aparılan dövlət siyasəti özünün uğurlu nəticəsini Vətən müharibəsi dövründə bir daha sübut etdi. Xalqımız, o cümlədən ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların nümayəndələri Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasəti ətrafında sıx birləşib, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması yolunda həmrəylik nümayiş etdirdilər. Dini konfessiyalar Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatlara dəfələrlə kəskin şəkildə etirazlarını bildirmiş, din xadimləri Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi üçün daim dualar edərək ayinlər həyata keçirmişlər.

Vətən müharibəsində möhtəşəm qələbə regionda Azərbaycan üçün əlverişli sosial-iqtisadi və geosiyasi vəziyyət yaratmışdır. Prezident İlham Əliyevin 2022-ci il aprelin 22-də Şuşa şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının V Qurultayındakı çıxışında dediyi kimi: "Qarabağ münaqişəsinin həll edilməsi Prezident kimi mənim üçün başlıca vəzifə idi. Vəzifəyə seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir. Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq".

Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların əksəriyyəti və vətəndaş cəmiyyəti institutları Vətən müharibəsi dövründə həmrəylik nümayiş etdirərək Prezident İlham Əliyevin siyasətini və "Dəmir yumruq" əməliyyatını fəal şəkildə dəstəklədilər. Bununla da bir daha sübut olundu ki, ölkəmizdə vətəndaş həmrəyliyi sağlam təməllər üzərində qurulub və yeni siyasi konfiqurasiya, ictimai-siyasi mühit onu daha da möhkəmləndirir.

Yuxarıda göstərilənlərin ümumiləşdirilməsi sübut edir ki, Azərbaycanın davamlı inkişafı və dünyada böyük nüfuz qazanması Ümummilli Lider Heydər Əliyevin siyasi kursu ilə sıx şəkildə bağlıdır. Çünki Ulu Öndərin müəyyənləşdirdiyi siyasət özündə siyasi müdrikliyi, illərlə toplanmış böyük dövlətçilik təcrübəsini, qətiyyətli siyasi iradəni və ölkəmizin hərtərəfli inkişafını nəzərdə tutan ideya-siyasi baxışları birləşdirir. Bu siyasət vasitəsilə Azərbaycanın inkişaf strategiyasının hədəfləri müəyyən olunur. Heydər Əliyev yolu ölkəmizin tərəqqisi üçün həmişə aktuallıq kəsb edən siyasi məktəb kimi özünü təsdiq edir.

*Ümummilli Liderin siyasətini Prezident İlham Əliyevin uğurla davam etdirməsi və müasir dövrün çağırışlarından irəli gələrək onu yeniliklərlə zənginləşdirməsi Azərbaycanı dünyada güclü və qüdrətli dövlət kimi tanıdır. Vətən müharibəsində möhtəşəm qələbənin qazanılması Heydər Əliyev yolunun Azərbaycanı Milli Qurtuluşdan Zəfərə apardığının parlaq ifadəsidir.*

**Mübariz QURBANLI,**
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü***

1923 — Azərbaycanın özü qədər əbədi — 2022

# Sosial inkişaf strategiyasının müəllifi

**Ümummilli Lider Heydər Əliyevin bütün həyat və fəaliyyəti Azərbaycanın inkişaf və tərəqqisinə həsr olunub. Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi dövrdə sosial inkişafı, xalqın rifah səviyyəsinin yaxşılaşdırılmasını, etibarlı sosial müdafiə sisteminin qurulmasını dövlətin ən vacib vəzifələrindən biri kimi müəyyən edərək bu istiqamətdə ardıcıl olaraq mühüm addımların atılmasını, ölkəmizin vətəndaş rifahına təminat yaradan sosial inkişaf strategiyasını formalaşdırıb.**



Hələ ötən əsrin 70-80-ci illərində Ulu Öndər Azərbaycanın ozamankı ittifaq məkanında geridə qalan aqrar respublikadan qabaqcıl ölkələr sırasına çıxmasını təmin etdi. Respublikada iqtisadiyyatın dinamik iqtisadi inkişafına nail olunmaqla, böyük sayda işçi tutumuna malik yüzlərlə müəssisə yaradılmaqla, xalq təsərrüfatının bütün sahələrinin güclü inkişafı təmin edilməklə əhalinin məşğulluq imkanları genişləndirildi, sosial sahənin davamlı inkişafına imkan yaradıldı. Orta ixtisas və ali təhsil məktəbləri şəbəkəsi dəfələrlə genişləndirilərək yeni ali təhsil müəssisələri açılmaqla yanaşı, hər il respublikamızdan xeyli sayda gənc keçmiş ittifaqın aparıcı elm-təhsil ocaqlarına göndərildi.

Azərbaycanda Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması nəticəsində isə Azərbaycanın peşəkar hərbi kadrları hazırlandı. Bu, Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi sayəsində gələcəkdə müstəqil Azərbaycanın Milli Ordusunun formalaşması üçün peşəkar milli zabit heyətinin yaradılması yolunda olduqca mühüm əhəmiyyət kəsb edən tarixi bir addım idi.

1993-cü ilin iyun ayında dünya şöhrətli siyasi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyev xalqın çağırışı ilə Azərbaycana rəhbərliyə qayıdışı ilə ölkəmizi dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən, vətəndaş qarşıdurmasından, dərin siyasi, iqtisadi və sosial böhrandan xilas etdi, respublikanı bürüyən xaos və anarxiyanın, mənəvi-psixoloji gərginliyin qarşısını aldı.

Sosial tənəzzül də aradan qalxmağa başladı. O zaman dövlətin maliyyə məhdudluğuna baxmayaraq, Heydər Əliyev ilk növbədə maliyyə imkanlarının daha çox sosial sahəyə, əhalinin həssas qruplarının rifahına yönəldilməsini, aztəminatlı vətəndaşların bazar iqtisadiyyatına keçidin çətinliklərindən müdafiəsini bir prioritet kimi müəyyən etdi ki, bu da onun xalqa bağlılığının daha bir təzahürü idi. Bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlər yeni iqtisadi münasibətlərə keçidlə bağlı islahatlar, xüsusilə bazar iqtisadiyyatına keçidlə bağlı sərbəst qiymətlərin tətbiqi prosesində sosial müdafiə sisteminin də güclənməsinə, pensiya-müavinət, təqaüd təminatının yaxşılaşdırılmasına imkan yaratdı.

"Biz sosial cəhətdən köməyə ehtiyacı olan insanların sosial təminatını gündən-günə yaxşılaşdırmağa çalışmalıyıq", - deyən Ulu Öndərin imzaladığı sənədlər sosial təminat sisteminin mütəmadi güclənməsini, əhalinin rifahının qorunması üçün mühüm addımların atılmasını təmin etdi. İşləməyən pensiyaçılara kompensasiya verilməsi, çörəyin və çörək məmulatlarının qiymətlərinin tənzimlənməsi, əməkhaqlarının, müavinət və pensiyaların artırılması, aztəminatlı əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi irəliləyişlər əldə edildi. Ölkəmizdə sosial dövlət modelinin əsaslarını yaradan Ümummilli Lider Heydər Əliyevin göstərişləri əsasında sosial müdafiə tədbirlərinin, sosial ödənişlərin əhatə dairəsi də əhəmiyyətli dərəcədə genişləndi.

Ümumilikdə 1995-2003-cü illər ərzində ölkədə pensiya və müavinətlərin orta aylıq məbləği 8 dəfə, muzdla işləyənlərin orta aylıq əməkhaqqı 6 dəfədən çox artmışdır. Sosial sahəyə xüsusi qayğıkeşliyin göstəricisi kimi Ulu Öndər Heydər Əliyev tərəfindən 1993-2003-cü illərdə sosial inkişafın təmin olunması, əhalinin rifah halının yüksəldilməsi üçün 60-dan artıq sənəd imzalanmışdır.

Eyni zamanda, 1999-cu ildə MDB məkanında ilk dəfə Azərbaycanda yeni sosial-iqtisadi münasibətlər dövrünə uyğun Əmək Məcəlləsi qəbul edilmiş, az sonra məşğulluq sahəsində milli qanunvericilik formalaşdırılmışdır. Həmçinin ötən əsrin 90-cı illərində Heydər Əliyevin tapşırığı ilə sosial təminat və reabilitasiya məqsədli bir çox yeni mühüm proqramlara, o cümlədən şəhid ailələri və müharibə əlillərinin mənzillərlə və fərdi evlərlə, müharibə əlillərinin avtomobillərlə təminatına başlanmışdır. Azərbaycanda yeni sosial obyektlər açılmış, reabilitasiya infrastrukturu təkmilləşdirilməklə şəbəkəsinin genişləndirilməsi, əlilliyi olan şəxslərin qabiliyyət və istedadlarının dəstəklənməsi və cəmiyyətə tanıdılması üçün ümumrespublika tədbirlərinin təşkilinə başlanmışdır.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin, müdirk və uzaqgörən sosial-iqtisadi inkişaf strategiyasının, mükəmməl islahatlar proqramının Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək səviyyədə davam və inkişaf etdirilməsi Azərbaycanın öz tarixində görünməmiş tərəqqi yoluna çıxmasını təmin etdi. "Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik", - deyə bəyan edən Prezident İlham Əliyevin bu sözləri ölkə əhalisinin sosial rifah halının yaxşılaşdırılmasına xidmət edən güclü sosial siyasətdə, çevik və genişmiqyaslı sosial müdafiə tədbirlərində öz əməli təsdiqini tapır.

2003-cü ildən ötən dövrdə Azərbaycan iqtisadiyyatının dünyada rekord göstərici olaraq 3,4 dəfə artması şəraitində mühüm sosial proqramlar geniş vüsət aldı. Ən başlıcası isə, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci ildə 44 günlük Vətən müharibəsində şanlı qəhrəmanlıq tarixi yazaraq möhtəşəm zəfər əldə etdi, Azərbaycan çağdaş dünya hərb tarixinə misilsiz döyüş peşəkarlığı nümunəsi yazdı, 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış doğma torpaqlarımız azad edildi. Prezident İlham Əliyevin vurğuladığı kimi: "Bizim tarixi Qələbəmiz bizim qürur mənbəyimizdir. Bundan sonra əsrlərboyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır".

Müharibədən sonra isə dövlət başçısının göstərişi ilə şəhid ailələri, müharibə iştirakçıları, erməni terrorundan zərər çəkənlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən genişmiqyaslı sosial dəstək paketi ilə əhatə olunublar. Postmüharibə dövründə icra olunan bu sosial dəstək paketi artıq 100 min şəxsi əhatə edib, onlara 166 min xidmət göstərilib. O cümlədən Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min şəxsə 103 min sosial ödəniş təyin olunub. Bu ödənişlərin vətəndaşların müraciətinə və sənəd təqdim etmələrinə ehtiyac olmadan elektron sistem üzərindən proaktiv qaydada təyinatı həyata keçirilib.

Qeyd olunan sosial paket üzrə Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili yüksək texnologiyalı son nəsil protezlərlə, 1400 müharibə əlili 17 min reabilitasiya vasitəsi, 5 min ailə sosial-psixoloji, 1500 şəxs reabilitasiya xidmətləri ilə təmin edilib, 11 min şəxs aktiv məşğulluq proqramlarına, o cümlədən özünüməşğulluq proqramına cəlb edilib. Vahid əlaqələndirmə mərkəzləri tərəfindən isə şəhid ailələrinin üzvləri və müharibə iştirakçılarından ibarət 30 mindən çox şəxsə xidmətlər göstərilib.

Ulu Öndər Heydər Əliyevin hələ ötən əsrin 90-cı illərində əsasını qoyduğu mühüm sosial müdafiə proqramlarından biri - şəhid ailələri və müharibə əlillərinin mənzillə və fərdi evlə təminatı proqramı Prezident İlham Əliyevin bu kateqoriyadan olan insanlara xüsusi qayğıkeşliyi nəticəsində davam etdirilərək ildən-ilə genişlənir. Dövlət başçısının tapşırığı ilə postmüharibə dövründə şəhid ailələri və müharibə əlillərinin mənzillə və fərdi evlə təminatı proqramı 5 dəfə genişləndirilib.

Ötən ildən etibarən Bakının Ramana və Xocasən qəsəbələrində, Abşeron rayonunda, "Ümid" qəsəbəsində, Lənkəranda, Samuxda yeni yaşayış kompleksləri şəhid ailələri və müharibə əlillərinə təqdim edilib. Bu il mayın 2-də isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan doqquzmərtəbəli 12 binadan və 576 mənzildən ibarət daha bir yeni yaşayış kompleksinin açılışı oldu. Bu da şəhid ailələri və müharibə əlillərinə böyük qayğının daha bir ifadəsidir.

Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə həmin kompleksdə mənzillə təmin olunan şəhid ailəsi ilə görüşərkən demişdir: "Biz bütün şəhidlərimizin ailələrinin məişət problemlərini həll etməyə çalışırıq və çalışacağıq. Bu, bizim borcumuzdur. Prezident kimi mənim və dövlətimizin borcudur. Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ailələrinə bu günə qədər 12 mindən çox mənzil verilib" deyə qeyd edərək, şəhid ailələrinin problemlərinin həlli üçün dövlətin əlindən gələni etdiyini və bundan sonra da edəcəyini bir daha bəyan etdi: "Bütün məsələlərdə, məşğulluq, məişət problemləri, ondan sonra istənilən problem ola bilər insanın həyatında, - bütün dövlət məmurları, mərkəzi, yerli icra orqanları daim şəhid ailələri ilə bir yerdə olmalıdırlar, kömək göstərməlidirlər. Bu, bizim borcumuzdur".

Ümumilikdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri və müharibə əlillərinə 2018-ci ildə 626, 2019-cu ildə bundan 50 faiz çox olmaqla 934, 2020-ci ildə əvvəlki ilə nisbətən 70 faiz çox - 1572 mənzil və fərdi ev verilibsə, 2021-ci ildə bu proqram 3 il əvvələ nisbətən 5 dəfə genişlənib, ötən il 3 min mənzil və fərdi evin verilməsi proqramı icra olunub. Beləliklə, postmüharibə dövründə 3500, ümumilikdə ötən dövrdə 12500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib. Dövlət başçısının tapşırığı ilə müharibə əlillərinin avtomobillə təminatı tədbirləri də uğurla davam edir. Son 4 ildə də 1450-dək, ümumilikdə ötən dövrdə 7400 müharibə əlilinə minik avtomobili verilib.

Onu da qeyd edək ki, şəhid ailələri və müharibə əlillərini xüsusi qayğıkeşliklə əhatə edən dövlət başçısının fərman və sərəncamları ilə həmin kateqoriyadan olanların sosial təminatı mütəmadi gücləndirilir. Buna misal olaraq, onlara yönələn sosial ödənişlərin də son 4 ildə ardıcıl şəkildə artırılması təmin edilib. Şəhid ailələri üçün Prezidentin aylıq təqaüdlərinin məbləği də 2018-ci ilin əvvəlinə nisbətən 2,3 dəfə artırılaraq 220 manatdan 500 manata çatdırılıb. Müharibə əlilləri və onlara bərabər tutulanlara Prezidentin aylıq təqaüdü isə 2018-ci ilin əvvəlinə nisbətən I dərəcə üzrə 2,4 dəfə artaraq 165 manatdan 400, II dərəcə üzrə 2,4 dəfə artırılaraq 143 manatdan 350, III dərəcə üzrə 2,7 dəfə artırılaraq 110 manatdan 300 manata çatdırılıb. Onlara həmçinin sığorta stajına müvafiq olaraq aylıq əsasda pensiya və sosial müavinət, I qrup əlilliyi olanlara isə əlavə olaraq təqaüd də ödənilir.

Prezident İlham Əliyevin müvafiq fərmanları ilə 2019-2020-ci illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 1997-ci il avqustun 2-dək Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə verilməsi proqramını icra edib. 29 dekabr 2021-ci il tarixli sərəncamla isə nazirlik 44 günlük Vətən müharibəsinin iştirakçısı olan və aidiyyəti qurumlar tərəfindən "Müharibə veteranı" adı verilmiş, adları "Zəfər" altsisteminə daxil edilmiş, habelə kağız daşıyıcılarda təqdim edilmiş veteranlara Prezidentin aylıq təqaüdünün təyinatı prosesini e-sistem üzərindən proaktiv qaydada həyata keçirərək yekunlaşdırıb.

Dövlət başçısının ötən ilin dekabr ayında imzaladığı fərmana əsasən isə yaxın günlərdə 1997-ci il avqustun 2-dək olan xidmət dövründə ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar, hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya hərbi xidmət dövründə xəsarət alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçular və daxili işlər orqanları əməkdaşları, vəfat etmiş şəxslərin ailə üzvləri də birdəfəlik ödəmə ilə təmin olunacaq.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Heydər Əliyev tərəfindən əsası qoyulan tədbirlərin uğurla davam etdirilməsi ötən dövrdə əməkhaqqı, pensiya və digər sosial ödənişlərin dəfələrlə artırılmasına imkan verib. Xüsusilə 2018-ci ildən başlanan yeni köklü sosial islahatlar nəticəsində bu istiqamətdə inqilabi irəliləyişlərə nail olunub. Belə ki, 2019-cu ildən ötən dövrdə minimum əməkhaqqı 2,3 dəfə artaraq 130 manatdan 300 manata çatdırılıb. Ölkəmiz minimum əməkhaqqının həm nominal, həm də alıcılıq qabiliyyəti indeksinə görə MDB üzrə ikinci yerə yüksəlib. Orta aylıq əməkhaqqı 41, median əməkhaqqı 85 faiz artıb.

Son 4 ildə minimum pensiya isə 2,2 dəfə artırılaraq 240 manata çatdırılıb. Bu gün Azərbaycan minimum pensiyanın həm nominal, həm də alıcılıq qabiliyyəti indeksinə görə MDB üzrə birinci yerə yüksəlib. Orta aylıq pensiya isə 75 faiz artaraq 363, yaşa görə orta aylıq pensiya 70 faiz artaraq 394 manata çatıb. Son 4 ildə müavinət və təqaüd ödənişləri müvafiq olaraq 3 və 5 dəfə artıb. Ümumilikdə 2018-2022-ci illərdə sosial təminat növləri, yəni pensiya, müavinət, təqaüd, ünvanlı dövlət sosial yardımı üzrə illik xərclərdə də 70 faiz artım olub.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, məşğulluq imkanlarının artırılması və qeyri-formal məşğulluğun qarşısının alınması, formal məşğulluğa keçidin stimullaşdırılması istiqamətində görülən kompleks tədbirlər əmək müqavilələrinin sayında da ardıcıl artımı təmin edir. Buna misal olaraq, 2018-2022-ci illərdə əmək müqavilələrinin sayında 30 faiz və ya 400 minə yaxın artım qeydə alınıb. İllik əməkhaqqı fondunda isə həmin dövrdə 2,2 dəfə artım olub.

Ölkədə aktiv məşğulluq proqramları da ildən-ilə genişləndirilir. Özünüməşğulluq proqramı işsiz və işaxtaran şəxslərin məşğulluğunun təminatında, onların kiçik sahibkarlığa çıxışına imkan yaradılmasında mühüm dəstəkdir. 2021-ci ildə 16232 şəxs özünüməşğulluq proqramına cəlb olunub ki, bu da proqramın icrasına başlanıldığı 2017-ci illə müqayisədə 14 dəfə çoxdur. Ümumilikdə son 4 ildə 49 min ailə özünüməşğulluq proqramına cəlb edilərək öz kiçik ailə təsərrüfatlarını və kiçik müəssisələrini yaradıb.

Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılaraq 2019-cu ilin may ayında açılışı olan DOST Agentliyi və Agentliyin DOST mərkəzləri sosial sahədə vətəndaş məmnunluğuna yönəlik köklü islahatların ən mühüm nailiyyətlərindən biridir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası dövlət sosial xidmətlərinin (154 növdə xidmət) "bir pəncərə"dən, innovativ yanaşmalar əsasında modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb.

Prezident İlham Əliyevin uğurlu sosial islahatlar proqramının nailiyyətləri, həmçinin DOST konsepsiyası beynəlxalq səviyyədə də böyük maraq kəsb edərək yüksək dəyərləndirilir. 2022-ci ilin ötən dövründə DOST Agentliyi Avropa Sosial Şəbəkəsinin Avropa Sosial Xidmətlər mükafatına, Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının mükafatına layiq görülüb. Həmçinin DOST Agentliyinin Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) "Avropa üzrə Yaxşı Təcrübə Mükafatı - 2022" müsabiqəsinə təqdim etdiyi üç layihənin hər biri müsabiqənin qalibi olub. Agentliyin "Vətəndaş məmnunluğu monitorinq sistemi", "DOST Agentliyi ləyaqət və bərabər hüquqlar naminə" və "DOST: 65 yaşdan yuxarı şəxslərin sosial müdafiəsi" adlı layihələri müsabiqənin Müstəqil Beynəlxalq Münsiflər Heyətinin qərarı ilə mükafatlara layiq görülüb. Beləliklə, Azərbaycanın DOST layihəsi bu ilin ötən dövründə 5 nüfuzlu beynəlxalq mükafatla təltif olunub.

Qeyd edək ki, ötən dövrdə 850 minədək vətəndaş DOST xidmətlərindən faydalanıb. Bu xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi 98 faiz üzərindədir. Eyni zamanda, Dövlət Sosial Müdafiə Fondunda aparılan, fondun fəaliyyətinin "inzibati yanaşma" modelindən "vətəndaşlara xidmət" modelinə keçidini, şəffaf, əhali üçün daha rahat, əlverişli xidmətlərin göstərilməsini, xidmətlərin rəqəmsal və proaktiv təqdim olunmasını təmin edən islahatlar da beynəlxalq səviyyədə yüksək dəyərləndirilir.

Fond bu il ərzində Böyük Britaniyanın "iESE - The Public Sector Transformation" Təşkilatının təşkil etdiyi "Dövlət sektorunda transformasiyaya görə beynəlxalq mükafat" müsabiqəsində iştirak edərək "2022-ci ilin Beynəlxalq Dövlət Qurumu" ali mükafatına, sosial təminat və innovasiyalar sahəsində səmərəli fəaliyyəti, dayanıqlı inkişaf sahəsində qabaqcıl metod və həll yollarına görə Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının mükafatına layiq görülüb. Bu günlərdə isə Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının daha bir müsabiqəsində qalib gələrək "Ən yaxşı mütərəqqi təcrübə" mükafatı ilə təltif edilib.

Ümumilikdə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın yüksək humanizmin təcəssümü olan təşəbbüs və layihələri ölkəmizdə sosial inkişafın təmin edilməsində, sosial cəhətdən həssas qruplardan olan vətəndaşların, xüsusi qayğıya ehtiyac duyan şəxslərin etibarlı sosial müdafiə sistemi ilə əhatə olunmasında mühüm töhfələr verir. DOST layihəsi ilə yanaşı, mühüm sosial əhəmiyyət kəsb edən belə layihələr sırasında dövlət uşaq müəssisələrinin məzunlarının mənzillərlə təmin edilməsini və Abşeron rayonunda "Məzun evi" sosial müəssisəsinin, habelə Bakının Suraxanı rayonunda uşaq reabilitasiya müəssisəsinin, əlilliyi olan şəxslər üçün regional informasiya mərkəzlərinin yaradılmasını, "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsini və s. qeyd edə bilərik.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Cənubi Qafqazda kifayət qədər əhatəli, çoxşaxəli fəaliyyət istiqamətlərini özündə birləşdirən ilk ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanının - DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin Azərbaycanda yaradılması isə əlilliyi olan şəxslərin və digər həssas əhali qruplarının yaradıcı potensialının inkişafına dəstək verilməsi istiqamətində dövlət tərəfindən fəal və məqsədyönlü siyasətin aparıldığını bir daha təsdiq edir.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə 22 oktyabr 2021-ci ildə açılışı olan mərkəz 121 nəfərlik auditoriumdan, 9 müxtəlif peşə-yaradıcılıq otağı və studiyasından, kitabxanadan, inzibati otaqlardan, yeməkxanadan ibarət olmaqla, əlilliyi olan şəxslərin, şəhid ailəsi üzvlərinin, digər sosial cəhətdən həssas qrupların yaradıcı potensialını ortaya çıxararaq cəmiyyətə təqdim edilməsinə əhəmiyyətli dəstək verir.

Dövlət başçısının uğurlu sosial siyasəti ölkədə sosial infrastrukturun, o cümlədən sosial xidmət və reabilitasiya sisteminin davamlı inkişafına imkan yaradıb. 2018-ci ildən sonrakı dövrdə nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra, ən müasir avadanlıqlarla təchiz edilmiş şəkildə istifadəyə verilib, Qəbələdə də Uşaq Reabilitasiya Mərkəzi açılıb. Yaxın aylarda Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Şəmkir Uşaq Reabilitasiya Mərkəzi də açılacaq.

Yeni reabilitasiya mərkəzlərinin açılması və bərpa sisteminin müasirləşdirilməklə imkanlarının artırılması reabilitasiya xidmətləri göstərilən şəxslərin illik sayının 3 dəfə artırılaraq 30 minə çatdırılmasına imkan verir. Həmçinin son 4 ildə sosial xidmətlər, günərzi və icma əsaslı reabilitasiya mərkəzləri şəbəkəsi xeyli genişlənib. Sosial xidmət sahələrində daimi təkmilləşdirmələr də aparılıb və davam edir.

Azərbaycanda aparılan sosial islahatların mühüm bir istiqaməti dövlət sosial xidmətləri sahəsində e-texnologiyaların geniş tətbiqi, rəqəmsal müstəvidə əhali üçün proaktiv xidmətlər şəbəkəsinin, avtomatlaşdırılmış sistemlərə əsaslanan müasir, çevik və şəffaf, optimal idarəçiliyin yaradılmasıdır. Xüsusən son 4 ildə ölkədə əmək, məşğulluq, sosial təminat, sosial xidmət, əlillik, reabilitasiya, övladlığagötürmə və s. sahələrdə e-texnologiyaların geniş tətbiqi təmin edilib.

Mühüm innovativ uğurlardan biri olan, dövlət başçısının 5 sentyabr 2018-ci il tarixli fərmanı ilə yaradılan "e-sosial.az" portalı ölkənin sosial reyestri olmaqla, vətəndaşlara onlar barədə toplanmış bütün sosial məlumatlara çıxış və 100-dən çox sosial xidmət növündən çevik rejimdə yararlanmaq imkanı verir. Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə 175 xidmətdən 110-u e-platforma üzərindən, o cümlədən 46-sı proaktiv qaydada göstərilir. Bu il isə nazirlik daha 50-dən çox e-xidməti istifadəyə verəcək.

"Əmək və Məşğulluq" altsisteminin (ƏMAS) istifadəyə verilməsi ilə Azərbaycanda əmək və məşğulluq sahəsində islahatların yeni və mühüm bir mərhələsinə keçirilir. Əmək münasibətlərində köklü dəyişiklikləri nəzərdə tutan ƏMAS ölkə üzrə kifayət qədər əhatəli olan, bütün işəgötürənlər və işə qəbul olunanlar üçün vahid əmək münasibətləri platformasını və əmək bazarının bütün iştirakçılarına yeni ciddi dəstək mexanizmini formalaşdırır. ƏMAS ölkənin Məşğulluq xəritəsini və reyestrini, mərkəzləşdirilmiş Karyera Portalını, işə düzəlmədə vasitəçilik üzrə vahid reyestri əhatə edəcək. Bu altsistem əmək müqavilələrinin e-qaydada bağlanması, rəqəmsal kadr uçotuna keçirilməsi, işəgötürənlərin kadr məsələləri ilə bağlı işlərinin daha çevik və rahat, şəffaf yerinə yetirmələri, dəstəklənməsi və s. imkanı yaradır.

*Bütün qeyd edilən sosial uğurlar Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu və Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirilən sosial inkişaf strategiyasının nailiyyətləridir və bu siyasət bundan sonra da ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial sahədə vətəndaş rifahının və məmnunluğunun təminatı istiqamətində yeni irəliləyişlərə imkan yaradacaq.*

**Sahil BABAYEV,**
***əmək və əhalinin sosial müdafiəsi naziri***

1923 Azərbaycanın özü qədər əbədi 2022

# Tarixin ən qüdrətli Azərbaycanı:

# Heydər Əliyevdən İlham Əliyevə

Tarixinin ən qüdrətli dövrünü yaşayan müstəqil Azərbaycan illər öncə bu ideologiyanı, yeni yüksəliş konsepsiyasını müəyyənləşdirən Ulu Öndər Heydər Əliyevin şah əsəridir. O əsər ki, bu gün müstəqil siyasəti, iqtisadi qüdrəti və müzəffər ordusunun gücü ilə dünyaya səs salıb Günəş kimi doğan Azərbaycandır. Bu xoş günləri bizlərə Ulu Öndər arzu edirdi və yəqin ki, bu möhtəşəmlik dahi şəxsiyyətin ölməz ruhunu şad edir.
Müasir Azərbaycan cəmiyyətinin formalaşması, müstəqil Azərbaycan dövlətinin qurulması birbaşa Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşı olmaqdan qürur duyur.



### İnkişaf manifestinin müəllifi

Dünya siyasətində dəstxəti ilə seçilən, dövlət başçıları arasında fenomen istedadı ilə fərqlənən Ulu Öndər Heydər Əliyev müdriklik simvolu kimi bu gün də nümunə göstərilir. Bu cəsarət və qətiyyət, liderlərə məxsus dönməzlik və məğrurluq müasir Azərbaycanın qurucusu olan dahinin həyat amalının gerçəkləşməsinin parlaq ifadəsi kimi Azərbaycanın imicini, nüfuzunu yüksəldib.

Hər bir xalqın əsrlər boyu formalaşan dövlətçilik ənənələrinin konkret dövlət modelində gerçəkləşməsi üçün əlverişli siyasi mühit və milli iradə ilə yanaşı, güclü liderin də olması mühüm şərtdir. Güclü, qətiyyətli, vətənpərvər və müdrik liderə malik olmayan xalq hətta real imkanlar daxilində belə öz müstəqilliyinə qovuşa bilmir. Düz 99 il öncə Azərbaycan xalqının əsrlər boyu bəslədiyi azadlıq, müstəqillik və milli dövlətçilik kimi ali məqsədlərini gerçəkləşdirmək üçün Allah özü dahi şəxsiyyət Heydər Əliyevi xalqımıza bəxş etdi. Ömrünü xalqının, dövlətinin parlaq gələcəyinə həsr edən Ulu Öndər dühası, özünəməxsus liderlik keyfiyyətləri, siyasi prosesləri yönəltmək məharəti, cəmiyyətin maraq və mənafelərini ümumi nöqtədə birləşdirmək bacarığı ilə dövlətə rəhbərlik fəaliyyətinin bütün mərhələlərində Azərbaycan xalqının rəğbət və etimadını, inamını qazandı.

Dövrünün xarizmatik şəxsiyyətləri xalq üçün çətin dönəmlərdə qarşıda duran vəzifələrin həlli yollarını düzgün müəyyənləşdirmək, insanları milli məqsədlər ətrafında səfərbər etmək, irəli sürdükləri mütərəqqi ideyaları əzmlə gerçəkləşdirmək bacarıqları sayəsində liderlik zirvəsinə ucalmışlar. Bu gerçəkliklər fonunda XX əsrdə xalqımızın dünya siyasətinə bəxş etdiyi böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixindəki müstəsna yeri və rolu qabarıq görünür.

Ümummilli Lider Heydər Əliyevin bacarıqlı və təcrübəli dövlət xadimi, müdrik siyasətçi, dövlətçiliyin möhkəm təməlini yaradaraq onu möhkəmləndirən, davamlı inkişaf yoluna çıxaran qüdrətli şəxsiyyət kimi həyat və fəaliyyəti müasir tariximizin çox mühüm mərhələsini təşkil edir. Məhz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası müstəqil Azərbaycanın hərtərəfli inkişafına ən etibarlı təminat olmuşdur.

Hələ 1969-cu il iyul ayının 14-də sovet Azərbaycanına ali rəhbər vəzifəyə irəli çəkilən Ümummilli Lider ilk günlərdən mərkəzin ideoloji maneələrini aradan qaldırmaqla xalqın milli şüurunu oyatmağa çalışmış, Azərbaycan xalqının gələcək müstəqilliyi üçün bütün imkanlardan istifadə etmişdir. Əminliklə demək olar ki, 1969-1982-ci illərdə həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər, abadlıq-quruculuq işləri miqyasına görə Azərbaycanın inkişaf salnaməsinin ən dolğun səhifələridir.

İdarəçilik fəlsəfəsi fərqli və özünəməxsus cəhətlərlə zəngin olan Ümummilli Liderin Sovet Azərbaycanına rəhbərlik mərhələsi respublikamızı sürətli inkişaf yoluna çıxarmaqla yanaşı, milli müstəqilliyə etibarlı zəmin formalaşdıran amillərlə də zəngin olub. Milli özünəqayıdış və özünüdərkin məhz bu dövrdə başlanğıcını qoyan, azərbaycançılıq məfkurəsinin keçən əsrdə yazılan ən parlaq səhifələrinin müəllifi olan Ulu Öndərin Azərbaycana gətirdiyi ideyalar respublikamızın həyatını tamamilə müasirləşdirib.

Tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan Heydər Əliyevin nadir idarəçilik keyfiyyətləri, xarizmatik liderlik cəhətləri, böyük vətənpərvərliyi ötən əsrin 70-ci illərindən etibarən milli ideyanın yüksəlişinin təmin edilməsində misilsiz rol oynayıb. Ümummilli Liderin idarəçiliyinin ən mühüm xüsusiyyəti Azərbaycanın bütün sahələr üzrə inkişafının yeni mərhələsinə qədəm qoyması, sözün əsl mənasında, öz intibah dövrünü yaşaması olub.

Ulu Öndərin müdrik və uzaqgörən idarəçiliyi sayəsində müstəqil Azərbaycan xarici siyasətində etibarlı tərəfdaşlıq və sabitlik mərkəzi kimi çıxış edən, iqtisadi və sosial rifah yolunda qətiyyətli addımlarla irəliləyən, "dövlət-vətəndaş" birliyinin təşəkkül tapdığı bir ölkəyə çevrilib.

### Xilaskar və böyük strateq

Azərbaycana birinci rəhbərliyi dövründə milli mənafelərə xidmət edən çoxşaxəli addımları ilə xalqın istiqlal və azadlıq duyğularının gerçəkləşməsinə real siyasi-hüquqi və iqtisadi zəmin hazırlamış Ümummilli Lider respublikamızı müstəqilliyə qovuşduran mürəkkəb ictimai-siyasi proseslərin də mərkəzində olub. Azərbaycan 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini bərpa etsə də, cəmiyyətin bütün sahələrində hökm sürən böhranlı və xaotik vəziyyət yalnız Ulu Öndərin xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdışından sonra aradan qaldırılıb. 1993-cü ilin ikinci yarısından etibarən Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda atılan inamlı addımlar, həyata keçirilən sosial-iqtisadi islahatlar respublikamızın milli inkişaf modelinin formalaşması prosesini daha da sürətləndirib.

Ümummilli Lider ilk gündən özünəməxsus müdrikliklə bəyan etmişdir ki, siyasi sabitliyə nail olmadan yeni idarəetmə sisteminə keçidi reallaşdırmaq, bazar iqtisadiyyatı və demokratiya kimi fundamental prinsiplərin tətbiqinə nail olmaq mümkün deyil. Heydər Əliyev böyük strateq olaraq Azərbaycanda milli dövlətçiliyin prioritet inkişaf istiqamətlərini müəyyənləşdirərkən xalqın milli mentalitetinin səciyyəvi cəhətlərini də nəzərə almışdır.

Ulu Öndər 1993-cü ilin iyununda xalqın çağırışına cavab verərək Azərbaycanın idarəçilik sükanı arxasına keçmiş, üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə mətinliklə sinə gərərək xalqımızı vətəndaş müharibəsindən, milli müstəqilliyin itirilməsi təhlükəsindən, hərc-mərclik və xaos mühitindən qurtarmışdır. 1993-cü ilin oktyabr ayının 3-də Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsi ilə ölkəmizin həyatında yeni dövrün əsası qoyulmuşdur.

Ölkədə xalqın iradəsi ilə baş vermiş qanuni hakimiyyət dəyişikliyindən sonra dövlətin müstəqilliyinin praktik müstəvidə özünü göstərməsi üçün real əsaslar yaranmışdır. Heydər Əliyevin Prezident seçilməsindən sonra müstəqil Azərbaycan dövlətinin hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi başlamışdır. Ulu Öndər ilk növbədə ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmalı olmuşdur. Qanunsuz silahlı dəstələr zərərsizləşdirilmiş, Azərbaycanın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir.

Böyük Öndərin siyasi uzaqgörənliyinin, prinsipiallığının və iradə nümayişinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına təkan vermişdir. "Əsrin müqaviləsi"nin imzalanmasının milli inkişafdakı misilsiz əhəmiyyəti bugünkü intensiv sosial-iqtisadi inkişaf fonunda daha qabarıq görünür. Azərbaycana son illərdə daha böyük uğurlar gətirən bu strategiyanın əsas mahiyyəti ölkənin malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə etməyə əsaslanır.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biri də müstəqil respublikamızın ilk Konstitusiyasının yüksək demokratik meyarlar əsasında hazırlanması və ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi olmuşdur. Konstitusiyamız ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının, eləcə də sosial hüquqların təminatına, ümumən sosial dövlət konsepsiyasının reallaşmasına hüquqi baza yaratmışdır. Azərbaycan dövlətinin hər bir vətəndaşının rifahının yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qaldığı bəyan edilmişdir.

Digər tərəfdən bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında keçmiş Dağlıq Qarabağ münaqişəsində həyati əhəmiyyət kəsb edən atəşkəs əldə olunmuşdur. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, Ümummilli Liderin rəhbərliyi ilə o zaman mövcud olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması istiqamətində gərgin iş aparılmış, bir sıra əhəmiyyətli nəticələr əldə edilmişdir. Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hərbi təcavüz faktı beynəlxalq təşkilatlar tərəfindən dəfələrlə pislənmiş, buna etiraz olaraq bir sıra qətnamələr qəbul olunmuşdur.

Atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycanda ordu quruculuğu sürətlənmiş, Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına başlanılmış, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılmışdır. Həmçinin Ulu Öndərin rəhbərliyi ilə ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara başlanılmış, qısa müddətdə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırılmışdır. Dövlətçiliyi və hərbi andı uca tutan, hərbçi olmağı şərəf bilən zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olunmuşlar. Bunlardan əlavə, ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmış, maliyyə-təsərrüfat fəaliyyəti nizama salınmış, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldilmiş və ən nəhayət, Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradılmışdır. Bir sözlə, məhz Ulu Öndər Heydər Əliyevin milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşmışdır.

1993-2003-cü illərdə dövlətçiliyin mükəmməl təməl prinsiplərini yaradan Ulu Öndər Heydər Əliyev idarəçilikdə səriştəsizliyə, qətiyyətsizliyə, bəsitliyə birdəfəlik son qoyaraq uğurlu daxili və xarici siyasət yürütmüş, dünyanın fövqəlgüc dövlətlərini Azərbaycanla hesablaşmaq məcburiyyətində qoymuşdur. Milli maraqlara cavab verən xarici siyasət yeridən müstəqil Azərbaycan nəticədə Cənubi Qafqazın lokomotiv dövlətinə çevrilmişdir.

Qürur hissi ilə qeyd edə bilərik ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının müstəqil qurum kimi formalaşması da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin hakimiyyətə qayıdışı ilə həmkarlar ittifaqlarının həyatında yeni səhifə açılmışdır. Heydər Əliyevin şəxsi diqqət və qayğıkeşliyi nəticəsində Azərbaycan Həmkarlar İttifaqları yenidən ölkənin ictimai, siyasi, iqtisadi və mədəni həyatında layiqli yeri olan bir təşkilata çevrilmişdir. Məhz Ümummilli Liderin şəxsi təşəbbüsü və nəzarəti altında keçmiş postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda 1994-cü ildə "Həmkarlar ittifaqları haqqında" qanun qəbul edilmiş, bununla da təşkilatın normal fəaliyyətinə şərait yaradılmışdır.

Heydər Əliyevin göstərişləri və tövsiyələri sayəsində Azərbaycan Həmkarlar İttifaqlarının vəzifələri dəyişmiş, onların sosial təyinatı, funksiyaları, fəaliyyətlərinin forma və metodları əsaslı şəkildə yenidən qurulmuşdur. Ulu Öndərin uzaqgörən siyasəti sayəsində həmkarlar ittifaqlarının uzun illər ərzində yaranmış maddi-texniki bazası qorunub saxlanmış, həmkarlar ittifaqlarının demokratik idarəetmə prinsiplərinə əsaslanan fəaliyyətinə dəstək verilmişdir. Bütün bunlar respublikada həmkarlar ittifaqı hərəkatının inkişafına stimul yaradaraq işçilərin sosial-iqtisadi hüquqlarının müdafiəsini daha səmərəli formada həyata keçirməyə imkan yaratmışdır.

### Alternativsiz dövlətçilik məktəbi, mükəmməl siyasi irs

Bütün bu reallıqlar bir daha təsdiq edir ki, bugünkü qüdrətli Azərbaycan dövlətinin banisi məhz Ulu Öndər Heydər Əliyevdir. Ancaq Ulu Öndərin digər şah əsəri yaratdığı misilsiz və alternativsiz dövlətçilik məktəbi, mükəmməl siyasi irsdir. Bu məktəbi və irsi isə daha böyük nailiyyətlərlə, yeni dünyanın müasir tələbləri ilə zənginləşdirib, daha da gücləndirən Azərbaycan Prezidenti, Müzəffər Komandan İlham Əliyevdir. Xalqın mütləq əksəriyyətinin böyük etimadı ilə 2003-cü ilin oktyabrında Prezident seçilən İlham Əliyev ötən 19 ildə Ulu Öndər Heydər Əliyev siyasi kursunu uğurla davam etdirməklə yanaşı, onun xaos və anarxiyadan qurtardığı respublikamızın "Güclü dövlət - müstəqil siyasət" konsepti əsasında inkişafını təmin etmişdir.

Prezident İlham Əliyevin əzmkarlıqla davam etdirdiyi çoxşaxəli islahatlar kursu iqtisadiyyatda böyük uğurlara zəmin yaratmış, hər bir vətəndaşın həyatında nəzərəçarpacaq irəliləyişlərə səbəb olmuşdur. Əgər 1993-2003-cü illərdə dövlət müstəqilliyinin daxili və xarici təhdidlərdən qorunub saxlanılması, iqtisadiyyatın dirçəldilməsi, ölkəmizin beynəlxalq arenada tanıdılması praktiki məqsədlər idisə, son 19 ildə reallıqlar yeni hədəflər müəyyənləşdirmiş, xalqın 30 illik ağrı-acısı olan Qarabağ münaqişəsinə son qoyulmuşdur. Ötən 19 ildə Azərbaycan tarixinin ən qüdrətli dövlətinə çevrilmişdir. Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil siyasət, mütərəqqi islahatlar, reallaşdırdığı qlobal miqyaslı layihələr Azərbaycanın dünyada siyasi çəkisini getdikcə artırmış və ölkəmiz söz sahibinə çevrilmişdir.

Bu müddət həm də dünya siyasətinə təsir göstərən möhtəşəm layihələrin reallaşdırılması ilə səciyyəvidir. Ümummilli Liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz, eləcə də "Cənub qaz dəhlizi" çərçivəsində TAP, TANAP kəmərlərinin istifadəyə verilməsi, "Ümid", "Abşeron" və s. perspektivli yataqların kəşfi, Şərqlə Qərbi qovuşduracaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisi bu baxımdan xüsusi qeyd olunmalıdır.

Prezident İlham Əliyevin diqqət və qayğıkeşliyi nəticəsində bu gün Azərbaycan Həmkarlar İttifaqları vətəndaş cəmiyyətinin əsas institutlarından biri olmaqla cəmiyyətdə öz yerinin və rolunun möhkəmləndirilməsi üçün real yollar axtarıb tapır. Sosial ədalət prinsiplərinə əməl edilməsi, bazar iqtisadiyyatı şəraitində işçilərin əmək hüquqlarının qorunması, işəgötürənlə işçilər arasında münasibətlərin tənzimlənməsi istiqamətində bu gün Azərbaycanda məqsədyönlü tədbirlər həyata keçirilir.

Cənab İlham Əliyev Prezident seçildiyi ilk gündən xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirib. O, Prezident kimi Azərbaycana rəhbərlik etdiyi 19 ildə ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olub, vətəndaşların sosial problemlərini həll edib, insanların rifahını daha da yaxşılaşdırıb.

Məhz İlham Əliyevin rəhbərliyi altında 30 il ərzində Ermənistan tərəfindən pozulmuş ərazi bütövlüyümüz bərpa edilib. Bu gün Cənubi Qafqazda və ümumən regionda planlaşdırılan bütün meqalayihələr Azərbaycanın iştirakı olmadan və milli maraqları nəzərə alınmadan reallaşdırılmır. Burada coğrafi şəraitdən, siyasi sistemin xüsusiyyətindən asılı olmayaraq, liderlik fenomeni önəmli rol oynayır. İlham Əliyevin liderlik keyfiyyətləri sayəsində ölkəmizdə siyasi sabitlik təmin olunub və gələcək inkişaf üçün zəmin yaradılıb.

Cənab İlham Əliyevin iqtisadi islahatları sayəsində Azərbaycan donor ölkəyə çevrilib. Bir vaxtlar xarici yardımlara ehtiyacı olan Azərbaycan bu gün üzvlərinin sayına görə BMT-dən sonra ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrlik edən dövlət kimi imkansız dövlətlərə humanitar və maddi yardımlar edir. 2020-ci ildən başlayaraq dünyanı ağuşuna alan qloabal pandemiya dövründə Azərbaycanın 80-dən çox ölkəyə humanitar yardımlar göndərməsi bunun əyani təsdiqidir.

### Ata vəsiyyətini yerinə yetirən Müzəffər Komandan

Bu gün şanlı tariximizin yeni səhifələri yazılır. Bu yeni salnamənin parlaq səhifəsi isə 44 günlük Vətən müharibəsindəki böyük zəfərin gətirdiyi müasir reallıqlardır. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, cənab İlham Əliyevin layiqincə davam etdirdiyi siyasi xəttin nəticəsi olaraq güclü Azərbaycan dövləti bir daha öz qüdrətini dünyaya nümayiş etdirərək beynəlxalq təşkilatların illərlə çözə bilmədiyi məsələni "Dəmir yumruq" əməliyyatı ilə cəmi 44 günə reallığa çevirdi.

Bu zəfərlə Ermənistanın 30 illik işğalına son qoyuldu, yeganə ağrılı problemimiz həllini tapdı. Azərbaycan döyüş meydanında yalnız Ermənistanı cəzalandırmadı, həm də uzun onilliklər xalqımız barədə dünyada mənfi obrazlar yaratmağa çalışan dünya erməniliyinə böyük zərbə vurdu. Ermənistan ordusunun gücü, erməni əsgərinin döyüş əzmi barədə uydurulmuş mif 44 günə darmadağın edildi.

Bu gün Şuşada dalğalanan Azərbaycan bayrağının kölgəsi bütün Qarabağa, Şərqi Zəngəzura düşür. İşğaldan azad edilən torpaqlarımızda həyata keçirilən yenidənqurma işləri isə bir daha dünyaya Azərbaycanın iqtisadi qüdrətini nümayiş etdirir. Çünki Qarabağda və Şərqi Zəngəzurda reallaşdırılan bütün layihələri Azərbaycan heç kimdən yardım almadan öz gücünə həyata keçirir.

Mədəniyyətimizin paytaxtı olan Şuşa şəhəri isə Qafqazın diplomatiya mərkəzinə çevrilir. Bunu Şuşada keçirilən beynəlxalq təşkilatların forumları, konfransları da təsdiqləyir. Cənab İlham Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının V Qurultayının da məhz Şuşada keçirilməsinin həm tarixi, həm də rəmzi mənası oldu. Qurultaydakı nitqində Qalib Komandan həm yeni reallıqları dəyərəndirdi, həm də dünyada Azərbaycan diaspor təşkilatlarının mövqelərinin getdikcə güclənməsini şərtləndirən əsas yol xəritəsini müəyyənləşdirdi. Postmünaqişə dövründə həyata keçrilməli olan mühüm məsələləri diqqətə çatdırıb soydaşlarımıza ciddi tapşırıqlarını verdi. Milli diaspor təşkilatlarının vahid, mütəşəkkil qüvvə kimi təşkilatlanması zərurətini önə çəkib bunun ideoloji-siyasi konturlarını göstərdi. Dövlət başçısı müasir dövrdə bu sahəyə xüsusi diqqət ayırmadan erməni lobbisi ilə mübarizədə ciddi uğur qazanmağın qeyri-mümkünlüyünü vurğuladı.

Artıq ilyarımdır ki, regionda başqa reallıqlar hakimdir. Torpaqlarını azad edən Azərbaycan Ermənistanın işğal siyasətinə son qoyub. Bu reallıqlar həm də ondan ibarətdir ki, dünya ermənilərin Azərbaycan torpaqlarına dair iddialarını yaxına buraxmır. Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı gündəliyi isə Prezident İlham Əliyev müəyyən edir. Ona görə də məğlub ölkə qaliblə hesablaşmağa məhkumdur. Belə ki, bir müddət əvvəl cənab İlham Əliyev Ermənistana 5 prinsipdən ibarət təklif göndərərək bəyan etmişdi ki, sülh sazişi yalnız bu prinsiplərə riayət olunacağı halda reallaşa bilər. Əvvəl Ermənistan rəhbərliyi ənənəsinə sadiq qalaraq müxtəlif fikirlərlə bu prosesdən yayınmağa çalışsa da, sonda reallığı qəbul etmək məcburiyyətində qaldı. Nikol Paşinyan İlham Əliyevin irəli sürdüyü təkliflər əsasında sülh sazişinin bağlanmasına razılıq verdiyini bildirdi. Qeyd etdək ki, Azərbaycan Prezidentinin bu prinsipləri beynəlxalq səviyyədə də təqdir olunur. Cənubi Qafqazda sülhün bərqərar olunmasını istəyən Avropa İttifaqı cənab İlham Əliyevin təkliflərini dəstəkləyir.

Prezident İlham Əliyev ADA Universitetində "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda keçirilən beynəlxalq konfransda da bir daha bu barədə fikirlərini açıqladı. Dünyanın 23 dövlətinin 40-dan çox beyin mərkəzlərinin nümayəndələrinin iştirak etdiyi beynəlxalq forumda Azərbaycan Prezidentinin sülh danışıqları üçün irəli sürdüyü təkliflərin yalnız bölgəyə əmin-amanlıq gətirəcəyi və bu prosesdə ən çox Ermənistanın iqtisadi dividendlər qazanacağı bildirildi.

Prezidentin bu forumda iştirakı və verilən bütün sualları ətraflı cavablandırması bir daha onu göstərdi ki, Azərbaycan Cənubi Qafqazda sülhü, əmin-amanlığı, inkişafı dəstəkləyir və nəinki öz qonşuları ilə, regionla əməkdaşlıq etmək istəyən digər dövlətlərlə dostluq münasibətlərini və əlaqələrini qurmağa hazırdır. Bütün bunlar əlbəttə ki, cənab İlham Əliyevin dünya səviyyəli, nüfuzlu siyasətçi olmasının bariz təcəssümüdür. Bu cür toplantılarda, forumlarda Azərbaycan Prezidentinin əsl liderlik keyfiyyətləri nümayiş etdirməsi, dünyada gedən proseslər barədə yüksək məlumatlılıq səviyyəsi, sərrast cavabları bir daha İlham Əliyevin qətiyyətli, prinsipial və humanist lider olduğunu təsdiqləyir.

Bu uğurlu diplomatiya, müstəqil siyasətin təntənəsi bir daha Ulu Öndərin 2003-cü ildə xalqa müraciətində səsləndirdiyi "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikirlərin həm dahi şəxsiyyətin nə qədər uzaqgörən olduğunun, həm də cənab İlham Əliyevin bu ideologiyaya, verdiyi sözə və ən nəhayət, Ata vəsiyyətinin yerinə yetirilməsi vədinə sadiqliyinin bariz təcəssümüdür.

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

1923 *Azərbaycanın özü qədər əbədi* 2022

# Tarix yaradan şəxsiyyət



Tarix kitabları ilə tanış olanda maraqlı bir məqam həmişə insanın diqqətini çəkir. Xalqların, dövlətlərin keçmişində elə dövrlər var ki, tarixçilər onun üzərindən cəmi bir neçə cümlə ilə ötüb keçirlər. Bəzən bütöv onilliklər, hətta az qala əsrlər cəmi bir neçə cümləyə sığışır. Bu, tarixə qeyri-obyektiv münasibətdən, keçmişi məqsədli şəkildə təhrif edib, kiçiltmək niyyətindən irəli gəlmir. Hiss edirsən ki, tarixçi həmin dövrü də ətraflı öyrənməkdən ötrü maksimum səy göstərib, amma yazdıqlarından əlavə materiala malik deyil, yaza biləcəkləri sadəcə bu bir neçə cümlədən ibarətdir.

Amma zaman baxımından təxminən oxşar müddəti əhatə edən elə mərhələlər də olur ki, həmin dövrün təsvirinə bir neçə səhifə, paraqraf, fəsil, hətta cild-cild kitablar belə azlıq edir. Bu iki vəziyyətin müqayisəsində isə maraqlı bir məqam ortaya çıxır. O dövrlər ki, əsl dövlət qurucularının, parlaq şəxsiyyətlərin həyat və fəaliyyəti ilə üst-üstə düşmür, hadisə və proseslər hansısa şəxsiyyətlərin adları ətrafında cərəyan etmir, başqa sözlə, mərkəzində şəxsiyyət yoxdur, həmin dövrlər tarixçilərə yazmaq üçün çox az material verir. Çünki tarixə düşəsi ciddi bir əməl yoxdursa, deməli, təfərrüatlı şəkildə qələmə alınası tarixin özü də yoxdur.

Bunun əksinə, böyük şəxsiyyətlərin ömürlüyü ilə qaynayıb-qarışmış, onların gördükləri işlərə işıq salan dövrlər tarixi öyrənənlər üçün bitib-tükənməyən xəzinədir. Hansı səmtdən baxırsan-bax, bu şəxsiyyətlərin əbədiyyət ömrünün bir nişanəsini, tarixi hekayəsini görəcəksən.

Fikrimizcə, bu müşahidənin özü də xalqların və dövlətlərin həyatında şəxsiyyətlərin nə qədər böyük rola malik olduqlarını göstərir. Bu baxımdan müasir Azərbaycan tarixinin bugünkü və gələcək tədqiqatçıları üçün son dərəcə zəngin materiallar var. Çünki Azərbaycan tarixinin xüsusilə ötən əsrin 60-cı illərinin sonlarından başlayan dönəmi iki böyük şəxsiyyətin adı ətrafında yaşanıb, bu şəxsiyyətlərin dövlətə və xalqa qazandırdıqları nailiyyətlərlə yazılıb, onların müəllifliyi ilə yaranıb.

Bu şəxsiyyətlər Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və ölkəmizi tarixinin ən qüdrətli dövrünə yetirmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir.

## Xalqın yetirdiyi Lider

Tarix kitabları bizə digər maraqlı bir həqiqəti də öyrədir. Dəyişiklik və inkişaf çağırışları - daim eşidilən, xalqlardan, cəmiyyətlərdən bu çağırışlara həssas münasibət tələb edən reallıqdır. İnsanların diqqətini bu çağırışlara yönəldənlər, onları müsbət dəyişikliklərə sövq edənlərsə məhz liderlərdir.

Bunu bacarmaqdan ötrü lider xalqın içindən çıxmalıdır, onun həyatını bütün ruhu ilə hiss etməlidir, qayğıları, problemləri, arzu və istəkləri ilə yaşamalıdır, ölkəni, cəmiyyəti necə və niyə dəyişməyi hiss etməlidir. Ən əsası isə xalqın həyatında müsbətə doğru böyük dəyişikliklər yaradacağını özünə söz verməlidir. Buna müyəssər olmaqdan ötrü isə köhnəliyi, durğunluğu, yerində sayan prosesləri aradan qaldırıb tamamilə yeni bir həyat qurmağı bacarmalıdır. İnsanları bu məqsəd ətrafında səfərbər etməlidir. Onda xalqların, dövlətlərin həyatında əsl inkişaf baş verəcək.

Ümummilli Lider Heydər Əliyev ötən əsrin 60-cı illərinin sonlarında Azərbaycan rəhbərliyinə belə bir şəraitdə, böyük dəyişikliklərin artıq qaçılmaz olduğu, amma məlum səbəblərdən bu yöndə ciddi addımların da atılmadığı dövrdə gəlmişdi. İkinci Dünya müharibəsindən qalib çıxmış keçmiş ittifaqda böyük inkişaf prosesləri başlamışdı. Bir çox respublikalarda yenilik ab-havası, inkişaf meyilləri özünü hiss etdirirdi. İttifaq respublikaları arasında bu inkişaf proseslərinin önündə irəliləmək uğrunda rəqabət nəzərə çarpırdı.

Azərbaycan isə hələ keçmişin ətalətindən qurtula bilməmişdi. Sıradan cari işlərlə, getdikcə pisləşən nəticələrlə geridə qalmış aqrar respublika kimi öz gündəlik ətalətli həyatını yaşayırdı. Mühafizəkar meyillər, yenilikçilik ruhunun olmaması, məhdud bir siyasi elitanın əlində cəmləşmiş əsas imkanların geniş kütlənin üzünə getdikcə qapanması, cəmiyyətdə mənəvi böhranın güclənməsi ölkəni geri salırdı. Bütün dünyada sənayeləşmə geniş vüsət alarkən, o dövrün populyar ifadəsi ilə yazsaq, elmi-texniki inqilab möcüzələr yaradarkən Azərbaycanın bir çox yaşayış yerində adi elektrik lampası belə yox idi, bəzi yerlərdə kəndlilər torpağı hələ də xışla əkib-becərirdilər.

Dəyişiklik isə ziyanlı istiqamətlərdə gedirdi. Məqsədli şəkildə şüurlara yeridilən kosmopolit ruh milli-mənəvi dəyərlərimizi aşındırırdı. Tariximiz təhrif edilir, şəxsiyyətlərimiz unutdurulur, ana dilimizin mövqeyi zəifləyirdi.

## Böyük dəyişiklik

Xalq bu şəkildə davam etməyin, hansısa milli hədəflərə çatmağın mümkün olmadığını anlayır, görürdü. Amma vəziyyətin necə dəyişə biləcəyi barədə aydın təsəvvürlərə də malik deyildi. Belə bir vaxtda - 1969-cu ildə Heydər Əlirza oğlu Əliyevin ölkənin rəhbəri seçilməsi Azərbaycanın həyatında böyük bir dəyişiklik oldu.

Heydər Əliyev Azərbaycana rəhbərliyinin ilk günlərindən etibarən ona qədərki heç bir rəhbərin etmədiklərini etdi. Cəmiyyətin dayaqlarını sarsıdan mənfi hallara - rüşvətxorluğa, möhtəkirliyə, ictimai ədalətsizliyə qarşı sərt mübarizəyə başladı. Azərbaycanın qısa zamanda sürətli inkişafı üçün qarşıya konkret vəzifələr qoydu, insanları bu vəzifələr ətrafında səfərbər etdi. Azərbaycan vətəndaşları aydın məqsədlərə, bu məqsədlərə çatmaqdan ötrü sarsılmaz qətiyyətə, yüksək iradəyə malik Heydər Əliyevin xalqa nə qədər yaxın bir lider olduğunu gördülər və bu yolda ona dəstək verməyi özlərinə borc bildilər.

İlk gündən Heydər Əliyev Azərbaycan xalqı ilə sözün həqiqi və məcazi mənasında xalqın öz dilində danışdı. Uzun illər ərzində rəsmi dairələrdən, ölkənin elm, mədəniyyət elitasının mühitindən sıxışdırılıb çıxarılan, demək olar ki, məişət dili statusuna enməkdə olan Azərbaycan dilini rəsmi kürsülərə gətirdi. Çıxışlarının çoxunu ana dilimizdə etməklə bu dillə ruhunda yaşayan milli dəyərləri, Azərbaycan sevgisini ifadə etdi. Heydər Əliyev xalqla hər zaman səmimi oldu, xalqa doğruları söylədi. Qarşıya qoyduğu milli hədəflərə çatmaqdan ötrü daim xalqa güvəndi və xalqdan lazımi dəstəyi aldı.

Güclü iqtisadiyyatın ölkə həyatında nə qədər böyük önəm daşıdığını və bütün digər məqsədlərə çatmaqdan ötrü də əsas vasitə olduğunu yaxşı bilən Ümummilli Lider qısa müddətdə Azərbaycanın iqtisadi inkişafına nail oldu. Minbir zəhmət bahasına mərkəzdə qəbul etdirilən və icraya yönələn inkişaf proqramları sayəsində Azərbaycanda sənayeləşmə prosesləri başlandı. Ölkədə sosial infrastruktur quruldu. Ən ucqar kəndlərimizdə də o dövrün şərtləri daxilində yaşayış üçün normal şərait təmin edildi.

Məhz Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişindən sonra insanlar onların əməyinin yüksək səviyyədə dəyərləndirildiyini hiss etdilər. Kənd zəhmətkeşləri ilə görüş üçün tez-tez tarlalara baş çəkən, əmək adamları ilə səmimi ünsiyyət quran, onların nailiyyətlərini mükafatlandıran, insanları halal zəhmətə, Azərbaycana fayda verməyə ruhlandıran ölkə rəhbərini gördülər. O illərdə Azərbaycan insanının rifahı düzəldi. Gündəlik güzəranında, dolanışığında, həyat və məişətində ciddi dəyişikliklər baş verdi.

Heydər Əliyevin təşəbbüsü və gərgin zəhməti, fədakarlıqları hesabına Azərbaycanda böyük sənaye müəssisələri quruldu. Şəhərləşmə prosesi geniş miqyas aldı. Əhalinin mənzil şəraiti yaxşılaşdı. Şəhərlərimizin, kəndlərimizin siması dəyişdi, müasirləşdi. Heydər Əliyevin qurduğu zavod və fabriklərdə iş-güc tapan, böyük yaşayış komplekslərində mənzil, ev-eşik sahibi olan gənc azərbaycanlı ailələr hesabına mərkəzi şəhərlərimizdə milli ruh gücləndi. Azərbaycan dilinin, ana dilimizə aid təfəkkür tərzinin mövqeləri möhkəmləndi.

Ümummilli Lider xalqın milli oyanışını, tarixi yaddaşını, milli-mənəvi dəyərlərimizin qorunmasını təmin etdi. Ulu Öndər Azərbaycan dilində düşünən, danışan, bu dildə yazıb-yaradan milli elitanın inkişafına dəstək verdi. Uzun illər diqqətdən kənarda qalan ziyalılarımız məhz 60-cı illərin sonu, 70-ci illərin əvvəllərindən yaradıcılıq üçün əlverişli mühit qazandılar. Ümummilli Lider Heydər Əliyevin sayəsində dövlətin hərtərəfli diqqət və qayğısını hiss etməyə başladılar. Azərbaycanın bir çox alimi keçmiş ittifaqın ali dövlət mükafatları ilə təltif edildi. Azərbaycanlı mütəxəssislərin ixtiraları, kəşfləri, apardıqları elmi tədqiqatlar nəinki keçmiş SSRİ-də, həm də dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən elmi mərkəzləri maraqlandırmağa başladı.

Faktlar da göstərir ki, Azərbaycanda dünyaya səs salan elmi kəşflərin çoxu məhz ötən əsrin 70-ci illərində edilmişdir. Bütün bu inkişaf proseslərinə dəstək verməklə, bunun üçün əməyini əsirgəməməklə Heydər Əliyev Azərbaycanı dünyaya elm, mədəniyyət işığında təqdim etməyə çalışırdı. İstəyirdi ki, dünya Vətənimizi təkcə neft diyarı, təbii sərvətlərə malik ölkə kimi yox, eyni zamanda böyük bir mədəniyyətin beşiyi kimi tanısın. Xalqımızı əsrlər boyu bu torpaqlarda yaradılmış çox zəngin mədəniyyət işığında görüb, bu cür qəbul etsin. Heydər Əliyev o illərdə səsimizi, sözümüzü dünyaya yetirdi.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda yeni ali məktəblər açıldı. Müxtəlif profilli ixtisaslar üzrə ali təhsil almaq imkanları təmin edildi. Ulu Öndər Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratmaqla müstəqil Azərbaycan dövləti üçün peşəkar hərbçi nəsli yetişdirdi.

## Heydər Əliyevin yaratdığı möhtəşəm tarix

Bütün bunlar Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi dövründə qazanılmış nailiyyətlərin hələ məhdud hissəsidir. Ulu Öndərin o illərdə gördüyü işləri qısaca olaraq belə təsvir etmək olar ki, bu böyük dövlət adamı 60-cı illərin sonlarında keçmiş ittifaqın ən geridə qalmış, 15 respublika içərisində 14-cü yerdə gələn Azərbaycanı 80-ci illərin əvvəllərinə ən öncül sənaye respublikalarından biri kimi gətirib çıxardı.

Ümummilli Liderin quruculuq əzmi, təşkilatçılıq məharəti, gördüyü hər bir işə ürəyini, enerjisini qoyması o qədər güclü və diqqətçəkən idi ki, onun bu qüdrətindən bütün ittifaq miqyasında faydalanmaq qərarına gəldilər. Heydər Əliyev keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov. İKP MK-nın Siyasi Büro üzvü kimi keçmiş ittifaqın əsas rəhbərlərindən biri oldu. SSRİ-də ən çətin, böhranlı sahələr ona həvalə edildi. Ulu Öndər qısa müddət ərzində bu yeni vəzifəsində də böyük nailiyyətlər əldə etdi. İttifaqın hər yerində gördüyü işlərlə, problemləri həll etmək, layihələri yönəltmək qabiliyyəti ilə ictimaiyyətin dərin rəğbətini qazandı. Eyni zamanda aid olduğu Azərbaycana, onu yetirmiş xalqımıza böyük etimad yaratdı.

O illərdə keçmiş SSRİ-nin hər bir yerində Azərbaycanı Heydər Əliyevin Azərbaycanı kimi tanıyırdılar. Ulu Öndərin adı ilə hər bir azərbaycanlı qürur duyurdu. Heydər Əliyev Azərbaycanın ən böyük uğuru idi. Ümumən bütün türk dünyası onun varlığı, qlobal siyasət aləmində ucaldığı ali mənsəblə fəxarət hissi keçirirdi. Ulu Öndər bütün türk dünyasının hamisinə, qürur mənbəyinə çevrilmişdi.

Bədxahları müxtəlif fitnə-fəsadlarla onun yüksək dövlət vəzifələrindən istefasına nail olandan sonra, əfsuslar olsun ki, Azərbaycanın uğursuzluq dövrü başlandı. Biz bunu Qarabağ problemində gördük. Heydər Əliyevin istefasından cəmi neçə gün sonra ermənilər mərkəzdəki havadarlarının dəstəyi ilə Azərbaycana qarşı ərazi iddialarına başladılar. Torpaqlarımız qəsb edildi, soydaşlarımız qətlə yetirildi, başımıza minbir fəlakət gətirildi, səsimizi eşidən olmadı.

Belə çətin, ağır sınaqlarla dolu məqamlarda yenə də Azərbaycan xalqının ən böyük təsəllisi Heydər Əliyevlə bağlı xəbərlər, onun həyat və fəaliyyətinə dair yeniliklər idi. O, istefaya çıxdıqdan sonra Moskvada fərdi təqaüdçü həyatı yaşayırdı. Fəal siyasətlə məşğul olmasına ciddi qadağalar vardı və totalitar sovet rejimi kütlələrə geniş təsir imkanlarına malik belə şəxsiyyətlərin hər addımını ciddi nəzarət altında saxlayır, müxtəlif təzyiq metodları ilə məhdudiyyətlər yaradırdı. Buna baxmayaraq, Azərbaycanla bağlı taleyüklü məsələlərdə Ulu Öndəri təcriddə saxlamaq mümkün olmadı.

Sovet ordusunun Bakıda dinc vətəndaşlarımıza qarşı törətdiyi kütləvi qırğına etiraz olaraq Ümummilli Lider hadisənin səhəri günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi. Azərbaycanın haqq səsini bütün dünyaya yetirdi. Başda M.S.Qorbaçov olmaqla bu qətliama görə məsuliyyət daşıyan cinayətkarların adlarını beynəlxalq ictimaiyyətə elan etməkdən çəkinmədi. Heydər Əliyev hər zamankı kimi, yenə də xalqın yanında oldu, insanları toparladı, ümid verdi, öz qətiyyəti ilə nümunə göstərdi. Heç bir təzyiq və təhdid onu yolundan döndərmədi. Sovet rejiminin iş prinsiplərinə, belə hallara qarşı barışmazlığına bələd olan və belə bir addımın onun üçün nələrlə nəticələnə biləcəyini aydın görən Ulu Öndər yenə də yolundan dönmədi.

## Qurtuluş anı

Heydər Əliyevin aktiv siyasətə qayıdışı üçün qarşısında yaradılmış bütün əngəlləri yararaq Moskvadan Bakıya, paytaxtdan isə Naxçıvana qayıdışı, Naxçıvan Ali Məclisinin Sədri seçilməsi ilə tariximizdə yeni bir dönəm başlandı. Ulu Öndər o dövrdə blokada şəraitində yaşayan, üstəlik, mərkəzdəki naşı siyasət adamlarının soyuq münasibəti ilə üzləşib acınacaqlı taleyi ilə baş-başa qalmış Naxçıvanı qorudu. Qədim Naxçıvan torpağı Azərbaycanın gələcək inkişafına doğru ilk qətiyyətli addımların atıldığı, ilk mühüm uğurların əldə edildiyi məkan oldu.

Onda dövlət müstəqilliyinə yenicə nail olmuş Azərbaycan çətin sınaqlar dövrünü yaşayırdı. Təsadüflər üzündən hakimiyyəti ələ keçirmiş ünsürlər ölkəni faciəvi vəziyyətə gətirmişdilər. Cəmiyyət həyatında mənəvi-siyasi, sosial-iqtisadi böhran getdikcə dərinləşirdi. Xarici ölkələrlə pozulmuş münasibətlər Azərbaycanı müxtəlif maraqların qanlı münaqişə meydanına çevirmişdi. Çoxmillətli ölkə olan Azərbaycanın müxtəlif regionlarında separatçı meyillər baş qaldırırdı, respublikanın parçalanması, dünya xəritəsindən silinməsi planları işə salınmışdı.

Elə bir gün olmurdu ki, hansısa faciəvi hadisə baş verməsin. Azərbaycanın vəziyyəti pisləşdikcə ermənilər daha da azğınlaşırdılar. İşğal olunmuş ərazilərimizin hüdudları genişlənirdi. Hakimiyyətdə olan qüvvələr nizami ordu yaradıb ölkənin ərazi bütövlüyünü müdafiə etmək əvəzinə sərəncamlarındakı silahları dəstələrin iştirakı ilə bir-biri ilə mövqe savaşı aparırdılar. Hakimiyyət hərisliyi Azərbaycanı vətəndaş müharibəsi təhlükəsi ilə üzüzə qoymuşdu. Xalq isə belə bir həlledici məqamda xilası yenə də Heydər Əliyevin müdrik zəkasında, dövlətçilik təcrübəsində görürdü və Ulu Öndərin hakimiyyət rəhbərliyinə qayıdışını təkidlə tələb edirdi.

Ümummilli Lider o taleyüklü anlarda da yenə Azərbaycan xalqının səsinə səs verdi. Bu böyük şəxsiyyətin Naxçıvandan Bakıya qayıdışı milli dövlətçiliyimizin qurtuluşuna çevrildi. Heydər Əliyev xalqın dəstəyi ilə hakimiyyət rəhbərliyinə gələrək qısa zamanda müsbətə doğru ciddi dönüş yaratdı. Cəmiyyətdə ictimai-siyasi sabitliyi təmin etdi. Ölkəmiz, vətəndaşlarımız, dövlət müstəqilliyimiz, demokratik inkişaf prosesləri üçün təhlükə mənbəyinə çevrilmiş qanunsuz silahlı birləşmələrin fəaliyyətinə son qoydu.

Ulu Öndər xaricdən yönələn ağır təhdidlərə, onu bu qərardan çəkindirmək üçün hətta yüksək vəzifəli şəxslərə qarşı törədilən terror əməllərinə, ölkəni qarışdırmaq cəhdlərinə rəğmən dünyanın transmilli şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Bununla Azərbaycanın gələcək sosial-iqtisadi inkişafı üçün güclü təməl formalaşdırdı. Ümummilli Lider cəbhə bölgəsində atəşkəsə nail olaraq mənasız insan itkilərinin qarşısını aldı. Azərbaycanın Ermənistan üzərində hərtərəfli üstünlüyünü təmin etməkdən ötrü vaxt qazandı. Bütün resursları ölkənin sosial-iqtisadi inkişafına, uzun müddətdən bəri yığılıb qalmış problemlərin həllinə, yenicə müstəqillik qazanmış ölkədə nizam yaratmağa, gələcəyə doğru aydın yol müəyyənləşdirməyə yönəltdi.

Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının müəllifi oldu. Ölkədə demokratik ənənələr, vətəndaş cəmiyyəti formalaşdırdı, respublikanın inkişafını təhdid edən, əngəlləyən bütün pis təzahürləri aradan qaldırdı, dövlətə hərbi cinayətlərin, qiyamların qarşısını aldı. Azərbaycanda vətəndaş məsuliyyətinə, dövlətçilik dəyərlərinə əsaslanan yeni bir siyasi mədəniyyət yaratdı.

Ulu Öndərin mühüm xidmətlərindən biri də yüzminlərlə insanın etimad, inam ünvanına çevrilən Yeni Azərbaycan Partiyasını yaratması, onu daim qələbələr, seçki zəfərləri qazanan hakim siyasi gücə çevirməsi oldu. Bu il 30 yaşını qeyd edəcəyimiz şanlı partiyamız indi Cənubi Qafqazın ən böyük, ən güclü, ən möhtəşəm siyasi təşkilatıdır. Heydər Əliyev dühasının şərəfli irsini layiqincə davam etdirən YAP həm də möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlərin siyasi istinadgahıdır.

## İnamın təntənəsi

Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı ən mühüm xidmətlərindən biri də bu oldu ki, müəyyən etdiyi strateji inkişaf kursunun davamlılığını təmin etdi. Bu kursu Ulu Öndərin cismani yoxluğu dövründə də əzmlə davam etdirə biləcək parlaq Lideri - İlham Əliyevi yetişdirdi.

Azərbaycan xalqına sonuncu müraciətində öz tarixi missiyasını özü qədər inandığı Liderə həvalə etdi. Azərbaycan dövlətinin taleyini əmin əllərə tapşırdı. Heydər Əliyev xoşbəxt dövlət qurucusu, bəxtiyar Ata idi ki, bu dünyadan nigaran köçmədi. Cənab İlham Əliyevin Ata vəsiyyətini yerinə yetirəcəyinə, onun axıra çatdıra bilmədiyi işlərini, planlarını, yarımçıq qalmış arzularını reallığa çevirəcəyinə qəlbən inandı. Heydər Əliyevin özü qədər inandığı Liderə Azərbaycan xalqı da Heydər Əliyev qədər inandı. Ulu Öndərin təqdim etdiyi namizədə dəstək verdi. Ümummilli Liderin göstərdiyi inkişaf yolu cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdi.

Beləliklə, milli dövlətçilik tariximizdə İlham Əliyev dövrü başlandı. Tarixin İlham Əliyev dövrü əslində elə həm də Heydər Əliyev dövrünün davam etməsi deməkdir.

İlham Əliyev dövründə Heydər Əliyev siyasəti davam etdi, amma yeni missiya ilə davam etdi. Ulu Öndərin gələcək üçün müəyyən etdiyi strateji vəzifələrin yerinə yetirilməsi Azərbaycanı daha da gücləndirdi. Müstəqilliyimizi, milli inkişafımızın təməllərini sarsılmaz etdi. Daha uğurlu Azərbaycan quruldu. Cənab İlham Əliyev Azərbaycanı Ümummilli Liderin arzularında şəkilləndirdiyi dönəmlərə - tarixinin ən qüdrətli çağlarına gətirdi. İlham Əliyev tarixin ən qüdrətli Azərbaycanının müəllifi oldu.

Bütün bunlar heç də asan başa gəlmədi. Xalq olaraq çox çətin mərhələlərdən, sınaqlardan keçdik. Tarixin ən qüdrətli Azərbaycanının hər bir nailiyyəti illərin ardıcıl zəhməti, dövlət rəhbərimizin daim ona dəstək verən xalqla birgə gərgin əməyi, fədakarlıqları hesabına gerçəkləşdi. Zəmanəsinin ən parlaq siyasət adamlarından, mahir diplomatlarından olan İlham Əliyevin dövründə Azərbaycan diplomatiyası misilsiz uğurlar qazandı. Azərbaycan bədxahlarımızın illərlə qarşımıza qoymağa çalışdıqları maneələri aşaraq beynəlxalq aləmdə layiq olduğu zirvələrə yüksəldi.

Prezident güclü ordu qurdu. Azərbaycanın maraqları uğrunda göz qırpmadan ölümə atılmağa hazır olan və bunu Vətən müharibəsində min dəfələrlə sübuta yetirən vətənpərvər gənclik yetişdirdi.

Azərbaycan Lideri ölkəmizi dünyanın mühüm aktorlarından birinə, qlobal tranzit, logistika qovşağına çevirdi. Beynəlxalq aləmdə kəsişən, bir-biri ilə ziddiyyətə girən iqtisadi maraqlar, enerji-kommunikasiya marşrutları Azərbaycanda qovuşdu, uzlaşdı, buradan daha gözəl bir dünyaya, bəşəriyyət naminə daha xoşbəxt gələcəyə doğru yola çıxdı. Azərbaycan planetimizin yeni enerji xəritəsinin müəyyənləşməsində müstəsna rol aldı. Cəmi bir neçə on il əvvəl özünün enerji təminatı ilə bağlı ciddi problemləri olan, regionlarında hətta adi elektrik enerjisi fasilələrlə verilən ölkə qısa zamandan sonra Avropanın enerji təhlükəsizliyinin mühüm təminatçısı statusunda qəbul olunmağa başladı.

Bütün bunlar da məhz cənab İlham Əliyevin uzaqgörənliyi, təşəbbüskarlığı, zamanın axarını, gələcəyin mənzərəsini həssaslıqla duya bilməsi və buna uyğun çevik davranışları, zamanında verilmiş məqsədyönlü qərarları hesabına başa gəldi. Dünyanın Azərbaycanı sanballı, etibarlı tərəfdaş kimi qəbul etməsi, İlham Əliyev şəxsiyyətinə inanması, Azərbaycan Prezidentini sözünə də imzası qədər böyük dəyər verən, sözü ilə əməli həmişə üst-üstə düşən prinsipial, mərd Lider kimi tanıması da burada mühüm rol oynadı.

## Dünyada Günəş kimi parlayan Azərbaycan

Cənab İlham Əliyevin Azərbaycanın modernləşməsi, ölkə və cəmiyyət həyatında müasir çağırışların nəzərə alınması, idarəetmə sisteminin yenilənməsi istiqamətində həyata keçirdiyi islahatlar, atdığı addımlar öz məqsədinə çatdı. Azərbaycan Prezidenti inkişafın Azərbaycan modelini yaratdı. Bu gün Qərblə Şərqin təmas məkanına, fərqli mədəniyyətlərin dialoq yerinə çevrilmiş Azərbaycan nümunəsində multikulturalizmin, tolerantlığın Azərbaycan modelini bütün dünyaya təqdim etdi. Bütün bu tarixi nailiyyətlərlə Azərbaycan bir zamanlar Ulu Öndərin öz arzularında dilə gətirdiyi kimi, dünyaya Günəş kimi doğdu, dünyada Günəş kimi parladı.

Azərbaycan indi dünyamız üçün bütün əhəmiyyətli məsələlərdə nümunə yaradır, ümumən bəşəriyyət üçün məqsədyönlü həllər ortaya qoyur. Buna son illərdə əsas qlobal problemə çevrilmiş pandemiya dövründə hər birimiz şahid olduq. Azərbaycan bu ümumbəşəri bəladan ən az itkilərlə çıxmış ölkə olmaqla yanaşı, dünya üçün ən faydalı təşəbbüslərə də imza atan, son dərəcə məsuliyyətlə davranan ölkə kimi tanındı. Azərbaycan əhalini pandemiyadan qorumaq üçün təsirli tədbirlər həyata keçirən, kütləvi peyvəndlənmə prosesinə başlayan öncül ölkələrdən oldu. Eyni zamanda yüksək məsuliyyət göstərərək kasıb ölkələrdə əhalinin xilası üçün humanitar yardımlar göndərməyi də unutmadı. Ən çətin məqamlarda da ümumbəşərilik dəyərinin bizim üçün nə qədər önəmli olduğunu göstərdi. Azərbaycan Prezidenti irəli sürdüyü qlobal təşəbbüslərlə dünya liderlərini pandemiya dövrünün bir sıra aktual məsələləri ətrafında bir araya gətirdi. Müxtəlif həllərin birgə axtarılmasına nail oldu. Zaman, tarix cənab İlham Əliyevin vaxtında irəli sürdüyü təşəbbüslərdə nə qədər haqlı olduğunu sübuta yetirdi və yenə də sübuta yetirməkdədir.

## Quruculuq missiyası davam etdirilir

Azərbaycan Prezidenti Ümummilli Lider Heydər Əliyevin ən mühüm vəsiyyətini yerinə yetirdi. Azərbaycan torpaqlarının azadlığı, Şuşada üçrəngli bayrağımızın dalğalanması Heydər Əliyevin ən böyük arzusu idi. Ulu Öndər gec-tez o günün gələcəyinə qəlbən inanırdı.

Müzəffər Komandan bu ümidi, imamı da doğrultdu. 44 gün ərzində 2 əsrlik münaqişəyə, 30 illik müharibəyə son qoydu. əsrlər sonra ilk dəfə torpaqlarımızı qəsbkarlardan geri almağı bacarmış dövlət rəhbəri kimi adını tarixə yazdı.

44 günlük Vətən müharibəsində cənab İlham Əliyev təkcə hərbi əməliyyatların komandanı deyildi, eyni zamanda informasiya cəbhəsinin, diplomatiya cəbhəsinin də baş sərkərdəsi idi və Azərbaycan bütün bu cəbhələrdə Müzəffər Komandanın rəhbərliyi ilə böyük zəfər qazandı.

Bu qələbə tariximizin elə möhtəşəm məqamıdır ki, əsrlər sonra da qürur mənbəyimiz kimi xatırlanacaq. Bu günlərdə Zəfər qalamızda baş tutan dünya azərbaycanlılarının Zəfər qurultayı da sübut etdi ki, 50 milyonluq xalqımızın ən böyük həmrəylik, birlik gücü də məhz elə Vətən müharibəsindəki qələbədir. Ali Baş Komandanımızın dediyi kimi, bundan sonra əbədi olaraq Azərbaycan Respublikası müzəffər dövlət, Azərbaycan xalqı isə müzəffər xalq kimi yaşayacaq.

Azad torpaqlarımızda artıq cənab İlham Əliyevin qurucu əlləri ilə yeni tarix başlanıb. Qarabağda, Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq-bərpa prosesləri gedir. Heydər Əliyevin vəsiyyətinin yerinə yetirilməsinin, torpaqlarımızın düşməndən təmizlənməsinin ardınca Ümummilli Liderin adını daşıyan fond Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə azad Qarabağın, Şərqi Zəngəzurun dirçəldilməsində müstəsna rol oynayır.

Azad yurdlarımızda hasara alınıb bərpa olunan bir çox məkanın, xüsusilə maddi mədəniyyət abidələrinin hasarları üzərində buranın bərpasının Heydər Əliyev Fondu tərəfindən həyata keçirilməsinə dair məlumat oxuyuruq. Bu, o deməkdir ki, Mehriban xanımın möhtəşəm, qüdrətli fəaliyyəti ilə Heydər Əliyevin irsi yaşadılır, Ulu Öndərin quruculuq missiyası davam etdirilir.

Ümumən Azərbaycanın son onilliklərdə qazandığı tarixi nailiyyətlərdə Azərbaycan Prezidentinin ən yaxın silahdaşı kimi Mehriban xanım Əliyevanın böyük xidmətləri var və bu gün onun iştirakı ilə azad torpaqlarımızda aparılan işlər də Vətənə xidmətin parlaq nümunəsidir.

Azərbaycanın zəfəri ilə regionda yaranmış tarixi reallıqlar fonunda bu gün Ali Baş Komandan İlham Əliyev artıq Qafqazın hərbi-siyasi lideridir. Regiondakı proseslər Azərbaycanın və cənab İlham Əliyevin şərtləri, diktəsi altında həyata keçirilməkdədir. Azərbaycan Prezidentinin sülh danışıqlarının başlanması üçün irəli sürdüyü 5 prinsipi artıq Ermənistan tərəfi qəbul edib və bu, rəsmən təsdiqlənib.

Dünya miqyasında Avropa İttifaqının və Rusiyanın vasitəçiliyi ilə aparılan üçtərəfli danışıqların məcrası da prosesin cənab İlham Əliyevin müəyyən etdiyi strategiyaya uyğun həyata keçirildiyini göstərir. Bu, bütün regionun faydasınadır. Cənubi Qafqazda sülh, qarşılıqlı əməkdaşlıq, davamlı inkişaf, insanların xoşbəxtlik və rifahı arzusunun gerçəkliyə yaxınlaşmasıdır.

*Bu, Ulu Öndər Heydər Əliyevin arzuladığı günlərdir.*

*Bu şanlı tarix Heydər Əliyevin əbədiyyət ömrünün davamıdır.*

*Ulu Öndər deyərdi ki, nə qədər Azərbaycan var, mən də varam və mən Azərbaycanda əbədi olacağam.*

*Doğrudan da, Azərbaycan var olduqca Heydər Əliyevin idealları yaşayacaq, gələcəyə doğru yol göstərəcək.*

**Ağalar VƏLİYEV,**
***Milli Məclisin deputatı***

1923 *Azərbaycanın özü qədər əbədi* 2022

Müasir Azərbaycanın dövlətçilik tarixi xalqımızın böyük oğlu, bütün həyatını xalqının və dövlətinin inkişafına həsr etmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir, onun ictimai-siyasi həyatdakı bənzərsiz siyasi manevrləri, müdrikliyi, filosofluğu və təşkilatçılığı sistemli bir məktəb yaratmışdır.

Heydər Əliyev şəxsiyyəti və onun yaratdığı siyasət məktəbi idarəçilik sahəsində çalışan hər bir şəxs üçün yüksək ictimai tərbiyə və siyasi kamillik məktəbi nümunəsidir, eyni zamanda bu siyasi məktəb özündən sonra gələn siyasətçilər üçün ali tərbiyə məktəbi, real həyatı əks etdirən, yüksək əxlaqi və humanist keyfiyyətlərə malik bir tərbiyə ocağıdır. Bu siyasət məktəbini insan və cəmiyyətin formalaşmasında siyasi mədəniyyət və ya siyasi tərbiyə institutu kimi də dəyərləndirə bilərik. Heydər Əliyevin siyasi fəlsəfəsində siyasətə kompleks yanaşma, milli dövlətçilik və milli ideologiya konsepsiyası siyasət və iqtisadiyyatın vəhdəti, mədəni irs və milli-mənəvi dəyərlər, demokratik dəyərlər, bir sözlə, Azərbaycanın dirçəlişinin nəzəriyyə və praktikasına bu dahi şəxsiyyətin verdiyi töhfələrin öyrənilməsi olduqca zəruri, vacib siyasi-fəlsəfi və mənəvi əhəmiyyət kəsb edir.



# Zamana sığmayan lider

## Azərbaycançılıq ideologiyası tarixi və fəlsəfi kontekstdə

Azərbaycançılıq xalqın milli-mənəvi varlığının ilkin əlamətlərini, onun kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemidir, eyni zamanda bu ideologiya tarixi şüura əsaslanan, lakin demokratik prinsipləri əsas götürən bir konsepsiyadır və mahiyyəti mühüm funksional elementlərlə zənginliyi ilə ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumaqdır.

Bu ideologiya inzibati-ərazi quruluşuna görə unitar, siyasi quruluş və dövlət idarəçiliyinə görə hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəldilmişdir.

Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətidir. Bu ideologiyanın əsas mühüm mahiyyəti unitar, hüquqi və demokratik Azərbaycan dövlətinin möhkəmləndirilməsinə və inkişafına xidmət etməkdən ibarətdir. Azərbaycançılıq xalqımızın çox çətinliklərlə nail olduğu tarixi sərvətidir. O, gerçək müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Bu gün azərbaycançılıq milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqə və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir. Heydər Əliyevin azərbaycançılıq konsepsiyası müstəqil Azərbaycanın fəlsəfi-sosioloji doktrinasının sosial-mədəni və etnocoğrafi-siyasi cəhətlərini özündə ehtiva edir. Qarşılıqlı yardım, əməkdaşlıq və bərabərlik prinsiplərinə əsaslanan azərbaycançılıq və neokonservatizm ideologiyası nəzəri və siyasi baxımdan bir-biri ilə sıx əlaqədə olub, daxilən harmoniya təşkil edir. Azərbaycan xalqının intellektual təfəkkürünü, tarixi-mədəni irsini özündə cəmləşdirən, millətin birliyinə çalışan azərbaycançılıq dövlətçiliyin inkişafı və tərəqqisi, dövlətin təhlükəsizliyi və ərazi bütövlüyünü təmin edən əsas amillərdəndir. Milli ideologiyamızın milli düşüncəmizin sərvəti olduğunu müəyyən çağlarda şərh etməyə çalışmışlar. Heydər Əliyev iş təcrübəsinə əsaslanaraq bu yönümdə də kompleks tədbirlərdən istifadə etmişdir.

Heydər Əliyev azərbaycançılığın reallaşması üçün vətənpərvərlik tərbiyəsini mühüm amil hesab edirdi. Çünki vətənpərvərlik hər bir insanı ölkəsinin həqiqi vətəndaşına çevirir.

## "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"

Milli maraqları ifadə edən güclü dövlət hakimiyyətin və yüksək milli intizamın, formalaşmış milli özünüdərkin olmasını tələb edir. Heydər Əliyevin sayəsində Azərbaycanda dövlətçilik özünü təkcə siyasi-hüquqi amil kimi deyil, həm də konkret milli-mənəvi gerçəklik kimi göstərmişdir. Azərbaycançılıq bu gerçəkliyin milli ideologiya səviyyəsində təzahürüdür. Heydər Əliyev azərbaycançılıq ideoloji konsepsiyası bütün dünyada yaşayan azərbaycanlıların milli-mənəvi maraqlarını ifadə edir.

Azərbaycançılıq Azərbaycanda vahid birlik formalaşdırır, cəmiyyətin normativ dəyərlərinin vəhdətinə yönəlir. Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik bütövlükdə bu ideologiyanın əhatə dairəsinə sığmır, soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəsi əhatə edir.

Ulu Öndərin azərbaycançılıq ideologiyasının inkişafı, dünya azərbaycanlılarının Vətənimizlə bağlarının qurulması istiqamətindəki fəaliyyətini vurğulayarkən onu da qeyd etmək vacibdir ki, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi məhz Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətidir. 1991-ci il dekabrın 16-da Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" qərar qəbul etdi və bu hadisə ölkəmizdə azərbaycanlıların mənəvi birliyinin rəmzinə çevrilərək əlamətdar bayram kimi geniş qeyd olunur.

Azərbaycançılıq ideologiyasından danışarkən xüsusi olaraq diaspor problemini də xüsusi vurğulamaq yerinə düşər. SSRİ zamanında - sovet ideologiyasının hakim olduğu dövrdə milli-ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verilməsə də, mədəniyyət, incəsənət, elm sahəsində ciddi iş aparılır, respublikamızın nailiyyətləri təbliğ edilir, dünya azərbaycanlılarının tarixi vətənlə əlaqəsinə xidmət edəcək hər bir imkandan səmərəli şəkildə istifadə olunurdu. Eyni zamanda azərbaycançılıq ideyasının, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi üçün, həmçinin dünyaya səpələnmiş soydaşlarımızın vətənlə əlaqələrinin, xüsusilə ölkəmizin bütün məsələlərdə milli maraqlarının və tarixən formalaşmış mənəvi dəyərlərinin qorunması məqsədilə diaspor quruculuğu sahəsində bir sıra mühüm addımlar atıldı. Müxtəlif ölkələrlə mədəni əlaqələrin güclənməsi, xaricdə yaşayan həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin yaradılması həmvətənlərimizin birliyinə və vətənlə əlaqəsinə xidmət edən mühüm addımlardan idi.

Azərbaycançılıq ideologiyasının əsas vacib komponentlərindən biri də dini dəyərlərimizdir. Heydər Əliyev islam dəyərləri və milli-mənəvi dəyərləri vəhdətdə görərək onlara tərbiyə, əxlaq, mənəviyyatı, iradəni gücləndirən siyasi və ideoloji işin birliyi kimi baxırdı. Azərbaycançılıqda dini amil, ilk növbədə islam dini xüsusi əhəmiyyət kəsb etsə də, azərbaycanlılar dini fanatizm və dini ekstremizmdən uzaq olub, başqa dinlərə dözümlülük (tolerantlıq) nümayiş etdirirlər. Azərbaycan dövlətçiliyinin ideoloji əsasının - azərbaycançılığın müəllifi və yaradıcısı böyük öndər Heydər Əliyev Azərbaycanda açıq vətəndaş cəmiyyətini bütün dinlərin, təriqətlərin, etiqadların, Şərq və Qərb mədəniyyətlərinin, digər mənəvi və bəşəri dəyərlərin sintezindən ibarət bir yeni dünya yaratdı. İslam dini hər bir insanın düzgün mənəvi-əxlaqi meyarlar seçə bilməsində, onun yüksək mənəvi prinsiplərə malik olmasında mühüm rol oynayır. İslam dini Azərbaycan xalqının mənəvi dünyasında, milli şüurunda və sosial psixologiyasında mühüm yer tutur. Həm də nəzərə alsaq ki, islam bizim üçün əsrlər boyu təkcə əqidə deyil, həm də əxlaq, adət-ənənə, hətta düşüncə tərzinin formalaşmasının mühüm mənbələrindən biri olub, ona qayıtmağın bizim üçün necə dəyərli bir hadisə olduğunu təsəvvür etmək çətin deyildir.

Azərbaycan xalqının öz milli-mənəvi, dini dəyərləri ilə, adət-ənənələri ilə daim fəxr etdiyini göstərən Heydər Əliyev islam dininin mənəviyyatda rolunun artdığını, bu mənəvi mənbələrdən istifadə etməyi Azərbaycanın strateji inkişaf xəttinin əsas istiqamətlərindən biri hesab edirdi. Ulu Öndər çıxışlarının birində demişdir: "Biz öz milli köklərimizi, dini mənsubiyyətimizi qorumuşuq, qoruyacağıq. Mənəvi ənənələrimizi, adətimizi qoruyub inkişaf etdirəcəyik. Ancaq bununla bərabər, biz ümumbəşəri dəyərlərdən də bəhrələnirik. Hesab edirik ki, bizim milli-mənəvi dəyərlərimizin ümumbəşəri dəyərlərlə birgə inkişaf etməsi, onların sintezi xalqımızın gələcəyi üçün, inkişafı üçün daha da əhəmiyyətli olacaqdır".

Azərbaycançılıq ideologiyası ilə bağlı sonda nəticəyə gəlirik ki, bu ideologiya xalqımıza Ulu Öndər tərəfindən bəxş edilmiş güclü və sağlam dəyərdir. Bu dəyərin mahiyyəti 44 günlük Vətən müharibəsində bir daha sübut olundu. Hər kəs mənsubiyyətindən asılı olmayaraq yumruq kimi Prezidentin ətrafında birləşdi və 30 ilə yaxın Ermənistanın işğalında olan torpaqlarımız düşmən tapdağından azad edildi. 44 günlük Vətən müharibəsi göstərdi ki, ölkədə xalq-iqtidar, xalq-ordu birliyinin kökündə də məhz elə azərbaycançılıq ideologiyası dayanır.

## Böyük dövlət xadiminin yüksək manevr qabiliyyəti

Heydər Əliyevi rəhbər kimi başqalarından fərqləndirən mühüm bir keyfiyyət ondan ibarətdir ki, onun dövlətçilik və siyasi fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai-siyasi sistemin qovuşuğundan keçmiş və onların imkanlarından bacarıqla istifadə edib hər bir dövrün ictimai-siyasi tələblərinə uyğun özünün bütün varlığını Azərbaycanın yüksəlişinə, xalqın mənəvi-mədəni inkişafına həsr etmiş və ölkəmizin hərtərəfli tərəqqisini təmin etmişdir.

70-ci illərdən başlayaraq Heydər Əliyevin əməli işləri Azərbaycan xalqının zaman-zaman inkişafı üçün fədakar əməyi kimi qəbul edilməlidir. Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrləri arasında sıx məntiqi əlaqə, dialektik vəhdət var. Heydər Əliyevin bir siyasətçi kimi unikallığı, özünəməxsusluğu, fenomenliyi ondadır ki, o, hər zaman dünya təcrübəsində mövcud olan sivil üsullara əsaslanaraq Azərbaycanda demokratik prinsiplərin inkişafına iqtisadi sistemin transformasiyasının milli xüsusiyyətlərin imkan verdiyi səviyyədə şərait yaratmağı bacarmışdır.

Heydər Əliyevin dövlət ideyaları, dövlət idarəçiliyi və dövlətçilik fəaliyyəti Azərbaycanın siyasi, iqtisadi və mədəni-mənəvi inkişaf strategiyasını müəyyənləşdirən nəzəriyyə, əməli-təcrübi məktəbdir. Azərbaycan xalqının yaddaşında müqəddəs sayılan zirvəyə gedən yol Heydər Əliyev yoludur, Azərbaycanın milli-azadlıq hərəkatı və milli-mənəviyyat tarixində xüsusi səhifə yaradan dühalıq məktəbidir. Heydər Əliyev siyasi məsuliyyətdə, idarəçilikdə, daha doğrusu, dövlət idarəçiliyində heç bir əqidə səhvinə yol verməyib. Bu, Heydər Əliyevin siyasi məsuliyyətini təsdiqləyən, şəxsiyyətini səciyyələndirən xarakterik xüsusiyyətlərdir.

Heydər Əliyevin zəkasının gücü ilə təhlükələri sovuşdurması Vətənin bütövlüyünə xidmət edən vətəndaşlıq borcu idi. Bunu Heydər Əliyevin siyasi əqidə bütövlüyü, vətən qarşısında siyasi məsuliyyəti kimi də göstərmək olar. Heydər Əliyev vətənin dar günündə özünün siyasi məsuliyyətini dərk edərək, ləyaqətli şəxsiyyət kimi vətəndaşlıq borcunu ödəmək üçün odun-alovun içərisinə atılmaqdan da çəkinmirdi. Vətənə, ana torpağa bağlılıq, övladı olduğu xalqına dərin məhəbbəti və xalqın ona olan böyük inamı Heydər Əliyevi Azərbaycanın müstəqilliyini və azadlığını qorumaq üçün müqəddəs vəzifəni öz üzərinə götürməyə vadar etdi.

O vaxt Heydər Əliyevin atdığı addımlar o dərəcədə dəqiq idi ki, sanki görücü nəzərləri ilə yaxın gələcəkdə Azərbaycanın müstəqil olacağını bilirdi və həyata keçirdiyi bütün quruculuq işləri planlı surətdə müstəqil Azərbaycan üçün görülürdü. Hər halda məhz 70-ci illərdə toplanmış iqtisadi və mədəni-mənəvi potensial müasir dövrdə Azərbaycanın müstəqil bir dövlət kimi özünü təsdiq etməsi işində mühüm rol oynayır.

Heydər Əliyev ilk siyasi hakimiyyət illərində siyasi rəhbərlik daxilində yekdillik, azərbaycanlılar arasında milli birlik, xalq-hakimiyyət arasında vəhdət yaratdı. Təsadüfi deyil ki, ABŞ tarixçiləri Kollinz və Svyatoxovski Heydər Əliyevin hakimiyyəti illərində azərbaycanlılardan ibarət siyasi elitanı birləşdirdiyini qeyd edirlər.

## Xarici və daxili siyasətin harmoniyası

Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən birqütblü xarici siyasətə son qoyaraq balanslaşdırılmış xarici siyasət kursu həyata keçirməyə başladı. Bu isə öz faydasını verməyə bilməzdi. Professor Sahibə Qafarova Heydər Əliyevin xarici siyasət kursunun Azərbaycanın inkişafında yeni mərhələnin əsasını qoyduğunu belə bildirir: "1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün istiqamətlərdə olduğu kimi, xarici siyasətdə də böhran dayandı və Azərbaycan üçün sözün həqiqi mənasında yeni mərhələ başladı. Ümummilli Lider Heydər Əliyev əslində ölkənin çox güclü potensiala sahib olduğunu yaxşı bilirdi. Məhz bu potensialı yönləndirib dövlətin inkişaf istiqamətlərini müəyyənləşdirmək, onu tətbiq etmək lazım idi. Bunun üçün cəsarət, sonra isə siyasi bacarıq, diplomatik səriştə gərəkli idi ki, hər halda Heydər Əliyev kimi zəngin dövlətçilik təcrübəsinə və siyasi bacarığa sahib olan bir lider üçün bu, heç də çətin olmadı. Heydər Əliyev Azərbaycana "poliqon" kimi baxanları yanıltdı. Ölkə daxilindəki vətəndaş müharibəsini dayandırdı, beynəlxalq güclərin təzyiqlərinin qarşısını aldı, heç kəsdən asılı olmayan, sözün həqiqi mənasında müstəqil xarici siyasət kursunun əsasını qoydu".

Heydər Əliyevin mükəmməl siyasət yürütməsi təsadüfi deyildi. Ulu Öndər erkən və Orta əsr türk dünyasında ömür yaşamış sərkərdələrimizin siyasi baxışlarından xüsusi məharətlə bəhrələnmişdir. VI əsrdə Göytürk xaqanı olmuş Qara İssık xanın oğlu Şetunun Çin xaqanının məktubuna cavabına diqqət yetirək: "Sizə hər il vergi göndərəcəyəm, bütün vaxtımı sizə sərf edəcəyəm, sözünüzü dinləyəcəm. Ancaq paltarlarımızın ətəklərini kəsməyə, çiyinlərimizdə dalğalanan saçlarımızı kəsməyə, dilimizi dəyişdirməyə və sizin qanunlarınızı mənimsəməyə gəlincə isə bizim ənənələrimiz, qədimdən qalma adətlərimiz çox uzaq keçmişlərdən gəlir, mən özüm də indiyə qədər bunlardan tək bircəsini belə dəyişdirməyə cürət etməmişəm. Ona görə ki, bütövlükdə türk xalqı eyni qəlbin yiyəsidir!"

Heydər Əliyev tarixi hadisələrə elmi-nəzəri konsepsiya kimi baxmaqla onu siyasi reallıqlar kontekstində ümumiləşdirməyə və həyata tətbiq etməyə üstünlük verirdi. Məhz bunun nəticəsidir ki, Ulu Öndər Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında yalnız insanlarımızın istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini məhz ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurmağı bacardı.

## Siyasi varislik uğur strategiyası

Nəhəng siyasi xadimlərə özlərindən sonra uğurlu siyasi varis yetişdirmək hər zaman nəsib olmur. Heydər Əliyev xoşbəxt siyasətçilərdəndir ki, o, özündən sonra İlham Əliyev kimi varis yetişdirib. Tarixi Zəfər müharibəsindən sonra artıq Azərbaycan xalqı dünya xalqları sırasına yeni keyfiyyətdə daxil olub. Zəfər müharibəsi dönəmində siyasi varisliyin mənəvi bağlılığın üzvi vəhdətinin şahidi olduq.

Qalib sərkərdə Prezident İlham Əliyev Zəfər müharibəsinin kulminasiyası sayılan Şuşa şəhərinin azad edilməsindən sonra Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət edərkən çox duyğulanmış və ata vəsiyyətini xatırlamışdır: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Heydər Əliyev və varisi İlham Əliyev arasında mənəvi-siyasi bağlılıq bu münasibətlərin ən yüksək zirvəsidir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində əbədiyaşar lider Heydər Əliyevin ideyalarının daim yaşadığını göstərərək belə qeyd edir: "Bu gün Heydər Əliyev bizimlə deyil, amma onun fiziki yoxluğu bizi ruhdan salmamalıdır. Onun ideyaları yaşayır, onun siyasəti yaşayır, onun fəlsəfəsi, azərbaycançılıq fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır, onun yolu ilə inkişaf edir. Hamımızın borcudur ki, biz doğma Vətənimizi onun yolu ilə irəliyə aparmalıyıq. Hamımızın borcudur ki, onun siyasətini yaşadaq, Azərbaycanı gücləndirək və onun istədiyi kimi, onun yolu ilə gələcəyə aparaq". Başqa bir çıxışda azərbaycançılıq məfkurəsini dövlətçiliyimizin ideoloji əsası kimi xarakterizə edərək demişdir: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır".

Şuşa şəhərində həyata keçirilən "Xarıbülbül" Musiqi Festivalında Heydər Əliyevin dilindən səsləndirilən "Arzu edirəm ki, sizinlə birlikdə Şuşaya gedək! İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür! Hər bir azərbaycanlı üçün iftixar nöqtəsidir! Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir! Şuşa hamı üçün əzizdir! Təkcə Şuşa yox, Laçın da bizim üçün əzizdir, biz heç vaxt Laçın dağlarısız yaşaya bilmərik! Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, İstisuyu, biz onlarsız yaşaya bilmərik, təsəvvür edə bilmərik!" sözləri dinləyən cənab İlham Əliyevin kövrələrək göz yaşlarını saxlaya bilməməsi məhz mənəvi bağlılığın təzahürüdür.

Heydər Əliyev şəxsiyyətini Birinci vitse-prezident Mehriban Əliyeva da yüksək qiymətləndirmişdir: "Heydər Əliyev 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran vətəndaş, şəxsiyyət, liderdir".

*Heydər Əliyevin ideyaları və böyük siyasəti xalqımızın gələcəyinin təməlidir! İnanırıq ki, Heydər Əliyevin ruhu şaddır! Ona görə ki, onun yarımçıq qalmış arzularını gerçəkləşdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan uğurlu gələcəyə doğru inamla addımlayır.*

**Sadiq QURBANOV,**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

1923 Azərbaycanın özü qədər əbədi 2022




Aşağı Köndələnçay su anbarının açılışı. Füzuli rayonu 1982-ci il.



# Azərbaycanda meliorasiya sisteminin bünövrəsini Heydər Əliyev qoymuşdur

"Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik" sözlərini tarixə yazmış Ulu Öndər Heydər Əliyev ölkə iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının inkişafında böyük əhəmiyyət kəsb edən meliorasiya və su təsərrüfatı kompleksinin yaradıcısı, müəllifi və təşkilatçısıdır.

Keçmiş Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran Heydər Əliyevin rəhbərliyi ilə yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Həmin illərdə respublikanın bütün bölgələrinin inkişafı, istehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin genişləndirilməsi sahəsində kompleks tədbirlər görülmüş, elmi-texniki tərəqqinin nailiyyətləri, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın keçmiş ittifaq miqyasında öncül mövqelərə çıxmasına, sosial-iqtisadi həyatında yüksəlişə təkan vermişdir.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəldiyi vaxtdan Azərbaycanın kənd təsərrüfatında, sənayesində, ümumiyyətlə, xalq təsərrüfatının bütün sahələrində xüsusi canlanma başlandı. Kənd təsərrüfatının inkişafı haqqında bir neçə tarixi qərar qəbul olundu. Bunlardan "Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi tədbirləri haqqında" (1970-ci il), "Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" (1975-ci il), "1976-1980-ci illərdə torpaqların meliorasiyası və meliorasiya olunmuş torpaqların istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" (1976-cı il) və "Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" (1979-cu il) qərarları xüsusi əhəmiyyət kəsb edirdi. Məhz bu qərarlar əsasında Azərbaycanda kənd təsərrüfatı istehsalının yüksəldilməsi və ixtisaslaşdırılması əsasında gələcək üçün respublika iqtisadiyyatının dinamik inkişaf proqramları qəbul olundu.

Meliorasiya və su təsərrüfatının respublikamızın iqtisadiyyatının, xüsusilə kənd təsərrüfatının inkişafında mühüm rolu olmasını ilk gündən böyük uzaqgörənliklə müəyyən edən Heydər Əliyev bu sahəyə əsaslı vəsait qoyulmasını ittifaq hökuməti qarşısında bir vəzifə kimi qoydu. Nəticədə 1971-1975-ci illərdə meliorasiya işlərinə 580 milyon manatdan artıq vəsait xərcləndi ki, bu da 1966-1970-ci illərdə olduğundan iki dəfə çox idi. Bu müddətdə 23,5 min hektar yeni suvarılan torpaqlar istifadəyə verilmiş, 156,8 min hektar suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 88 min hektar sahədə torpaqların yuyulması, o cümlədən 48 min hektarda əsaslı yuma, 110,3 min hektar sahədə suvarma şəbəkələrinin yenidən qurulması və su təchizatının yaxşılaşdırılması, 133,2 min hektar sahədə hamarlama işləri aparılmış, 248,6 min hektar qış otlaq sahələrində su təminatı sistemləri inşa edilmişdir.

1976-1982-ci illərdə də Heydər Əliyevin səyi nəticəsində su təsərrüfatı və meliorasiya tikintisi, torpaq fondunun sağlamlaşdırılması və suvarma-drenaj sistemlərinin yenidən qurulması sahəsində aparılan işlərin miqyası daha da genişləndirildi. Bu illərdə meliorasiya tədbirlərinə yönəldilən vəsaitin həcmi 1971-1975-ci illərdəkinə nisbətən 2,4 dəfə artdı və 1 milyard 382 milyon manata çatdı, 1,2 milyard manata yaxın əsas fondlar işə salındı, 89,6 min hektar yeni suvarılan torpaqlar istifadəyə verildi, 605 min hektar sahədə suvarma sistemləri yenidən quruldu, 137 min hektar ərazidə torpaq sahələri meliorativ cəhətdən yaxşılaşdırıldı, 274,4 min hektar sahədə əsaslı hamarlama işləri aparıldı. Ümumiyyətlə, Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi ilk dövrdə (1969-1982-ci illər) meliorasiya və su təsərrüfatı kompleksinə 2,5 milyard manatdan artıq vəsait yönəldilmişdir ki, bu da sovet hakimiyyəti dövrünün 50 ili ərzində qoyulan vəsaitdən 2 dəfədən artıq idi. Həmin vəsait hesabına 200 min hektara yaxın yeni suvarılan torpaqlar kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 400 min hektara yaxın suvarılan torpaqların meliorativ vəziyyəti, 825 min hektar sahədə su təminatı yaxşılaşdırılmış, 460 min hektar sahədə əsaslı hamarlama və 150 min hektara yaxın sahədə əsaslı yuma işləri aparılmış, texniki cəhətdən mükəmməl meliorasiya və irriqasiya sistemləri yaradılmışdır. Bu dövrdə uzunluğu 20 min kilometrə yaxın olan suvarma kanalları, 15 min kilometrdən çox kollektor-drenaj şəbəkəsi, 350 nasos stansiyası, 4 min subartezian quyusu tikilib istifadəyə verilmiş, ümumi həcmi 3 milyard kubmetr olan su anbarları inşa edilmişdir.

Respublikada kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına meliorasiya və su təsərrüfatı sahəsini inkişaf etdirmədən müvəffəq olmağın mümkünsüzlüyünü göstərən Ulu Öndərin bu sahəyə xüsusi diqqət yetirməsi və həyata keçirilən böyük tədbirlər nəticəsində kənd təsərrüfatı sahəsində böyük nailiyyətlər əldə olunmuşdur. Belə ki, 1970-ci ilə nisbətən 1980-ci ildə Azərbaycanda taxıl istehsalı 2,1, pambıq 2,6, üzüm 4,6, tərəvəz və tütün 2,3, meyvə 4,4, çay yarpağı 2,2, mal-qara və quş əti 1,4, süd istehsalı 1,8 dəfə artmışdır.

Təəssüf ki, 1987-ci ildən sonra respublikanın iqtisadiyyatında yaranmış ağır vəziyyətlə əlaqədar büdcə vəsaitinin çatışmazlığı üzündən dövlət əhəmiyyətli sistemlərin istismarında ciddi çətinliklər yaranmış, bir sıra mühüm əhəmiyyətli su təsərrüfatı kompleksləri qəzalı vəziyyətə düşmüşdür. Tikinti işləri demək olar ki, dayandırılmışdır. Meliorasiya və su təsərrüfatının maddi-texniki bazası da xeyli zəifləmişdir. Odur ki, yaranmış vəziyyətdən çıxmaq, su təsərrüfatını tədricən öz xərclərini ödəməyə keçirməklə sudan istifadənin səmərəliliyini yüksəltmək, meliorasiya və irriqasiya obyektləri üzərində mülkiyyət münasibətlərini təkmilləşdirmək və sahənin gələcək inkişafına xarici investisiyaların cəlb edilməsini təmin etmək məqsədilə müvafiq islahatların keçirilməsi olduqca vacib idi.

Amma yalnız Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə meliorasiya və su təsərrüfatı öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Bu sahəyə diqqət və dövlət dəstəyi bərpa olundu, mövcud meliorasiya potensialının dağılmasının qarşısı alındı, ondan daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Ardınca aqrar islahatın bir hissəsi olaraq meliorasiya və su təsərrüfatı sahəsində islahatların torpaq islahatı ilə birlikdə, kompleks şəkildə aparılması nəzərdə tutuldu. İslahatların normativ-hüquqi bazası yaradıldı. Bu məqsədlə 30-dan artıq normativ-hüquqi sənəd hazırlandı. Bu sənədlərdən ən mühümü 1996-cı ildə təsdiqlənmiş "Meliorasiya və irriqasiya haqqında" qanundur. Bu qanunla meliorasiya və irriqasiya sahəsində fəaliyyətin əsas istiqamətləri və prinsipləri, meliorasiya və irriqasiya obyektlərinin mülkiyyət hüququ müəyyənləşdirildi. Qanun meliorasiya və irriqasiya sahəsində dövlət idarəçiliyinin əsaslarını, meliorasiya və irriqasiya tədbirlərinin aparılma qaydalarını müəyyən etdi.

Ulu Öndərin təşəbbüsü ilə Azərbaycana qoyulan xarici investisiyalar ilk növbədə meliorasiya və su təsərrüfatı sahəsinə yönəldildi. Xarici investisiyaların səmərəliliyini təmin etmək məqsədilə tikintisi yarımçıq qalmış 150 obyektdən ölkə üçün mühüm əhəmiyyət kəsb edən 11 obyekt seçildi və onlardan iqtisadiyyatımız üçün ən vacib olan üç obyektin - Baş Mil-Muğan kollektorunun tikintisinin, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının və Naxçıvan Muxtar Respublikasında Vayxır su anbarının tikintisinin birinci növbədə maliyyələşdirilməsi qərara alındı. Ümummilli Lider Heydər Əliyevə islam dünyasının böyük hörmətinin və ehtiramının təsdiqi olaraq, İslam İnkişaf Bankının rəhbərliyi Baş Mil-Muğan kollektorunun tikintisinin davam etdirilməsinə güzəştli kredit və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması sxeminin hazırlanmasına əvəzsiz olaraq vəsait ayırdı. Bundan əlavə, Heydər Əliyevin yaxından köməyi sayəsində Dünya Bankının krediti ilə 2003-cü ildə Baş Mil-Muğan kollektorunun 28,5 kilometr uzunluğunda 3-cü buraxılış kompleksinin tikintisinə başlanıldı.

Samur-Abşeron suvarma sistemi ölkəmizin şimal bölgəsinin, eləcə də Bakı, Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının yaşayış məntəqələrini, kənd təsərrüfatı və sənaye müəssisələrini içməli, suvarma və texniki su ilə təmin edən irimiqyaslı kompleks su təsərrüfatı obyektidir. Hazırda bu sistem respublikanın şimal bölgəsinin 150 min hektara yaxın torpaq sahəsinin suvarma suyuna və Bakı, Sumqayıt şəhərlərinin, habelə Abşeron yarımadasının içməli, suvarma və texniki suya olan tələbatının 60 faizini təmin edir. Amma uzun müddət ərzində suya daim artan ehtiyacı ödəmək məqsədilə Samur-Abşeron magistral kanalı fasiləsiz olaraq, əsaslı təmirə dayanmadan istismar olunurdu. Bunun nəticəsində kanalın beton örtüyü dağılıb hissə-hissə sıradan çıxmış, qurğuların bir hissəsi funksiyasını itirmiş, su itkisi artmışdı. Odur ki, Heydər Əliyevin tapşırığına əsasən, bu problemin həlli yolları araşdırılmış və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması ilə bağlı təxirəsalınmaz tədbirlərin işlənib həyata keçirilməsi təklif olunmuşdur.

Sxemin birinci mərhələsində Samur çayı üzərində baş sugötürücü qurğunun və Samur-Abşeron kanalının Vəlvələçaya qədər olan hissəsinin yenidən qurulması, Xanarx kanalının, Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan kanallarının və Taxtakörpü su anbarının tikintisi nəzərdə tutulurdu. İqtisadi səmərəlilik baxımından bu layihə çox sərfəlidir. Təkcə suyun öz axını ilə Ceyranbatan gölünə ötürülməsi nəticəsində Sitalçay və Ceyranbatan nasos stansiyalarının ləğv edilməsi ilə ildə 167 milyon kilovat/saat elektrik enerjisinə qənaət edilməsi mümkün olmuşdur.

Vayxır su anbarının inşasına 1983-cü ildə başlanılmış, lakin 1995-ci ildən maliyyə vəsaitinin olmamasına görə tikinti işləri yarımçıq dayandırılmışdır. Ulu Öndər 2002-ci ildə Naxçıvan Muxtar Respublikasında olarkən, onun su anbarının istismara verilməsi barədə göstərişindən sonra dövlət büdcəsindən ayrılmış vəsait hesabına Türkiyənin tikinti şirkətləri tərəfindən bu obyektin tikintisi başa çatdırılmışdır.

Bu gün Heydər Əliyevin siyasi xətti və ideyaları Prezident İlham Əliyev tərəfindən layiqincə və uğurla davam etdirilir. 2003-cü ildən ötən dövr ərzində də ölkədə meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, tələb olunan həcmlərdə təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işlərinin davam etdirilməsi və digər sahələrdə müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, bütün maliyyə mənbələri hesabına 2004-2021-ci illərdə 4,6 min kilometr uzunluğunda suvarma kanallarının, 3,4 min kilometr uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidənqurulması və bərpası, 483 min hektar sahədə torpaqların su təminatının və 307 min hektar sahədə meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yerinə yetirilmiş, 204 min hektar yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir. Mövcud torpaq mühafizə bəndlərinin 800 kilometrdən artıq hissəsi əsaslı surətdə hündürləşdirilmiş və möhkəmləndirilmiş, çaylarda sel və daşqınlara qarşı 203 kilometr mühafizə tədbirləri həyata keçirilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 3061 subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Ümumi sututumu 456 milyon kubmetr olan 4 su anbarı (Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə) tikilmiş, ümumi sututumu 15,5 milyon kubmetr olan 3 su anbarı isə (Pirsaatçay, Zoqolovoçay, Ləvain) təmir-bərpa edilmişdir.

Prezident İlham Əliyevin ölkədə taxılçılığın, pambıqçılığın, tütünçülüyün, baramaçılığın və digər sahələrin inkişafı, eləcə də aqroparkların və iri təsərrüfatların yaradılması ilə əlaqədar verdiyi tapşırıqların icrası olaraq ASC meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sahələrin genişləndirilməsi, sel və daşqın sularına qarşı mübarizə və digər istiqamətlərdə əvvəlki illərdə olduğu kimi, 2021-ci ildə də fəaliyyətini davam etdirmişdir.

Aqroparkların, iri taxılçılıq, pambıqçılıq və digər təsərrüfatların yaradılması məqsədilə Şəmkir maşın kanalının nasos stansiyasının suvermə qabiliyyətinin artırılması və onun birinci növbəsinin təmir-bərpası üzrə 3775 p/m basqılı boru kəmərinin 1202 p/m hissəsinin quraşdırılması işləri yerinə yetirilmişdir. Basqılı boru kəmərinin trassasında qrunt sularının kənarlaşdırılması üçün drenaj şəbəkəsi qurulmuşdur. Goranboy rayonunun 6955 ha (ondan su təminatının yaxşılaşdırılması - 5373 ha, yeni suvarılan sahələr - 1582 ha) torpaq sahəsinə suvarma suyunun verilməsi üçün Şəmkir maşın kanalının II növbəsinin zonasında 15413 p/m uzunluğunda beton üzlüklü təsərrüfatlararası paylayıcı kanalların tikintisi üzrə işlər aparılmışdır. Arazın yeni qol kanalının sol sahilində yerləşən 9461 ha yeni torpaq sahəsinin suvarılması üçün 9506 p/m uzunluğunda dəmir-beton üzlüklü paylayıcı kanalların və 12000 p/m qəza sutullayıcı kanalın qurğularla birlikdə tikintisi üzrə işlər başa çatdırılmışdır. Sabirabad rayonunun 3500 ha qış otlaq sahəsinin meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün 25335 p/m qapalı suyığıcılar və 108032 p/m qapalı drenlər tikilmişdir.

Yevlax rayonunda Aqroparka məxsus 2960 ha torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi işlərinin tamamlanması ilə əlaqədar 100 min kubmetr həcmində ehtiyat su hovuzunun tikintisi, nasos stansiyasının mexaniki və elektrik avadanlıqlarının quraşdırılması, xarici elektrik təchizatı və 13114 p/m basqılı boru kəmərinin çəkilməsi üzrə işlər görülmüşdür. Şəki və Oğuz rayonları ərazisində yaradılacaq Aqroparkın 12300 ha torpaq sahəsində meliorativ tədbirlərin aparılması üçün 4820 p/m uzunluğunda qapalı kollektor və suyığıcıların qurğularla birlikdə tikintisi üzrə işlər aparılmış, Ağsu rayonunun 3860 ha (ondan 560 ha yeni suvarılan sahə) torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üçün Qazanarx kanalının 3775 p/m hissəsinin yenidən qurulması ilə əlaqədar tədbirlər həyata keçirilmişdir.

Ağstafa rayonunun Muğanlı kəndinin 1496 ha torpaq sahəsinin su təminatının yaxşılaşdırılması üçün 4150 p/m dəmir-beton paylayıcı kanalların və Qazax rayonunun İkinci Şıxlı kəndinin 865 ha sahəsinin su təminatının yaxşılaşdırılması üçün I pillə nasos stansiyasının, 4006 p/m basqılı boru kəmərinin, 16172 p/m uzunluğunda paylayıcı boru kəmərlərinin tikintisi işləri həyata keçirilmişdir. Abşeron yarımadasında kənd təsərrüfatına yararlı əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Abşeron magistral kanalının 256 p/m-lik hissəsi qurğularla birlikdə yenidən qurulmuş, novvari kanalın 208 p/m və kanalın Binə qəsəbəsi ərazisində qapalı şəkildə olan 885 p/m hissəsinin tikintisi tamamlanmışdır.

Prezidentin müvafiq sərəncamı ilə 38 şəhər və rayonun 177 yaşayış məntəqəsində 3600 ha (ondan 450 ha yeni suvarılan sahə) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 200 subartezian quyusunun layihə-smeta sənədləri hazırlanaraq qazma işləri həyata keçirilmişdir. Eyni zamanda 2020-ci ildən qalan 71 subartezian quyusunda qazma işləri tamamlanaraq istismara verilmişdir. Eyni zamanda Hacıqabul rayonu ərazisində Aqroparka məxsus torpaq sahəsinə Kür çayından nasos stansiyası vasitəsi ilə suvarma suyunun çatdırılması məqsədilə layihə sənədləri hazırlanaraq tikinti işlərinə başlanılmış, sel və daşqın təhlükəli çaylarda sahilbərkitmə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri üzrə isə Balakən, Qax, Şəki, Qəbələ, Quba, Xaçmaz, Ağcabədi və Lənkəran rayonlarının ərazisindən keçən çaylarda ümumilikdə 1863 p/m uzunluğunda istinad divarları tikilmişdir.

Bunlardan əlavə, işğaldan azad olunmuş ərazilərdə yerləşən su anbarlarının (Suqovuşan, Xaçınçay, Köndələnçay - 3 ədəd) və magistral kanalların təmir-bərpası üçün layihə sənədləri hazırlanmış, Tərtərçay, Həkəriçay və Bərgüşadçay su anbarları kompleksinin su ehtiyatlarının istifadəsi üzrə layihə-axtarış, topoqrafiya, geodeziya və ilkin konseptual layihə işlərinin görülməsinə başlanılmışdır. Ümumilikdə ASC tərəfindən 2021-ci ildə icra olunmuş layihələr hesabına 9,5 min hektar sahədə torpaqların su təminatı və 3,5 min hektar sahədə meliorativ vəziyyəti yaxşılaşdırılmış, 2,1 min hektar yeni torpaq sahəsi suvarma suyu ilə təmin edilmişdir.

Ölkəmizdə su ehtiyatlarından daha səmərəli istifadə edilməsi məqsədilə qabaqcıl dünya ölkələrinin təcrübələrinin tətbiqi üzrə də işlər aparılır. Bu istiqamətdə İsrailin "Mekorot" milli su şirkəti ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC arasında suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, müasir suvarma üsullarının tətbiqi ilə suya qənaət potensialının qiymətləndirilməsi, su təsərrüfatının iqlim dəyişikliklərinə uyğunlaşdırılması, meliorasiya obyektlərinin planlaşdırılması, layihələndirilməsi, yenidən qurulması və tikintisi üçün müasir su təchizatı texnologiyalarını tətbiq etmək məqsədi ilə məsləhət xidmətləri müqaviləsi imzalanmışdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü" və "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə cari ildə səhmdar cəmiyyəti tərəfindən Araz çayının yeni qolundan suyun yeni suvarılacaq torpaq sahələrinə verilməsi üçün paylayıcı kanalların tikintisi, Ağsu rayonunun əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Qazanarx kanalının yenidən qurulması, Qazax rayonunun Xanlıqlar, Kəmərli, Aslanbəyli Qaymaqlı və İkinci Şıxlı kəndlərinin əkin sahələrini su ilə təmin etmək məqsədilə su nasos stansiyalarının və yeraltı suvarma şəbəkələrinin bərpası (İkinci Şıxlı təsərrüfatı üzrə), Şəmkir maşın kanalının nasos stansiyasının suvermə qabiliyyətinin artırılması və onun I növbəsinin təmir-bərpası, Şəmkir maşın kanalının II növbəsinin zonasında təsərrüfatlararası paylayıcı kanalların layihələndirilməsi və tikintisi, Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorativ tədbirlərin aparılması, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması (Hacıqabul rayonu üzrə), Azərbaycan Respublikasının rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının layihələndirilməsi və qazılması, sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri, Həkəriçay və Bərgüşadçay su anbarlarının texniki-iqtisadi əsaslandırmalarının və layihə sənədlərinin hazırlanması, Suqovuşan (5,2 km magistral kanalla birlikdə), Xaçınçay (7 km uzunluğunda kanalla birlikdə), Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay-2 su anbarlarının təmir və bərpası, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının işğaldan azad olunmuş ərazilərində meliorasiya və su təsərrüfatı kompleksinin bərpası və inkişafı üzrə texniki-iqtisadi əsaslandırmanın və layihə sənədlərinin hazırlanması,Tərtərçay Sol Sahil kanalının yenidən qurulması, Qız qalası su anbarından magistral kanalın tikintisinin texniki-iqtisadi əsaslandırmasının və layihə sənədlərinin hazırlanması və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Bu tədbirlərin həyata keçirilməsi ilə suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılmasına, yeni suvarılan torpaqların istifadəyə verilməsi nəticəsində ölkə əhalisinin daxili istehsal hesabına çörək və ərzaq məhsulları ilə etibarlı təminatına, yaşayış məntəqələrinin, əkin sahələrinin, hidrotexniki qurğuların və digər infrastruktur obyektlərin sel və daşqın sularının zərərli təsirlərindən mühafizəsinə, çayların su ehtiyatlarının nizamlanması hesabına onlardan daha səmərəli istifadə edilməsinə geniş imkanlar yaranacaqdır.

*Prezident İlham Əliyev tərəfindən ölkə melioratorlarının əməyinə və sahənin roluna verilən yüksək qiymət bizi daha böyük məsuliyyətlə işləməyə və yeni nailiyyətlər qazanmağa sövq edir. Bu böyük diqqət və qayğıkeşliyə cavab olaraq kollektivimiz mövcud meliorasiya və irriqasiya sistemlərinin qorunub saxlanılması, lazımi səviyyədə istismarının həyata keçirilməsi, təmir-bərpa işlərinin təşkili sahəsində qarşıya qoyulmuş tapşırıqları tam məsuliyyəti ilə dərk edərək onların vaxtında və layiqincə yerinə yetirilməsi üçün bundan sonra da bütün bacarıq və imkanlarından istifadə edəcək, daha səylə çalışacaq, ölkə əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatında üzərlərinə düşən vəzifələri şərəflə yerinə yetirəcəklər.*

**Zaur MİKAYILOV,**
***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri***

# Heydər ƏLİYEV: "Sahibkarlığın inkişafı bizim strateji yolumuzdur"



**Azərbaycanın gələcək taleyinin müəyyənləşdiyi çətin zamanda Heydər Əliyev hakimiyyətə qayıdışı ilə böyük xilaskar missiyasını yerinə yetirdi. Bununla da xalqımızın itirilmiş inamı özünə qaytarıldı, ölkənin yeni inkişaf dövrünün əsası qoyuldu, vətəndaş müharibəsinin qarşısı alındı, atəşkəsə nail olundu. Ulu Öndərin böyük qayıdışı nəinki Azərbaycanın XX yüzillikdə ikinci dəfə qazandığı müstəqilliyinin itirilməsinin qarşısını aldı, eyni zamanda ölkəmizi sabitliyə, davamlı inkişafa, sosial rifaha istiqamətləndirdi.**

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışının ilk illərində apardığı müdrik siyasət sayəsində iqtisadiyyatın inkişaf meyillərinin bərqərar olması ölkəyə investisiya axınının güclənməsi, yeni neft strategiyasının reallaşması ilə nəticələndi. "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" - prinsipinə əsaslanan Ulu Öndərin fəaliyyətinin ən mühüm, strateji əhəmiyyət daşıyan istiqamətlərindən biri bazar münasibətlərinə keçidin tələblərinə uyğun iqtisadi siyasəti reallaşdırmaq, ölkə iqtisadiyyatını böhrandan qurtarıb inkişaf yoluna çıxarmaq idi.

Tezliklə belə də oldu. Ulu Öndərin təşəbbüskarlığı, əzmkar fəaliyyəti Azərbaycanı inkişaf edən dövlətlər sırasına çıxardı. Onun rəhbərliyi altında ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək, əslində gələcəyin təməlini qoymuş oldu.

Heydər Əliyevin tarixi nailiyyətlərindən biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni - bir ictimai-iqtisadi sistemdən digərinə, yəni, iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir. Xüsusi mülkiyyətə geniş meydan açılması, sənaye və xidmət müəssisələrinin özəlləşdirilməsi, aqrar islahatlar, torpağın əvəzsiz olaraq kəndlilərə verilməsi və digər fundamental transformasiya proseslərini reallaşdırmaq kimi çətin vəzifələrin həlli Heydər Əliyevin adı ilə bağlıdır. Ümumiyyətlə, Heydər Əliyev prezidentliyi dövründə iqtisadiyyatın bütün sahələrində radikal islahatlar apardı və nəticədə iqtisadiyyatın dinamik inkişafı təmin edildi. Onun çoxşaxəli siyasəti ölkəyə tərəqqi və sabitlik gətirən dövlət strategiyasına çevrildi.

Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, Heydər Əliyev ölkənin iqtisadi müstəqilliyinin əsasını qoydu, bütün istehsal sahələrinin bərpası, habelə maliyyə vəziyyətinin yaxşılaşdırılması və xarici sərmayələrin cəlb olunması üzrə antiböhran proqramını işləyib hazırladı. Beynəlxalq neft şirkətləri ilə birlikdə, 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi" bağlandıqdan sonra Xəzərin digər karbohidrogen yataqlarının işlənilməsi ilə əlaqədar 30-dan çox saziş imzalandı ki, bu da Azərbaycana böyük həcmdə xarici sərmayənin qoyuluşuna imkan yaratdı.

Ulu Öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən iqtisadi inkişafın əsasını təşkil edən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilir. "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" - deyən Heydər Əliyev ölkənin gələcək iqltisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı.

Ümummilli Lider ilk illərdən ölkədə bazar münasibətlərinin formalaşması və inkişafı sahəsində sahibkarlığın əhəmiyyətini yüksək dəyərləndirmiş, onun təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətdə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa Dövlət Köməyi Proqramının (1997-2000-ci illər)" və "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı Dövlət Proqramının (2002-2005-ci illər)" həyata keçirilməsi təmin edilmişdir. Bu proqramlar ölkədə sahibkarlığın formalaşması və inkişaf modelinin əsasını yaratmışdır. Belə ki, qeyd olunan proqramlarda kiçik və orta sahibkarlığın hüquqi bazası yaradılmış, sahibkarlığın təşəkkülü və inkişafı üçün əlverişli mühit formalaşmış, sahibkarlığın səmərəli dövlət tənzimlənməsi təmin edilmişdir.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı böyük müdrikliklə nəzərə alan Ümummilli Lider milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı. Heydər Əliyevin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar verməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

Belə görüşlərə nümunə kimi 20 il bundan əvvəl - 2002-ci il aprelin 25-də yerli və mayın 14-də xarici iş adamları ilə keçirilən görüşləri göstərmək olar. Bu görüşlərdə sahibkarlığın inkişafı yolları araşdırılmış, inkişafına mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilmiş, növbəti illər üçün Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı dövlət proqramları təsdiq olunmuşdur.

Həmin dövrdən keçən 20 il ərzində Azərbaycanda iqtisadiyyatın dayanıqlığı üçün sahibkarlığın inkişafı prioritet istiqamət olaraq ölkə Prezidentinin diqqət mərkəzində olmuş və bu sahədə mühüm uğurlar əldə edilmişdir.

Məhz bu görüşlərin Azərbaycan sahibkarlığının inkişafında mühüm tarixi əhəmiyyətini, habelə ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, Prezident İlham Əliyev 21 aprel 2016-cı il tarixli sərəncamı ilə hər il aprelin 25-ni Azərbaycanda "Sahibkarlar günü" kimi təsis etmişdir. Ümumiyyətlə, Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını, intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir. Məhz bu səbəbdən müasir dünyamızın ən parlaq siyasi liderlərindən olan cənab İlham Əliyevin xalqın mütləq səsi ilə 2018-ci ilin aprel ayında növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu seçkidəki parlaq qələbə bizi müasir tariximizdəki ən böyük nailiyyətə yetirən böyük bir yolun başlanğıcı idi. Azərbaycan xalqı bu dəfə də öz müdrik seçimini edərək Prezident İlham Əliyevə göstərilən mütləq etimadın illərdən bəri torpaqlarımızın azadlığı uğrunda aparılan fədakar mücadilənin son mərhələsini də tamamlamağa şərait yaradacağına, bizi tarixi zəfərimizə qovuşduracağına bütün qəlbi ilə inandı və yanılmadı. Məlum olduğu kimi, son iki il Azərbaycan xalqı üçün çox əlamətdar olmuşdur. 44 günlük Vətən müharibəsində Prezident-Ordu-Xalq birliyi nəticəsində torpaqlarımız işğaldan azad olundu və Azərbaycanın ərazi bütövlüyü bərpa edildi.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş torpaqların bərpası istiqamətində böyük işlər görülür. İnsanların öz yurd-yuvalarına qayıtması üçün infrastruktur layihələrinin həyata keçirilməsi, bu torpaqlarda sahibkarlığın inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanması üçün mühüm tədbirlər həyata keçirilir. İlyarımdır ki, Azərbaycanda bütün addımlar postmüharibə dövrünün yeni reallıqlarına uyğun atılır. Qarabağ və Şərqi Zəngəzur minalardan təmizlənir, ərazidə yenidənqurma, tikinti-quruculuq işləri aparılır, infrastruktur yaradılır. Azərbaycan heç kimdən yardım almadan bu missiyanı da uğurla icra edir. Çox diqqətçəkən faktdır ki, Prezident mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə şəxsən nəzarət edir, müxtəlif yeni obyektlərin təməlini qoyur, hazır olan infrastruktur obyektlərinin açılışını edir. Prezident təkcə ötən il Qarabağa və Şərqi Zəngəzura 32 səfər çərçivəsində 21 obyektin açılışını etmiş, 37 təməlqoyma mərasimində iştirak etmişdir.

Cari il aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilmiş bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə dövlət başçısı öz çıxışında bildirmişdir: "Bir daha demək istəyirəm, müharibədən dərhal sonra apardığımız siyasət, beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, ikitərəfli formatda böyük dövlətlərlə əlaqələrimiz real nəticələr verir, Qarabağ və Şərqi Zəngəzurda baş verən inkişaf və hadisələr bu reallıqlara gətirib çıxarıb. Biz real işlərin tərəfdarıyıq və gələcəkdə bölgənin inkişafı ilə bağlı bizim çox aydın təsəvvürümüz var və öz məqsədlərimizə bundan sonra da çatmaq üçün bütün imkanlardan istifadə edəcəyik".

Prezidentin Ağdam rayonuna sonuncu səfəri zamanı iş adamlarına müraciət edərək onları həm Ağdama, həm də işğaldan azad edilmiş digər ərazilərə sərmayə qoymağa çağırdı. Azərbaycanda yeni biznes qurmaq və sahibkarlığın inkişafı üçün şəraitin yaradıldığını vurğulayan Prezident dedi: "Əlbəttə ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır. Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar".

Prezident aprelin 12-də keçirilən müşavirədə yekun nitqində də bir daha qeyd etdi ki, " Mən Ağdam və Cəbrayıl rayonlarında iki sənaye parkının təməlini qoymuşam. Yerli şirkətlər çox böyük maraq göstərirlər və mən əminəm ki, yaxın illərdə o parklar üçün nəzərdə tutulmuş çox böyük ərazi bəlkə çatmaya da bilər. Ona görə mən çox şadam ki, Azərbaycan sahibkarları böyük həvəslə, ürəklə bu işlərə qoşulurlar".

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası Prezidentin bu çağırışını dəstəkləyir və bildirir ki, iqtisadi siyasətimizin istiqamətlərini nəzərə alaraq azad edilmiş torpaqlarda sahibkarlığın inkişafı Böyük Qayıdışın daha tez bir vaxtda həyata keçirilməsinə böyük töhfə verəcəkdir. Konfederasiya öz imkanlarından istifadə edərək azad olunmuş torpaqlarda biznesin inkişafı, mövcud layihələrə xüsusi yanaşmaların tətbiq edilməsi və sahibkarların dövlətin dəstək tədbirlərindən yararlanması üçün təşkilati yardım göstərməyə hazırdır. Yeri gəlmişkən qeyd edək ki, artıq aqrar, təhsil, emal, mədənçıxarma, ticarət, turizm sahələrini əhatə edən investisiya təklifləri mövcuddur və bundan sonra təkliflərin icra mərhələsinə keçid etmək lazımdır.

İqtisadiyyat Nazirliyinin məlumatına görə, işğaldan azad edilmiş ərazilərimizdə biznes fəaliyyəti ilə məşğul olmaq üçün 28 ölkədən olan xarici şirkətlər dövlətimizə müraciət edərək 226 layihə təqdim etmişlər. Bu da səbəbsiz deyil. Dövlət Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında yerli və xarici sahibkarları bərpa-quruculuq işlərində dəstəkləmək üçün müxtəlif stimullaşdırıcı addımlar atır. Onlar da dövlətimizə inanaraq iri layihələrdə iştirak etmək barədə müraciət edirlər.

Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin qərarı ilə Qarabağda iş qurmaq istəyən ölkə sahibkarlarının təkliflərini toplamaq məqsədilə işçi qrupu yaradılmış və sahibkarların təqdim etdiyi 70-ə yaxın təklif hökumətə təqdim edilmişdir. Bununla bağlı artıq bir çox layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Bunlar "Yeni memarlıq", "Ağıllı şəhər", "Ağllı kənd", "Yeni iqtisadiyyat" və digər layihələrdir. Söz düşmüşkən vurğulayaq ki, aprelin 29-da ADA Universitetində keçirilmiş "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda Prezident İlham Əliyev öz çıxışında bir daha bildirmişdir: "Birinci "ağıllı şəhər" Ağdamda, "ağıllı kənd" isə Zəngilanda olacaq. Sonra biz onu Azərbaycanın digər ərazilərində də tətbiq edəcəyik".

Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir. Davamlı olaraq həyata keçirilən kompleks islahatlar, inzibati prosedurların sadələşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması tədbirləri və institusional dəstək mexanizmlərinin tətbiqi sahibkarlığın inkişafını daha da sürətləndirir, bütün regionları əhatə etməklə yeni istehsal və xidmət sahələri yaradılır, ölkəmizin rəqabətqabiliyyətli məhsul istehsalı imkanları genişlənir, özəl bölmənin ümumi daxili məhsulda və məşğulluqda xüsusi çəkisi artır.

Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində 2021-ci ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yer almışdır. Dünya Bankı tərəfindən Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilmiş, Heritic Fondunun 2021-ci ilin nəticələrinə əsasən elan etdiyi İqtisadi Azadlıq İndeksinə görə 178 ölkə arasında Azərbaycan 38-ci pilləyə yüksəlmişdir.

Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Bu təsirləri zərərsizləşdirmək isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür. Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək təmənnasızlıqla həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ülu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır.

Xeyirxahlığına, diqqət və qayğısına görə hər kəsin məhəbbətini qazanmış Mehriban xanımın ölkəmizin siyasi və iqtisadi həyatındakı rolu, mühüm xidmətləri danılmazdır. Onun fəaliyyət dairəsi çoxşaxəli olmaqla həyatımızın bütün sahələrinə əsaslı şəkildə təsir edir. Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olduğu müddətdə öz zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün dünyada yüksək nüfuz, dərin ehtiram qazanmış, Azərbaycanın inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırılmasının qarşıda duran ən başlıca məqsəd olduğunu bəyan etmişdir.

Azərbaycan sahibkarları Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sahibkarlığın inkişafına verdiyi töhfəni yüksək dəyərləndirirlər. Belə ki, son illərdə ölkədə qadın sahibkarların sayı əhəmiyyətli dərəcədə artmışdır ki, bu işdə Mehriban xanımın rolu danılmazdır. Ölkədə qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması ilə nəticələnir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini qurur, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminarlar, konfranslar keçirir və sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində mütəmadi iş aparır.

Azərbaycan hökuməti, Azərbaycan Həmkarlar Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi, bir sıra əmək və sosial-iqtisadi məsələlərin həlli istiqamətində birgə tədbirlər həyata keçirirlər. Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2020-2022-ci illər ücün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyət istiqamətlərini müəyyən edən Baş Kollektiv Saziş imzalanmış, bu sahədə müvafiq işlər həyata keçirilir.

Bunlarla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlara müvafiq olaraq, Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edir və bunun nəticəsində yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar ilə işgüzar əlaqənin yaradılmasında və sahibkarlığın inkişaf məqsədi ilə investisiya qoyuluşunda onlara müvafiq şərait yaradır.

Konfederasiya ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir, bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Bu gün hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı tədbirlər davam etdirilməli və onlar bir sahibkar olaraq bu işdə yaxından iştirak etməlidirlər. Bütün müharibə dövründə ölkə başçısının ətrafında sıx birləşərək "Dəmir yumruğ"un bir parçası olmağı bacarmış Azərbaycan sahibkarları Qarabağın yenidən firavanlığına qovuşması, işğaldan azad olunmuş torpaqların iqtisadi cəhətdən dirçəlməsi naminə səylərini daha da gücləndirirlər.

Bütün yuxarıda göstərilənləri təhlil edərək belə bir məntiqi nəticəyə gəlmək olar ki, Heydər Əliyev yolu - müstəqil Azərbaycan dövlətinin və xalqımızın əbədiyyət yoludur. Prezident İlham Əliyev həmin parlaq yolun və böyük gələcəyin qüdrətli təminatçısıdır. Ulu Öndərin xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətlərindən biri də onun yolunu davam etdirməyə, ideyalarını daha da zənginləşdirib həyata keçirməyə qadir olan İlham Əliyev kimi yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən bir siyasətçinin yetişdirməsi idi. Ulu Öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 19 ildə ölkə iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı dünya birliyinin diqqət mərkəzində olmuşdur.

Heydər Əliyevin gələcək üçün nəzərdə tutduğu iqtisadi ideyalar və arzular artıq gerçəkliyə cevrilmiş, bütün mənalı həyatını öz xalqına bəxş etmiş dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəciliyi məktəbinə cevrilmişdir. Azərbaycan xalqının hələ necə-necə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqlar.

*Buna görə də əminliklə deyə bilərik ki, istər çağdaş Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyevin adı müstəqil və suveren dövlətin banisi, dahi siyasətçi, misilsiz şəxsiyyət, cəsur insan, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi və əbədiyaşarlıq hüququ qazanmış ən böyük vətəndaş - Azərbaycanlı kimi əbədi həkk olunub. Və bu ad əsrlər boyu qalacaq, hər zaman dərin hörmətlə, ehtiramla anılacaq.*

**Məmməd MUSAYEV,**
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

1923 *Azərbaycanın özü qədər əbədi* 2022

Vətən müharibəsində qazandığımız zəfər milli dövlətçilik salnaməmizdə həm də ona görə müstəsna əhəmiyyətə malikdir ki, bu böyük qələbə yeni-yeni möhtəşəm tarixi günlərimizə vəsilə olur, qürurun ardınca qürur gətirir. Qələbəmizin simvolu olan Şuşada - mədəniyyət paytaxtımızda Dünya Azərbaycanlılarının V Qurultayının keçirildiyi əlamətdar gün də dünyanın ən müxtəlif məkanlarında yaşayan həmvətənlərimizin milli yaddaşına fəxarət hissi kimi əks olundu. Bu möhtəşəm tədbir tarixə dünya azərbaycanlılarının Zəfər qurultayı kimi yazıldı.

# Zəfər qurultayı

## Heydər Əliyev ideyalarının təntənəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultaydakı proqram xarakterli nitqi ilə dünyadakı bütün soydaşlarımıza gələcəyə doğru aydın istiqamət verdi. Dünya azərbaycanlılarını şəxsiyyətinin qüdrəti ilə Azərbaycan maraqları ətrafında daha da sıx birləşdirdi.

### Qalib xalq - Müzəffər Komandan

Bu qurultayın məhz Şuşada keçirilməsi böyük rəmzi məna kəsb edir. Əvvəla Azərbaycanın tarixi zəfəri bütün dünya azərbaycanlılarının qələbəsidir. 44 günlük müharibə zamanı hər bir soydaşımızın ürəyi qəlbən, ruhən doğma torpağı ilə döyünürdü. Tarixi Vətən qarşısındakı mənəvi məsuliyyətini duyan yurddaşlarımız qələbəyə töhfə verməyə çalışırdı. Bu da təbii idi. Çünki Azərbaycanın kədəri bütün soydaşlarımızın ümumi kədəri, sevinci ortaq sevincidir.

Həmin tarixi anlarda dünya bizə baxırdı, hamının nəzəri Azərbaycanda idi. Birinci Qarabağ müharibəsindəki məğlubiyyətimiz, yaşadığımız faciələr həmvətənlərimiz üçün də müəyyən nisgillik, komplekslər yaratmışdı. İstəsək də, istəməsək də, məğlubiyyət sıxıntısından qurtula bilmirdik. Bu onilliklərdə ən böyük arzumuz Azərbaycanın itirilmiş torpaqlarının azadlığı, milli qürurumuzun bərpası idi. Müzəffər Ali Baş Komandan ordumuzun gücü ilə Azərbaycanın qələbəsini təmin etdi və milli qürurumuzu özümüzə qaytardı. Bizi bütün dünyaya qalib xalq kimi təqdim etdi. Vətənin zəfəri, misilsiz ruh yüksəkliyi bütün dünya azərbaycanlılarının qəlbini iftixar hissi ilə doldurdu, sarsılmazlığını, qətiyyətini yüksəltdi. Artıq beynəlxalq aləm Azərbaycanı indi daha həssaslıqla öyrənməyə başlayır. Dünya ölkəmizin yürütdüyü inkişaf siyasətindən, əldə etdiklərindən nəticə çıxarmağa daha meyilli görünür. Çünki Azərbaycan dövləti o qədər də uzun olmayan illər ərzində çoxlarının xəyal belə etmədiklərini gerçəyə çevirməyi bacarıb. Dövlətimiz regionda yeni reallıqlar yaradıb. Yeni maraqlar formalaşdırıb. Dünən üçün aktual olanlar bu gün artıq öz əhəmiyyətini itirməyə başlayır. Gələcəklə bağlı yeni strateji baxışlar müəyyənləşib. Bəşəriyyət, qlobal beyin mərkəzləri mövcud problemlərin həlli üçün yeni yollar axtarır. İnnovasiyalar, informasiya texnologiyaları, yaradıcı güc həyatımızı dəyişir. Qlobal iqtisadiyyat yeni imkanların axtarışına çıxır.

"Biz bu gün azad Qarabağda, azad Şuşada dünya azərbaycanlılarının qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır" deyən dövlət rəhbərimiz bir daha bəyan edir ki, bundan sonra xalqımız müzəffər xalq kimi, dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu həm Azərbaycan vətəndaşları, həm də dünyada yaşayan azərbaycanlılar üçün çox böyük xoşbəxtlikdir: "Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər".

### Zəfər ruhu

Bizə bu qələbəni Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Prezidenti İlham Əliyevin yetişdirib vətənpərvərlik ruhunda tərbiyə etdiyi gənclik qazandırdı. Bu, Azərbaycanın ən böyük nailiyyətlərindən biridir. Ürəyi yurd sevgisi ilə dolu, qürurlu, yüksək ruhlu, milli-mənəvi dəyərlərə yiyələnmiş, torpağına, xalqına bağlı gənclik. Onlar gözlərini açıb Azərbaycanı güclü, qüdrətli, mübariz, öz milli məqsədlərinə doğru addım-addım irəliləyən görüblər. Ölkəmizin nailiyyətlərini gündəlik həyat tərzi kimi yaşayıblar. Dövlətimizin varlığını, gücünü, dəstəyini, diqqət və qayğısını hər zaman hiss ediblər. Vətən, dövlət bu gənclik üçün sadəcə söz deyil, adi təsəvvür deyil. Bu, sarsılmaz inamdır, arzulara çatmaq üçün mənəvi və maddi güc mənbəyidir. Vətən evinin abadlığıdır, inkişafdır, dünyaya qovuşmaqdır, qlobal proseslərin güclü bir hissəsi olmaqdır. Azərbaycan gəncliyi bu dövlətdə, bu Vətəndə öz gələcəyini aydın görə bilir. Ona görə də Azərbaycanın inkişafına töhfə verməyə, Vətən naminə misilsiz fədakarlıqlar göstərməyə hər zaman hazırdır.

Qarabağı, Şərqi Zəngəzuru heç zaman görməyən, amma aparılan vətənpərvərlik tərbiyəsinin gücü ilə o torpaqları bütün ruhu ilə hiss edən Azərbaycan gəncliyi Ali Baş Komandanın əmri ilə silaha sarılıb torpaqlarımızı düşmən tapdağından azad etdi. Üçrəngli bayrağımızı azadlığına qovuşmuş yurdlarımızda qaldırdı.

Azərbaycanın müstəqilliyi dövründə, Ümummilli Lider Heydər Əliyevin siyasi irsi işığında, azərbaycançılıq ideyasının təsir gücü ilə formalaşan bu gəncliyə Azərbaycan Prezidenti öz qətiyyəti, mətinliyi, xalqımızın milli maraqlarından bir addım da olsun geri addım atmaması ilə hər zaman şəxsi nümunə olub. Ali Baş Komandan İlham Əliyevin müəllifi olduğu tarixin ən qüdrətli Azərbaycanının verdiyi əminlik, inam, əzmkarlıq gənclərimizi qələbəyə, bu amal uğrunda fədakarlığa səsləyirdi. Şuşanın sıldırım qayalarından kəndirlə dırmanaraq yüngül silahlarla ermənilərin tankının, topunun üzərinə atılan, düşmənin başına od ələyən Azərbaycan gəncliyinin gücü, fədakarlığı bu ruhdan irəli gəlirdi.

Bu gün getdiyimiz bütün yolları Şuşaya qovuşduran Zəfər yolu, ölkəmizin müxtəlif guşələrində yaradılan və Azərbaycanın bu şanlı qələbəsini əks etdirən Zəfər muzeyləri də möhtəşəm tariximizi bizə xatırladır. Milli qürurumuzun miqyasını daha da böyüdür.

Ona görə də Azərbaycan Prezidenti çıxışlarında hər zaman bu məqama xitab edir. Zəfər ruhunun əhəmiyyətini, müzəffər bir xalq olmağın qürurunu diqqətə çatdırır. Dövlət başçısının Dünya Azərbaycanlılarının V Qurultayındakı çıxışı da bunun daha bir təcəssümü oldu.

### Ulu Öndərin amalları yerinə yetirilir

Şuşada keçirilən bu möhtəşəm tədbirin bir önəmli məqamı da vardı. Yada salaq ki, dünya azərbaycanlılarının ilk qurultayı 2001-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə keçirilmişdi. Ümummilli Lider bu qurultayda dərin məzmunlu çıxış etmişdi. Çıxışının mühüm bir hissəsində də Qarabağ problemi ilə bağlı fikirlərini soydaşlarımızla bölüşmüşdü. Bildirmişdi ki, Azərbaycan öz ərazi bütövlüyünü gec-tez bərpa edəcək. İşğal altındakı torpaqlarımız azad olunacaq. Azərbaycan xalqı öz əzəli-əbədi yurdlarına qayıdacaq. 21 il sonra Dünya Azərbaycanlılarının Şuşada keçirilən V Qurultayı Ulu Öndərin bu ümidinin, gələcəyə müdrik baxışının təntənəsi idi. Eyni zamanda bu gerçəklik bir daha öz təsdiqini onda tapdı ki, Heydər Əliyevin dövlətçilik amalları yerinə yetirilir. Bu böyük dövlət adamının yarımçıq qalmış arzuları həyata keçirilir. Azərbaycan Prezidenti bununla bağlı çıxışında dedi: "Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, Günəş də bizimlə həmrəydir".

İllərlə həsrətində olduğumuz, hər yeni şəkli rastımıza çıxanda nisgillə, kədər içində baxdığımız Şuşada dünya azərbaycanlılarının qurultayının keçirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yaratdığı, nail olduğu tarixi reallıqdır. 2003-cü ilin oktyabrında xalqın dəstəyi ilə Azərbaycanın rəhbəri seçildiyi, Prezident kimi xalq qarşısında and içdiyi ilk gündən torpaqlarımızın azadlığı onun üçün ən mühüm məsələ oldu. Azərbaycanın ərazi bütövlüyünün bərpası və postmünaqişə dövründə proseslərin ölkəmizin milli maraqlarına uyğun inkişaf etdirilməsi ölkə rəhbərinin həyata keçirdiyi siyasətin başlıca vəzifəsi kimi daim öndə tutuldu. Azərbaycan Prezidenti bu istiqamətdə ardıcıl, düzgün və məqsədyönlü siyasət həyata keçirdi.

Tarixi zəfərimizin təməlində Azərbaycanın güclü iqtisadiyyatı durur. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf xəttini Prezident İlham Əliyev ən yüksək səviyyəyə yetirdi. Azərbaycan sosial-iqtisadi inkişaf göstəricilərinə görə dünyanın öncül ölkələrindən biri kimi tanındı. Azərbaycanın bütün parametrlər üzrə iqtisadi müstəqilliyi təmin edildi. Güclü iqtisadiyyat ölkədə güclü ordunun qurulmasına imkan verdi. Azərbaycan dünyanın nümunəvi ordularından birini qurdu. Ölkəmizin malik olduğu maddi imkanlar, geniş xarici tərəfdaşlıq əlaqələri hesabına hərbi qüvvələrimiz ən təkmil silahlarla təchiz edildi. Vətən müharibəsi zamanı Azərbaycanın XXI əsrin innovativ müharibəsini aparması, qarşı tərəfdə mülki şəxslərə heç bir xətər yetirmədən məqsədlərinə nail olan və bu gün dünyanın aparıcı hərbi məktəblərində nümunə kimi öyrənilən döyüş əməliyyatlarının uğuru bunun sayəsində idi. Azərbaycan bununla müasir hərb, ləyaqətli müharibə nümunəsini ortaya qoydu. Böyük şəhərlərimizi ağır silahlarla, raketlərlə atəşə tutub yüzlərlə dinc sakinimizi qətlə yetirən Ermənistandan fərqli olaraq düşmənin yalnız hərbi obyektlərini hədəfə aldı. Cəmi 44 gün ərzində Ermənistan ordusunun 4-5 milyard dollarlıq hərbi texnikasını tamamilə məhv etdi. Ermənilərin öz orduları haqqında formalaşdırdıqları mif darmadağın oldu.

Orası da var ki, ordu hər nə qədər güclü və müasir silahlarla təchiz edilmiş sayılsa da, cəmiyyətdə milli birlik olmadan qələbə qazanmaq çətindir. Prezident İlham Əliyev Azərbaycan cəmiyyətində milli birliyi təmin etdi. Cəmiyyətimizdə formalaşan yeni siyasi mədəniyyət, müxtəlif məsələlər ətrafında fikir ayrılıqlarından, diskussiyalardan asılı olmayaraq Vətən maraqlarından söhbət gedəndə hamının bir araya gəlib yumruq kimi birləşməyi bacarması tarixi qələbəmizə öz töhfələrini verdi. Dövlətimizin rəhbəri eyni zamanda cəmiyyətdə yüksək vətənpərvərlik əhvali-ruhiyyəsi yaratmağa müvəffəq oldu. Bunu da məhz özünün şəxsi nümunəsi hesabına təmin etdi. Bu baxımdan böyük zəfərimiz Prezident İlham Əliyevin Azərbaycan xalqı qarşısında tarixi, misilsiz xidmətidir və aradan əsrlər keçəndən sonra da bu zəfər dövlət rəhbərimizin adı ilə xatırlanacaq.

### Sözlə əməlin vəhdəti

Tarixi zəfər dövlət başçısının şəxsiyyət olaraq sözübütövlüyünü, ideallarına, məqsədlərinə sadiqliyini, mətinliyini bir daha sübuta yetirir. Azərbaycan Prezidenti bütün çıxışlarında vurğulayırdı ki, xalqımız heç zaman işğalla barışmayacaq. Torpaqlarımızı nə yolla olursa-olsun azad edəcək. Heç bir təzyiq və təhdid qarşısında milli maraqlarımızda geri addım atılmayacaq. Prezident İlham Əliyev bunu dünya azərbaycanlılarının bundan əvvəlki qurultaylarındakı çıxışları zamanı da bəyan edirdi. Bu günün reallığı, dünya azərbaycanlılarının Şuşada keçirilən Zəfər qurultayı dövlət başçımızın sözü ilə əməlinin vəhdətini, vədində hər zaman qəti olmasını, üzərinə götürdüyü bütün öhdəlikləri həmişə yerinə yetirdiyini bir daha əyani şəkildə sübut etdi.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış bu zəfərin tarixi əhəmiyyəti son dərəcə böyükdür. Bu, təkcə bir xalqın silaha sarılaraq öz torpaqlarını mənfur qonşularından azad etməsi deyil. Azərbaycan təkcə Ermənistanla, dünya erməniliyi ilə deyil, həm də onların çox güclü himayədarları ilə mübarizədə qalib oldu. Ona görə də bu, misilsiz bir qələbədir. Bu qələbəni isə Azərbaycan Prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasət təmin etdi. Xarici ölkələrdə yaşayan milyonlarla soydaşımız da Azərbaycanın haqq işinə dəstək verdi. Səsimizi yaşadıqları ölkələrin ictimaiyyətinə çatdırdı.

Bu işin daim davam etdirilməsinə yenə də böyük ehtiyac var. Çünki müharibə başa çatsa da, Azərbaycana qarşı ərazi iddiaları hələ başa çatmayıb. Dünyada sayı getdikcə artan, sıraları genişlənən dostlarımızla yanaşı, bizə bədxah münasibət bəsləyənlər, Azərbaycanı zəif, çarəsiz görmək istəyən, başımızın böyük inkişaf hədəflərindənsə münaqişələrə qarışmasını arzulayanlar da az deyil. Onillərlə münaqişənin həlli istiqamətində heç bir irəliləyiş əldə etməyən, işğala son qoymaqdansa işğalı əbədiləşdirməyə çalışan ATƏT-in Minsk qrupunun yarıtmaz fəaliyyəti buna bir sübutdur.

### Yeni reallıqlar dövrü

Azərbaycan tarixi zəfəri ilə beynəlxalq reallıqları da dəyişdi. Postmüharibə dövrünün gerçəklikləri Azərbaycanın bu çətin sınaqdan da şərəflə çıxdığını və bütün dünyanın regionda yaranmış yeni reallığı qəbul etdiyini göstərir. Belə ki, aparıcı beynəlxalq təşkilatlar postmüharibə reallıqlarını qəbul edib. BMT Şuşada beynəlxalq tədbir keçirib. Avropa İttifaqı hazırda Azərbaycan-Ermənistan arasında normallaşma prosesində çox fəal iştirak edir. Bu gün danışıqlar prosesi Azərbaycan Prezidentinin irəli sürdüyü, Ermənistanın baş nazirinin də razılaşdığı 5 prinsip əsasında həyata keçirilir. Artıq ATƏT-in Minsk qrupu yoxdur. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, digər aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir və postmünaqişə reallıqlarını qəbul edirlər. Postmünaqişə reallıqları qonşu ölkələr tərəfindən də qəbul olunur. 3+3 formatında əməkdaşlıq platformasının yaranması da bunun bir təzahürüdür. Eləcə də dünyanın ABŞ, Böyük Britaniya kimi aparıcı ölkələrinin rəhbərlərinin Azərbaycan Prezidenti İlham Əliyevə göndərdikləri məktublarda onların yeni geosiyasi reallığı qəbul etdikləri və bu prizmadan fikir yürütdükləri aydın görünür.

Bir dəyişməz reallıq da var. Qarabağ, Şərqi Zəngəzur - zəfərimizin rəmzi olan Şuşa bizim əzəli-əbədi torpaqlarımızdır. Otuzillik işğal dövründə Ermənistan bu ərazilərdə inkişaf adına heç bir iş görə bilmədi. Əksinə, Şuşa da daxil olmaqla qurulu şəhərlərimiz, kəndlərimiz barbarcasına dağıdıldı, tar-mar edildi, geridə ancaq xarabalıqlar qaldı. Bütün bunlar da göstərir ki, ermənilər uydurduqları bütün saxta miflərə, həyasız iddialara rəğmən bu torpaqların onlara məxsusluğuna və Azərbaycan ərazilərini uzun illər ərzində əllərində saxlaya biləcəklərinə özləri də inanmayıblar. Ona görə də yalnız dağıdıcılıq və talançılıqla məşğul olublar. Azərbaycan dövləti isə bu gün azad yurdlarımızda həyata keçirdiyi quruculuq-bərpa tədbirləri ilə dünyaya tamam başqa gerçəkləri göstərir. Bu gerçəklərin ayrı-ayrı ölkələrin ictimaiyyətinə çatdırılması, dünyada Azərbaycanın müəllifi olduğu tarixi reallıqlar haqqında aydın təsəvvürün yaradılması, ölkəmizin regionda sülh, əməkdaşlıq, davamlı inkişaf arzusunun təqdim olunması isə dünyanın dörd bir yanında yaşayan soydaşlarımızın bir missiyasıdır. Zəfər qurultayının bir ali məqsədi də budur.

İnkişaf, quruculuq tərəfdarı olan ölkələrin sırasının genişlənməsi dünyanın xoşbəxt gələcəyinin zəmanətçisidir. Bu müqəddəs arzunun yolu isə yalnız sülhdən keçir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***



# Gənclərin böyük ustadı

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində vətən torpaqlarını 30 illik erməni işğalından azad edərkən yüzlərlə gəncimiz əbədiyyətə qovuşdu. Bu gün Vətən müharibəsinin ovqatını, ağrı-acısını, qələbə qürurunu özündə yaşadan hər hansı iştirakçı ilə söhbət edəndə onlar "bizdə yaralı oldu, qazi oldu, şəhid oldu, amma ölən olmadı" deyirlər. Bizim şəhidlərimiz yaralılardan da, qazilikdən də öndə görünən əbədiyaşarlıq - şəhidlik zirvəsinə yüksəldilər.

Bax, budur Ümummilli Lider Heydər Əliyevin gənclər siyasətinin uğurlu nəticələri! Budur bu siyasəti inamla davam etdirən Azərbaycan Prezidentinin dünyanın hərb tarixinə qızıl hərflərlə yazdırdığı zəfərin əsas qayəsi! Bax, budur dövlətin diqqət və qayğıkeşliyi sayəsində əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan gəncliyinin xalqa və milli dövlətçiliyə xidmət nümunəsi!

İnkarolunmaz faktdır ki, müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyev ölkəmizin milli dövlətçilik ənənələrinin və ərazi bütövlüyünün qorunmasında, respublikamızın ictimai-siyasi həyatında, habelə iqtisadi inkişafında misilsiz xidmətlər göstərməyə qadir Azərbaycan gəncliyindən ibarət etibarlı dayaqlar formalaşdırmışdır. Gənclərə diqqət və qayğıkeşlik mədəniyyətinə görə dünyada nadir tarixi şəxsiyyətlər sırasında adı çəkilən Heydər Əliyev hələ 1969-1982-ci illərdə -Azərbaycana birinci rəhbərliyi dövründə gənclər siyasətinin əsaslarını yaratmışdı. Həmin dövrdə Ulu Öndərin təşəbbüsü ilə 15000-dən çox azərbaycanlı gənc keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil almaq üçün göndərilmişdi. 1982-1985-ci illər ərzində bu say 3500-ə çatmışdı. Onların arasında respublikamızda yaşayan azsaylı xalqların övladları da var idi. Xatırladaq ki, təkcə 1969-1982-ci illərdə respublikamızdan 10 mindən çox gənc Rusiya, Ukrayna və digər ölkələrin tanınmış universitetlərində təhsil alaraq Azərbaycana qayıtmış, respublikamızın inkişafına xidmət göstərmişlər.

Respublika daxilində də savadlı, bilikli, geniş dünya görüşünə malik gənc kadrların yetişdirilməsi istiqamətində təhsil infrastrukturunun yenilənməsi, hərbi liseyin fəaliyyətə başlaması, ali və orta ixtisas təhsil müəssisələrində müxtəlif təyinatlı yeni ixtisasların açılması, idman infrastrukturunun yenidən qurulması gələcək Azərbaycan gəncliyinin formalaşmasına yönəlmiş mühüm addımlardan idi.

1988-1993-cü illərdə Azərbaycandakı xaos gənclər siyasətinə də ağır zərbə vurdu. Gənclərin potensialından lazımınca istifadə edilmir, onlar müxtəlif qruplaşmaların üzvlərinə çevrilir, təhsil müəssisələri dağılırdı. Məlum faktdır ki, Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra gənclərlə iş ölkədə prioritetlərdən birinə çevrildi. Ulu Öndər ölkənin tərəqqisini birbaşa gənclərin hərtərəfli inkişafı ilə bağlayırdı. Azərbaycanda ictimai-siyasi mühitin gərgin olduğu bir dövrdə Ümummilli Lider Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin etdi. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəldilən, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar imzaladı, dövlət proqramları gündəmə gətirildi və uğurla icra edildi. Ekspertlərin fikrincə, bu dövrdə qəbul edilən dövlət proqramları, qanunlar, imzalanan fərman və sərəncamlar gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı işlərlə məşğul olmalarına son dərəcə müsbət təsir göstərdi.

Zəngin idarəetmə qabiliyyətinə malik Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini cəmiyyətin prioritet vəzifəsi səviyyəsinə yüksəltdi. Ulu Öndərin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri də o idi ki, gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edir, onların imkan və bacarıqlarını yüksək qiymətləndirir, problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi diqqət yetirirdi. Ümummilli Lider gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə zəruri qayda və qanunların tətbiqinə böyük önəm verirdi.

Ulu Öndərin təşəbbüsü ilə 2 fevral 1996-cı ildə Azərbaycan gəncliyinin həyatında yeni dövrün təməli qoyuldu. Müstəqil Azərbaycanın tarixində həmin gün Ümummilli Liderin iştirakı ilə ölkə gənclərinin ilk forumu keçirildi. Bir il sonra ilk forumun iştirakçılarının bir qrupu ilə görüşən Ulu Öndər Heydər Əliyev əsas diqqəti ötən bir il ərzində görülmüş işlərin təhlilinə, gənclərlə bağlı əsas problemlərin həllinə yönəltdi. Böyük rəhbərin həmin gün imzaladığı sərəncamla fevralın 2-si ölkəmizdə Gənclər günü kimi qeyd olunmağa başladı. Bu, MDB və Şərqi Avropa ölkələri arasında ilk belə addım idi.

Bu gün arxaya baxdıqda görürük ki, ilk forumdan sonra müstəqil Azərbaycanda gənclərə olan münasibət kökündən dəyişib. Ötən illər ərzində gənclərin sosial problemlərinin həlli istiqamətində böyük işlər görülüb. Gənclərlə iş sahəsini genişləndirmək üçün imzalanmış "Dövlət gənclər siyasəti haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Gənc istedadlar üçün təqaüdlərin təsis edilməsi haqqında" fərmanlar, sərəncamlar, eyni zamanda qəbul edilmiş "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc ailə", "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu", "Gənclər siyasəti haqqında" proqramlar, qanunlar gənclərin fəaliyyətinə stimul verdi.

Dövlətin gənclər siyasəti bu gün Ümummilli Liderin layiqli davamçısı, dövlət başçısı İlham Əliyev tərəfindən yeni inkişaf mərhələsinə qaldırılıb. Gənclərin hərtərəfli inkişafı, mükəmməl təhsil alması, müxtəlif sahələr üzrə potensiallarının aşkar edilməsi, bacarıqlarının stimullaşdırılması üçün münbit şərait yaradılıb. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində fəal iştirakı ilə seçilir. Ölkə başçısının müvafiq sərəncamları ilə 2007-ci ilin "Gənclər ili", 2020-ci ilin "Könüllülər ili" elan edilməsi ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətindən və gənclərə qayğıdan xəbər verir. Bu diqqət və qayğının nəticəsidir ki, son illər gənclərimiz ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirak edir, mədəniyyət, elm və idman sahələrində böyük inamla irəliləyir, zəngin mədəni irsimizin qorunub saxlanması və inkişaf etdirilməsi yolunda mühüm addımlar atır, milli dəyərlərimizin yaşadılması və təbliği üçün əllərindən gələni əsirgəmirlər.

Azərbaycanda həyata keçirilən gənclər siyasəti gənc nəslin hərtərəfli inkişafı üçün şərait yaratmaqla yanaşı, onları vətənpərvər ruhda formalaşdırıb. Bu baxımdan 44 günlük Vətən müharibəsi Azərbaycan gəncinin vətənpərvərliyini, gücünü, əzmini bütün dünyaya nümayiş etdirdi. Gənclərimizin fəallığı sayəsində bütün sosial media platformalarında da düşmənə adekvat cavablar verildi.

Cəbrayıl və Zəngilan rayonlarında səfərdə olarkən Prezident İlham Əliyev Azərbaycan gəncini və onların müharibə dövründəki fəaliyyətini yüksək dəyərləndirərək deyib: "Biz qəlbində güclü Vətən sevgisi olan gənc nəsil yetişdirdik. Hətta torpaqlarını görməyən gənclər bir arzu ilə yaşayıb ki, ədalət bərpa olunsun və onlar öz doğma torpaqlarına qayıtsınlar". Dövlət başçısının bu sözləri gənc nəslin öz dövlətinə, Vətəninə nə qədər dərin duyğularla bağlı olmasından, ölkəmizdə gənclərlə əlaqəli aparılan mütərəqqi işlərdən xəbər verir.

Ölkəmizdə gənclərə qayğıkeşlik, dövlət səviyyəsində ictimai-siyasi dəstək Azərbaycan gəncliyinin inkişafına hesablanmış təməl prinsipinə çevrilib. Bütün bu işlərin həyata keçirilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti də danılmazdır. Azərbaycanın birinci xanımı milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin geniş təbliğinə, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrin dəstəklənməsinə, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişməsinə, dinindən və milliyyətindən asılı olmayaraq azərbaycanlı gənclərin beynəlxalq aləmdə nüfuzunun artmasına yönələn böyük layihələrə müəlliflik edir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Prezident Kitabxanasının "Heydər Əliyev. Elektron sənədlər toplusu" Ümummilli Liderin irsini öyrənənlər üçün ən zəngin internet resursdur

Dünyada mövcud olmuş dövlətlərin başçılarından yalnız bir qisminin adları tarixin yaddaşına qurucu və xilaskar kimi həkk olunub. Belə şəxsiyyətlərin həyatı və irsi daim öyrənilir və ondan nümunə götürülür. Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi qurucu və xilaskar dövlət başçısı olmuşdur.




İstər Sovet Azərbaycanı, istərsə də müstəqil Azərbaycanda hakimiyyətdə olduğu dövrlərdə Heydər Əliyev irsinin təhlili göstərir ki, o, həyatını öz xalqının təhsilinin, elminin, mədəniyyətinin və iqtisadiyyatının yüksəlməsinə həsr etmişdir. Onun çıxışları, nitqləri, müsahibələri təkcə həmin dövr üçün deyil, sanki həm də gələcək nəsillərin faydalanması və nəticə çıxarması üçün söylənmişdir.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının əməkdaşlarının hazırladıqları "Heydər Əliyev. Elektron sənədlər toplusu" resursu məhz Heydər Əliyev irsinin öyrənilməsinə və onun təbliğinə xidmət edir. Prezident Kitabxanasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99 illiyi ərəfəsində bu elektron resursun bölmələri yenilənib və Konfrans zalında geniş kitab sərgisi nümayiş etdirilir.

Prezident Kitabxanasından AZƏRTAC-a bildirilib ki, "Heydər Əliyev. Elektron sənədlər toplusu" 9 fəsil və 58 bölmədən ibarətdir.

Elektron sənədlər toplusunun "Ümummilli Lider" fəslinə "Bioqrafiya", "Rəhbərlik illəri", "Təltifləri", "Seçilmiş fikirləri", "Xatirəsinin əbədiləşdirilməsi" bölmələri daxil edilib.

Sənədlər toplusunun "Xronologiya (1923-2003)" fəslində Ümummilli Liderin 1923-1969, 1969-1982, 1983-1990, 1990-1993, 1993-2003-cü illəri əhatə edən həyat və fəaliyyətinin əsas məqamlarını özündə əks etdirən materiallar toplanılıb.

Elektron sənədlər toplusunda Ulu Öndərin irsi üç dövr üzrə qruplaşdırılıb. 1969-1982-ci illəri əhatə edən birinci dövrdə onun Sovet Azərbaycanına rəhbərlik etdiyi vaxt tariximizə və mədəniyyətimizə dair seçilmiş məruzə və çıxışları, 1989-1993-cü illəri əhatə edən ikinci dövrdə əsasən Naxçıvanda yaşadığı və işlədiyi illərə aid çıxışları, müsahibələri, 1993-2003-cü illəri əhatə edən üçüncü dövrdə isə Azərbaycan Respublikasının Prezidenti kimi AZƏRTAC tərəfindən yayılan çıxışları, nitqləri, müsahibələri, bəyanatları və müraciətləri ayrı-ayrı illər üzrə qruplaşdırılaraq internet istifadəçilərinə təqdim olunur.

1993-2003-cü illəri əhatə edən "Xarici siyasət fəaliyyəti" fəslinə "Xronologiya" və "Rəsmi sənədlərin biblioqrafiyası" (qanunlar, fərmanlar və sərəncamlar) bölmələri daxil edilib.

"Məşhur adamlar Heydər Əliyev haqqında" adlı fəsildə hələ sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyev haqqında dünyanın ən sayılıb-seçilən siyasətçilərinin və dövlət xadimlərinin fikirləri toplanılıb.

"Müstəqilliyimiz əbədidir. Elektron külliyyat" fəslinə Heydər Əliyevin əsərlərinin 46 cildinin elektron versiyaları daxil edilib.

"Biblioqrafiya" bölməsində kitabxananın fondunda olan Heydər Əliyevlə bağlı müxtəlif dillərdə 1200 adda kitabın və 27 avtoreferatın, 6550 qəzet və jurnal məqaləsinin biblioqrafik təsviri internet istifadəçilərinə təqdim edilir.

"Fotoqalereya"nın "Fotoalbom" bölməsində Heydər Əliyevin ömrünün müxtəlif məqamları, "Fotosənəd" bölməsində isə onunla bağlı müxtəlif sənədlərin surətləri əks etdirilir.

Elektron resurs son dövrdə Heydər Əliyev haqqında müxtəlif dillərdə çap olunan kitabların elektron versiyaları ilə də zənginləşdirilib. Həmçinin kitabxananın fonduna daxil olan qəzet və jurnallarda Heydər Əliyev haqqında dərc edilən 670 analitik və təhlili məqalələrin elektron versiyaları da elektron nəşrə əlavə edilib.

Kitabxananın layihələri içərisində ən çox müraciət olunan bu elektron resursdan indiyədək 40 minə yaxın istifadəçi faydalanıb.

Sənədlər toplusuna həm Prezident Kitabxanasının saytı *(www.preslib.az)*, həm də ayrıca subdomenlə *(http://heydaraliyev.preslib.az/)* daxil olmaq mümkündür.

# "Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri" jurnalının növbəti nömrəsi çapdan çıxıb

"Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri" beynəlxalq elmi-texniki jurnalının növbəti nömrəsi (Cild 14. № 1) çapdan çıxıb. Baş redaktoru akademik Arif Paşayev olan bu jurnal dünya alimlərinin üzləşdiyi problemlərin həlli istiqamətlərinə üstünlük verir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan, ingilis və rus dillərində nəşr edilən jurnalın bu nömrəsi Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti, Beynəlxalq Mühəndislik Akademiyasının Prezidentlər Şurasının üzvü akademik Əhəd Canəhmədov, V.S.Skripnik, N.A.Volçenko, A.S.Yevçenko, A.N.Yəhyayeva və V.N.Volçenkodan ibarət müəlliflər kollektivinin "Hidrogen yeyilməsi nəzərə alınmaqla, əyləc qurğularının sürtünmə cütündə materialların yeyilməyə davamlılığının artırılması" sərlövhəli (Increasing the Wear Resistance of Material in Friction Vapors of Top-Mose Devices Taking into Account Hydrogen Wear) ingilis dilində məqalə ilə başlanır. Məqalədə əyləclərin sürtünmə cütlərinin mikroçıxıntılarının kontakt zonalarında xarici və daxili hidrogenin əhəmiyyəti qeyd olunub. Metal sürtünmə elementinin səthaltı təbəqəsində olan xarici hidrogenlə daxili hidrogenin qarşılıqlı əlaqəsi diqqətə çatdırılır. Elektrotermomexaniki friksion qarşılıqlı təsir zamanı sürtünmə cütlərində hidrogen mənbəyi krekinq prosesi zamanı polimer kündənin səth təbəqəsidir. Hidrogen yeyilməsinin tədqiqi zamanı elektrik və istilik sahələrində diffuziya, adgeziya, absorbsiya nəzərə alınmaqla, həmçinin əyləcin sürtünmə cütlərinin gərginlik-deformasiya vəziyyətinin qiymətləndirilməsi aparılıb.

Jurnalın "Mexanika və maşınqayırma" rubrikasına bu məqalə ilə yanaşı, digər alimlərin "Qazıma bucurqadının lentli-kündəli əyləcinin sürtünmə cütünün enerji yüklənməsinin və hidrogen yeyilməsinin azaldılmasının metod və vasitələri", "Yüksəksürətli mexaniki emalın səmərəliliyinin istehsal prosesinə təsiri" məqalələri də daxil edilib.

Oxucular nəşrin "Neft və qaz", "Kimya və neft-kimya texnologiyası", "Energetika", "İnformasiya texnologiyaları", "Ekologiya" rubrikalarında




müvafiq sahələr üzrə aparılmış tədqiqatların nəticələrinə dair məqalələrlə tanış ola bilərlər.

Xatırladaq ki, 2009-cu ilin noyabr ayından nəşr edilən jurnalın dövriliyi ildə 4 nömrəni əhatə edir. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının reyestrinə namizədlik və doktorluq dissertasiyalarının nəticələrinin dərc olunması üçün daxil edilib.

2021-ci ildə jurnal "International Scientific Indexing" (ISI) və "Scientific Journal Impact Factor" (SJIF) beynəlxalq elmi sitatlaşma məlumat bazalarına daxil edilib, sertifikatlar alınıb. Ötən il jurnala verilən impakt faktor ISI - 1,327, impakt faktor SJIF - 8,38-dir. Bundan əlavə, jurnal "Creative Commons Attribution - NonCommercial 4.0" beynəlxalq lisenziyası ilə lisenziyalaşdırılıb.

Jurnal, həmçinin onun reytinqini müəyyən edən, internet şəbəkəsində inteqrasiya olunmuş elmi resurs - Rusiyanın Elmi Sitat İndeksləşməsi (RESİ) layihəsinin müəllif hüquqlarına malikdir. Jurnalın tam mətn elektron versiyası "Rusiya Universal Elmi Elektron Kitabxanasının bazası"na (e-library) yerləşdirilib. Nəşr olunmuş bütün məqalələrə DOI (Digital Object Identifier - Obyektin Rəqəmsal İdentifiatoru) verilir.

Müxtəlif aktual problemləri qabartmaqla fərqlənən jurnal elmi mühəndis düşüncəsinin mənbəyini göstərir. Jurnal qabaqcıl elm, texnika və texnologiyanın nəticələrini inkişaf etdirməyə və ondan istifadə olunmasına, işlərin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsinə, təşəbbüskarlığın artırılmasına, qüvvələrin təmərküzləşməsinə kömək edir.

# Ankarada Əhməd Cavadın heykəlinin ucaldılması türk dünyasının tarixi şəxsiyyətlərinə ehtiramın növbəti təcəssümüdür

Türkiyənin paytaxtı Ankara şəhərində poeziya dünyamızın nadir simalarından biri, Azərbaycan xalqının istiqlal mübarizəsinə layiqli töhfələr vermiş vətənpərvər şair və ictimai xadim Əhməd Cavadın heykəli ucaldılıb.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Türkiyə paytaxtında heykəlin ucaldıldığı Türk Tarix Muzeyi və Parkında Əhməd Cavadın anım və heykəlinin açılış mərasimi keçirilib. Azərbaycanın Türkiyədəki səfirliyi, Etimesgut rayon bələdiyyəsi və Türk Tarix Muzeyi və Parkı tərəfindən birgə təşkil olunan mərasimdə rəsmi şəxslər, Türkiyə ictimaiyyətinin tanınmış simaları iştirak ediblər.

Türk Tarix Muzeyi və Parkı qardaş Türkiyənin nadir mədəniyyət məkanlarından biridir. Burada türk dünyasının görkəmli siyasi liderləri, şəxsiyyətləri, xalq qəhrəmanları, qəhrəman sərkərdələr, o cümlədən tarixi proseslər ayrı-ayrı bölmələrdə heykəllərin dili ilə ziyarətçilərlə təmasdadır. Bundan sonra Əhməd Cavadın heykəli qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayev, böyük qırğız yazıçısı Çingiz Aytmatov, görkəmli özbək şairi Abdulhamid Süleyman Çolpan, türk dünyasının görkəmli fikir adamı İsmayıl bəy Qaspıralı kimi görkəmli tarixi şəxsiyyətlərin heykəlləri ilə bir sırada dayanacaq.

Açılış mərasimindən əvvəl Türk Tarix Muzeyi və Parkının konfrans salonunda geniş toplantı keçirilib.

Tədbirdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Milli Məclisin deputatı Əziz Ələkbərli və Etimesgut rayon bələdiyyəsinin sədri Ənvər Dəmirəl tədbirdə çıxış ediblər.

Çıxışlarda Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir!" və Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət!" ifadələri xatırlanaraq diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri, liderlərin qətiyyətli mövqeləri və uzaqgörən qərarları ölkələrimizin gələcəyi, birgə inkişafımız üçün uğurlu nəticələr verməkdədir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı rəşadətli Qələbə, bu tarixi Zəfərin əldə olunmasında Türkiyənin göstərdiyi siyasi-mənəvi dəstək nəsillərə örnəkdir. Əhməd Cavadın həyat və fəaliyyəti gənc nəslin milli-vətənpərvərlik ruhunun yüksəlişində böyük təsirə malikdir.

Deputat Əziz Ələkbərli çıxışında qeyd edib ki, Əhməd Cavadın həyat və yaradıcılığı böyük bir irs, əbədiyyətə qədər mövcudluğunu saxlayacaq milli məktəbdir.

Səfir Rəşad Məmmədov isə bildirib ki, böyük şair Əhməd Cavadın heykəlinin ucaldılması yalnız Azərbaycan üçün deyil, bütün türk dünyası şəxsiyyətlərinə göstərilən ehtiramın tərənnümüdür.

Etimesgut rayon bələdiyyəsinin sədri Ənvər Dəmirəl diqqətə çatdırıb ki, Azərbaycan Dövlət Himninin və "Çırpınırdı Qara dəniz" mahnısının sözlərinin müəllifi olan Əhməd Cavad Azərbaycanda olduğu kimi, Türkiyədə də eyni məhəbbətlə sevilir.

Əhməd Cavadın şəxsiyyət və şair kimi yüksək keyfiyyətlərindən danışan natiqlər diqqətə çatdırıblar ki, böyük şairin tarixi xidmətləri və poeziya yaradıcılığı bütün türk dünyası üçün əhəmiyyətlidir. Vurğulanıb ki, Əhməd Cavad Azərbaycan ədəbi-bədii və ictimai fikir tarixində, xalqımızın maarifləndirilməsində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, müstəsna mövqeyə və qətiyyətə malik söz sərrafıdır. Böyük şair hər zaman ictimai-siyasi hadisələrin qaynar nöqtələrində olmuş, türk xalqı ilə çiyin-çiyinə Osmanlı dövlətinin bütövlüyü naminə savaşlara qatılmışdır.

Çıxışlardan sonra "TRT AVAZ" telekanalı tərəfindən hazırlanan, Əhməd Cavadın həyat və fəaliyyətinə həsr olunan sənədli film nümayiş olunub.

Sonra Ankara Universitetinin tələbəsi Elmira Qoca Əhməd Cavadın şeirlərindən nümunələr səsləndirib.

Qeyd edək ki, Prezident İlham Əliyev aprelin 20-də Əhməd Cavadın anadan olmasının 130 illiyinin qeyd olunması haqqında sərəncam imzalayıb. Bu sərəncam çərçivəsində qardaş Türkiyədə də müxtəlif tədbirlər keçirilməkdədir.

# "Xalçaçı günü" Şuşada qeyd olunub

**Mayın 5-i Azərbaycanda xalçaçıların peşə bayramı - "Xalçaçı günü" ölkəmizin hər yerində silsilə tədbirlərlə qeyd olunur.**

**Bu il bu günün ikiqat əhəmiyyəti var. Çünki bu il xalçaçıların bayramı mədəniyyət paytaxtımız, Qarabağın sənət məbədi, xalçaçılıq sənətinin beşiyi Şuşada qeyd olundu.**

**Heydər Əliyev Fondu və Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən Beynəlxalq Kulinariya Festivalı çərçivəsində "Azərxalça" ASC Şuşanı ziyarət edən yerli və xarici qonaqlara özünün xalça toxuma prosesi haqqında "Xalça necə doğulur" adlı interaktiv tamaşa formasını təqdim edib.**

**"Azərxalça" ASC-dən AZƏRTAC-a bildirilib ki, tamaşa izləyənlərin böyük marağına səbəb olub, həmçinin turistlər özləri toxuma prosesində iştirak ediblər. Xatırladaq ki, festivalda kulinariya ilə yanaşı, Azərbaycanın mədəniyyət və incəsənət nümunələrinin də geniş təqdimatı baş tutub.**

**"Xalçaçı günü"ndə "Azərxalça" ASC-nin rəhbərliyi xalçaçılıq sənətinin inkişafı və tərənnümündə rolu olan bütün əməkdaşlarını təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Müxtəlif rayonlarda fəaliyyət göstərən dövlət qurumlarının nümayəndələri, rayon gəncləri, məktəblilər də emalatxanalara baş çəkərək xalçaçıları təbrik ediblər.**

**"Azərxalça" ASC müasir Azərbaycanın əsas xalçaçılıq mərkəzidir. Cəmiyyət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 may 2016-cı il tarixli sərəncamı ilə yaradılıb. Ölkəmizdə yüz illərdir xalça toxunsa da, 2016-cı ilə qədər xalçaçıların peşə bayramı olmayıb. Artıq altı ildir ki, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradıldığı gün - mayın 5-i "Xalçaçı günü" kimi qeyd olunur.**

**Dünyanın bir çox ölkəsində xalçaçılıq sənətinin mövcud olmasına rəğmən, belə bayramın qeyd olunması ilk dəfə məhz Azərbaycanda reallaşıb. Bu hadisə Azərbaycanda milli-mənəvi irsimiz hesab olunan xalçaçılığa, bu xalçaları toxuyub ərsəyə gətirən toxuculara verilən qiymətin bariz nümunəsidir.**

**Bu gün sürətlə inkişaf etməyə can atan "Azərxalça" ASC-nin əsas məqsədi milli-mənəvi, mədəni irsimiz olan xalçaların qorunması, xalçaçılıq işinin təbliği, xalça və xalça məmulatlarının istehsalı, ixracı, ölkə daxilində və xaricdə satışının təşkili, yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi, beynəlxalq sərgi və konfranslarda iştirakının təmini - bir sözlə, Azərbaycanın milli xalça brendinin inkişafı üçün lazım olan bütün tədbirlərin görülməsidir.**

**"Azərxalça" ASC-nin bir çox xarici ölkələrdə, o cümlədən BƏƏ-də (EKSPO 2020 Azərbaycan pavilyonunda) sərgi davam etdiyi müddətdə, martın 31-dək satış və nümayiş mərkəzi fəaliyyət göstərib. Azərbaycan ilə ərəb ölkələri arasında uzunmüddətli, zəngin və qarşılıqlı əməkdaşlığın 30 illik tarixini qeyd etmək məqsədilə bu il fevralın 18-də xüsusi olaraq "Dubay EKSPO 2020" sərgisi üçün hazırlanmış "Dostluq" adlı xalça Azərbaycan pavilyonunda təqdim olunub. Bu ildən etibarən cəmiyyət tarixində ilk dəfə ipək xalçaların toxunmasına da start verilib.**

**Müasir dizaynlı evlərində Azərbaycanda toxunmuş, əsl əl işi xalçalarımızı fərqli üslubda görmək istəyən yerli və xarici xalçasevərləri nəzərə alaraq, bazara yalnız klassik deyil, müasir dizaynlı xalçalar da təqdim olunub. Bunun üçün də konseptual, gənc, istedadlı dizaynerlər, rəssam və xalçaçıları işə cəlb edilir.**

**Yerli rəssamlarla yanaşı "Azərxalça" ASC xarici rəssam və dizaynerlərlə də əməkdaşlıq edir. İsrailli rəssam Rami Meirin əsərlərinin xalçalara köçürülməsi və satışı istiqamətində, o cümlədən Azərbaycanda fəaliyyət göstərən bir çox xarici ölkə səfirlikləri ilə hər iki ölkədə xalçalarımızın sərgi və satışının baş tutması haqqında da danışıqlar və qarşılıqlı əməkdaşlıq həyata keçirilir.**

# "Ağıllı" quruculuq

## Qarabağ və Şərqi Zəngəzurun bərpası innovativ əsaslarla həyata keçirilir

İşğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzurun bərpası sürətlə davam edir. Görünən həm də odur ki, quruculuq işləri getdikcə kompleks xarakter alır. Yollarla və digər infrastrukturların bərpası ilə başlanan proses tədricən yaşayış məhəllələrinin salınmasını, inzibati binaların, parkların, iqtisadi inkişafa və vətəndaşların məşğulluğuna xidmət edəcək sənaye müəssisələrinin inşasını hədəfləyir.

### İlham ƏLİYEV: "Görüləcək bütün işlər ancaq baş planlar əsasında olmalıdır"

2020-ci ilin noyabrından etibarən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işlərinin miqyası olduqca əzəmətlidir. İşğaldan azad olunan torpaqlarımıza Prezident İlham Əliyevin diqqəti və xüsusi nəzarəti ilə yeni həyat bəxş olunur. Hətta bu ərazilər artıq kənd təsərrüfatına da cəlb edilir, əkin-biçin işləri aparılır.

Prezident İlham Əliyev mayın 4-də Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bərpa və quruculuq işləri ilə bağlı dövlətimizin prioritetlərini açıqladı, qarşıda duran vəzifələri və icrası yaxın vaxtlarda başa çatacaq layihələri diqqətə çatdırdı. Beləliklə, Zəngilan Beynəlxalq Hava Limanı istismara veriləcək. Horadizdən Zəngilana qədər olan və Zəngəzur dəhlizinin əsas komponentini təşkil edəcək dörd və altı zolaqdan ibarət olan avtomobil yolunun isə hissə-hissə istifadəyə verilməsi gələn ildən başlayacaq. Horadizdən Ağbəndə gedən dəmir yolu da gələn il tam istismara hazır olacaq.

Qeyd edək ki, Ağdam və Füzuli şəhərlərinin Baş planları təsdiqlənib və onların əsasında bəzi infrastruktur layihələrinin və yaşayış məhəllələrinin təməli qoyulub. O cümlədən Şuşa şəhərində genişmiqyaslı bərpa işləri davam edir. Hər bir rayonda kəndlərin də bərpası planlı şəkildə bərpa ediləcək. İlham Əliyev kəndlərin bərpası ilə də bağlı danışaraq bu istiqamətdə tapşırıqlarını diqqətə çatdırdı. Prezidentin bu məsələdə vurğuladığı məqamlardan biri ondan ibarət oldu ki, bu sahədə işlər kortəbii yox, planlı və sistemli şəkildə aparılmalı, bərpa ediləcək hər bir kəndin Baş planı olmalıdır: "Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq baş planlar əsasında olmalıdır. Baş plandan kənar bir dənə də daş daş üstə qoyulmamalıdır, bir dənə də qanunsuz tikili olmamalıdır. Yəni, biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq".

### Ən mükəmməl "ağıllı şəhər" və "ağıllı kənd" nümunələri yaradılacaq

Qarabağ və Zəngəzurun bərpasında diqqəti çəkən əsas məqamlardan biri isə quruculuq işlərinin ən müasir texnoloji əsaslarla, smart, "ağıllı" konsepsiyalar çərçivəsində həyata keçirilməsidir.

Məsələn, Zəngilan rayonunun 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən bərpa prosesində tətbiq olunan "ağıllı kənd" layihəsi smart quruculuğun mükəmməl nümunəsidir. Layihəyə uyğun olaraq bərpa işlərində ən müasir şəhərsalma standartları tətbiq olunur.

Ümumiyyətlə, "ağıllı kənd" təkcə kənd təsərrüfatı ilə bağlı deyil. Müasir şəhərsalma standartlarının tətbiqi, küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, su elektrik stansiyalarının, günəş paneli stansiyalarının quraşdırılması, bioqaz enerjisindən istifadə kimi amillər bu konsepsiyanın əsas komponentləri sırasındadır. Kənddə bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcəklər. O cümlədən evdaxili mühəndis-kommunikasiya, isitmə sistemləri də ağıllı texnologiyalar əsasında qurulub. Bütün bunlar üçün kənddə elektron idarəetmə mərkəzləri inşa edilib.

O cümlədən azad edilmiş ərazilərdə enerji infrastrukturunun yaradılması da innovativ həllər əsasında həyata keçirilir. Belə ki, yeni inşa olunan yarımstansiyalarda Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerji-sistem şəbəkəsi konsepsiyası həyata keçirilərək müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış sistem yaradılıb. Yeni yarımstansiyaların "Azərenerji"nin mərkəzi SCADA sistemi ilə əlaqələndirilərək birbaşa mərkəzdən idarə edilməsi təmin olunub.

O cümlədən azad olunmuş ərazilərdə Rəqəmsal Yarımstansiya layihəsi də uğurla icra olunur. Ötən il Füzulidə Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin, Zəngilanda isə Rəqəmsal Yarımstansiyanın təməli qoyulub. Bu cür yarımstansiyalar elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayır, emal edir, avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edir. Nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsi olan bu yarımstansiyalarda bütün ölçülər yüksək dəqiqliklə aparılır. Avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri minimuma endirməyə imkan verir. Ən əsası, "Yaşıl enerji" mənbələri şəbəkəyə inteqrasiya olunur. Bərpaolunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. İstehlakçılar yarana biləcək texniki fasilə barədə məlumatı onlayn qaydada əvvəlcədən alır.

Xatırladaq ki, 2021-ci il aprelin 19-da Prezident İlham Əliyev "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında sərəncam imzalayıb. Bu sərəncamdan irəli gələn vəzifələrin həyata keçirilməsi respublikamızla innovativ həllərlə bağlı qlobal çağırışların uğurla reallaşmasını təmin edəcək, "ağıllı" sistemlərin tətbiqini sürətləndirəcək. O cümlədən Qarabağ və Şərqi Zəngəzurda ən mükəmməl "ağıllı şəhər" və "ağıllı kənd" nümunələri yaradılacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# REGİONLAR



## Yeni aqrokimyəvi maddənin sınaqları keçiriləcək

Aqrar İnnovasiya Mərkəzi ilə Rusiya Federasiyasının "Evrika" Elmi-İstehsalat Mərkəzi arasında "Rostok" adlı yeni aqrokimyəvi maddənin ölkədə müxtəlif kənd təsərrüfatı bitkiləri üzərində sınaqlarının keçirilməsi ilə bağlı əməkdaşlıq müqaviləsi imzalanıb.

Müqaviləyə əsasən, Kənd Təsərrüfatı Nazirliyininin elmi-tədqiqat müəssisələrinin təcrübə təsərrüfatlarında 27 hektar sahədə, 12 müxtəlif kənd təsərrüfatı bitkisi üzərində yeni aqrokimyəvi maddənin sınaqlarının aparılması nəzərdə tutulub. Yeni aqrokimyəvi maddə bitkilərin məhsuldarlığının və stres amillərin təsirinə qarşı davamlılığının artırılmasında, eləcə də böyümə və inkişafının tənzimlənməsində mühüm rol oynayır. Bu maddənin elmi-tədqiqat institutlarının təcrübə təsərrüfatlarında sınaqdan keçirilməsi məqsədilə Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə Əkinçilik Elmi-Tədqiqat İnstitutunda yeni aqrokimyəvi maddənin müəssisələr arasında bölgüsü keçirilib.

Tədbirdə kənd təsərrüfatı sahəsində yerli və xarici şirkətlərlə həyata keçirilən birgə layihələr, sınağa cəlb ediləcək "Rostok" adlı aqrokimyəvi maddənin kimyəvi tərkibi, istifadə qaydaları, üstünlükləri barədə Aqrar İnnovasiya Mərkəzinin mütəxəssisləri tərəfindən məlumat verilib.

Tədbirin yekununda sınaq məqsədilə Azərbaycana gətirilən yeni aqrokimyəvi maddənin müxtəlif kənd təsərrüfatı bitkiləri üzərində tətbiq edilməsi ilə bağlı geniş müzakirələr aparılıb.

Qeyd edək ki, Aqrar İnnovasiya Mərkəzi kənd təsərrüfatı sahəsi üzrə innovativ həllərə əsaslanan qabaqcıl texnoloji yeniliklərin tətbiqi, təbliği və təşviqi üzrə metodiki və praktiki dəstəyin göstərilməsi istiqamətində fəaliyyət göstərir.

## İsmayıllılılar İsrailin Kiryat Bialik şəhərinə səfər ediblər

İsrailin Kiryat Bialik şəhərinin meri Eli Dukorskinin dəvəti ilə İsmayıllı rayonunun nümayəndə heyəti mayın 1-dən 5-dək bu ölkədə səfərdə olub.

Səfərin ilk günündə İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov, regional mədəniyyət idarəsinin rəisi Elçin Nəcəfov və sahibkar Azad Əliyevin daxil olduğu nümayəndə heyəti Kiryat Bialik şəhərinin meri Eli Dukorski ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə icra hakimiyyətinin başçısı Nahid Bağırov İsrail dövlətinin elan olunmasının 74 illiyi ilə əlaqədar Kiryat Bialik şəhərində təşkil ediləcək bayram tədbirlərinə dəvət üçün təşəkkürünü bildirib, İsrail-Azərbaycan əlaqələrinin əhəmiyyətindən danışıb.

Görüşdə habelə İsmayıllı və Kiryat Bialik şəhərləri arasındakı qardaşlıq münasibətlərindən bəhs olunub, qarşılıqlı əlaqələrin hər iki şəhər üçün perspektivləri, birgə reallaşdırılacaq layihələr müzakirə edilib.

Səfər çərçivəsində nümayəndə heyəti İsmayıllı rayonunun Mücəftaran kəndindən olan, Kiryat Bialik şəhərində yaşayan bir qrup azərbaycanlının iştirakı ilə rejissor Rüfət Əsədovun çəkdiyi "Əgər səni unutsam, Yerusəlim" filminin təqdimat mərasimində iştirak edib. Görüş iştirakçıları Azərbaycan tarixinin, mədəniyyətinin təbliği istiqamətində gördükləri işləri diqqətə çatdırıb, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan inkişaf-quruculuq işlərini yüksək qiymətləndirdiklərini, habelə 44 günlük Vətən müharibəsində əldə olunan qələbənin bütün azərbaycanlılar kimi, onların da sevincinə səbəb olduğunu diqqətə çatdırıblar.

Nümayəndələr İsrailin milli bayramı - Müstəqillik Günü münasibətilə keçirilən tədbirdə iştirak ediblər.



## Son 13 il Azərbaycanda 1700-dən çox yaşayış məntəqəsi qazlaşdırılıb

### Bu il daha 69 kənd və qəsəbə, 62 massiv mavi yanacaqla təmin olunacaq

Azərbaycanda qazlaşdırma dövlətin sosial siyasətinin ayrılmaz hissəsini təşkil edir. Regionların sosial-iqtisadi inkişafına yönəldilən birinci dövlət proqramına start verildiyi 2004-cü ildən indiyədək bu istiqamətdə genişmiqyaslı işlər həyata keçirilib.

Təkcə keçən il ölkəmizin şəhər və rayonlarında ümumilikdə 100-ə yaxın yeni yaşayış massivi qazla təmin olunub. 200-dən artıq şəhid ailəsi və müharibə iştirakçısının fərdi yaşayış evi isə "Azəriqaz"ın daxili imkanları hesabına qazlaşdırılıb.

Son 18 ildə mavi yanacaqla təmin edilən yaşayış məntəqələrinin, kənd və qəsəbələrin isə sayı yüzlərlədir. Bunlar uzun müddət təbii qaz almayan, eləcə də indiyədək qazlaşdırılmayan ərazilər idi. Beləliklə, qaz xətləri hətta sovet dönəminin ən inkişaflı illərində mavi yanacaqdan istifadə edə bilməyən yerlərədək çatıb. Aydındır ki, xüsusilə dağlıq ərazilərdə qaz çəkilişi çətinliklə aparılır. Bu həm texniki cəhətdən çətin işdir, həm də böyük maliyyə vəsaiti tələb edir. Bununla belə çoxlu dağ kəndlərimiz xeyli vaxtdır mavi yanacaq alır. Belə yerlərdə xətlər dağlardan, qayalıqlardan keçdiyi üçün boruların iş gedən ərazilərə hətta əllə daşındığı da məlumdur.

Hazırda Azərbaycanda qazlaşdırmanın səviyyəsi 96,3 faizə çatıb. 2009-cu ildə isə həmin göstərici 62,2 faiz idi. Bu da son 13 ildə 34,1 faiz artım deməkdir. Sözügedən dövr ərzində ölkəmizdə 1700-dən çox yaşayış məntəqəsi qazlaşdırılıb. Bu ilin əvvəllərində abonentlərin sayının 2 milyon 400 minə çatması Azərbaycanda qazlaşdırmanın dünya miqyasında yüksək göstəricilər qazandığını təsdiqləyən növbəti faktdır.

2022-ci ilin qazlaşdırma proqramında ölkənin müxtəlif bölgələrində 69 yaşayış məntəqəsinin və 62 yaşayış massivinin mavi yanacaqla təmin olunması nəzərdə tutulub. Qazlaşdırılan yeni yaşayış massivləri həm regionları, həm də Bakı şəhərinin inzibati ərazisini əhatə edir. İndi yaşayış məntəqələrinin yarısında, yaşayış massivlərinin isə 75 faizində iş gedir. Havalar istiləşdikcə işlərin sürəti də artacaq. Qeyd edək ki, hazırda qazlaşdırma "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində maliyyə imkanlarına uyğun olaraq həyata keçirilir.

"Azəriqaz"ın gördüyü bu və digər işlər barədə ötən ayın sonunda keçirilən "Açıq qapı" aksiyasında da ətraflı bəhs olunub.

Tədbirdə birliyin səlahiyyətli nümayəndəsi son vaxtlar məişət tipli, yəni G4 və G6 tipli sayğacların satışının qanuni olub-olmaması ilə bağlı ünvanlanan sualı da cavablandırıb. Bildirilib ki, əhali abonentləri üçün qaz sayğaclarının MTK tipli binalarda ilkin quraşdırılması, eyni zamanda əvəz olunması qaz paylayıcının hesabına həyata keçirilir. Qanunda düzəliş olunub və orada bu, bir daha təsbit edilib. Yəni qaz sayğacının quraşdırılması qaz paylayıcının hesabına həyata keçirilməsi yalnız məişət abonentləri üçün nəzərdə tutulub. Xatırladaq ki, abonentlər iki hissəyə bölünür. Məişət abonentləri dedikdə fərdi evlər və mənzillər, yəni təbii qazdan istifadə edən fiziki şəxslər nəzərdə tutulur. Digər abonentlər isə qaz sayğacını öz hesabına almalı və quraşdırmaıldır.

Bundan əlavə, aksiyada həmçinin tezliklə yerli istehsal olan yeni qaz sayğaclarının quraşdırılmasına başlanılacağı da diqqətə çatdırılıb. İdxaldan asılılığı azaltmaq üçün yerli istehsala üstünlük veriləcəyi, yeni sayğacların dünya standartlarına cavab verəcək səviyyədə təchiz olunduğu qeyd edilib. Başqa sözlə, "Azəriqaz" İstehsalat Birliyi həm sahibkarlığı dəstəkləmək, həm də ölkədən valyuta axınını azaltmaq məqsədilə abonentlərin ixtiyarına "Gəncə Cihazqayırma Zavodu" ASC-də istehsal olunan sayğacları verəcək.

Yaxın vaxtlarda qaz xətləri işğaldan azad edilmiş ərazilərimizə də istilik, hərarət daşıyacaq. Məlum olduğu kimi, indi o yerlərdə elektrik enerjisi obyektlərinin tikintisi vüsət alıb. Qarşıda duran ən mühüm məsələlərdən biri Qarabağda və Şərqi Zəngəzurda tikiləcək evlərimizi, sosial və istehsal təyinatlı müəssisələrimizi mavi yanacaqla təmin etməkdır. Hazırda bu ərazilərin qazlaşdırılması ilə əlaqədar layihələşdirmə işləri gedir. Təbii ki, buradakı yaşayış məntəqələrinə qaz verilməsi də növbəlilik prinsipi ilə həyata keçiriləcək.

*Flora SADIQLI, "Azərbaycan"*

## "Qarabağ Azərbaycandır!"

### Bu dəfə xarici dillərdə

Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) Ümummilli Lider Heydər Əliyevin doğum gününə həsr olunmuş "Qarabağ Azərbaycandır!" mövzusunda bakalavr və magistrlərin iştirakı ilə ingilis, alman, rus, fransız dillərində elmi-nəzəri konfrans keçirilib.

ADAU-nun rektoru, AMEA-nı müxbir üzvü professor İbrahim Cəfərov konfransda çıxış edərək deyib ki, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə Vətəninə, xalqına bağlı olan dünya şöhrətli siyasətçi və böyük dövlət xadimi Ümummilli Lider Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə misilsiz xidmətlər, xilaskarlıq missiyası, zəngin dövlətçilik nümunəsi göstərib. Rektor bildirib ki, Ulu Öndər Azərbaycan xalqının qəlbində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, üstəlik, dünya siyasətinin nəhənglərindən birinə çevirib.

Konfransda Türkiyənin EGE Universitetinin bir qrup professor-müəllim heyəti, Gəncə Dövlət Universitetinin və Azərbaycan Texnologiya Universitetinin bakalavr və magistrləri də iştirak ediblər.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Biləsuvarlı fermerlər təsərrüfatlarında müasir suvarma sistemləri tətbiq edirlər

Son illər dövlət dəstəyinin genişlənməsi nəticəsində aqrar təsərrüfatlarda müasir suvarma sistemlərinin tətbiqinə maraq artıb. Əkinləri xüsusilə vegetasiya dövründə quraqlıqla üz-üzə qalan biləsuvarlı fermerlər artıq bu problemdən çıxış yolunu sahələrdə baraban tipli çiləmə maşınlarının - tamburlu suvarma sisteminin tətbiqində görürlər.

AZƏRTAC xəbər verir ki, qlobal iqlim dəyişikliyi fonunda havanın orta temperaturunun son illərdə artması, yağıntıların miqdarının isə azalması ölkəmizdə də su təchizatında ciddi problemlər yaradır, xüsusilə payızlıq əkinlərin vegetasiya dövründə quraqlıq müşahidə olunur. Bu isə bitkilərə düzgün aqrotexniki qulluq etməyə imkan vermir, nəticədə ciddi fəsadlar törətməklə məhsuldarlıq aşağı düşür.

Hər il təkcə payızlıq əkinlər üzrə 30 min hektardan artıq buğda və arpa bitkisinin əkildiyi Biləsuvar rayonunda fermer və sahibkarlar vəziyyətdən çıxış yolunu müasir suvarma sistemlərinin tətbiqində görürlər. Fermer Rafiq Bədəlov ötən ildən lizinq yolu ilə müasir suvarma sistemi alıb və bu yeniliyi təsərrüfatında tətbiq edib: "Yeni qurğunu payızda almışam. Suya 70 faiz qənaət edir, məhsuldarlığı 30 faiz artırır. Digər özəlliyi isə ondadır ki, sahədə kanal çəkilmir, 100 faiz çıxış alınır".

Qurğunun su sərfiyyatı norması 1 hektar üçün 500-1000 kubmetr arasıdır. Bir dəfəyə sahə boyunca 54 metr enində, 530 metr uzunluqda ərazini, yaxud birbaşa 3 hektara yaxın sahəni suvarmaq mümkündür.

Biləsuvar Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisi Gülağa Qurbanov bildirib ki, fermerlərə görüş zamanı müasir suvarma sistemlərinin tətbiqi təbliğ olunur. "Bu işlər öz nəticəsini verir. Hazırda üçüncü fermerdir ki, tamburlu su qurğusundan istifadə edir. Bu həm vaxta, həm də suya qənaət deməkdir".

## İndi də yemiş sahələri güzəştli sığorta olunur



Aqrar Sığorta Fondu ölkədə ilk dəfə olaraq yemiş sahələrini sığorta etməyə başlayıb. Digər əkin sahələrində olduğu kimi, yemiş təsərrüfatları üzrə də sığorta haqqının yarısını fermerlərə dəstək üçün dövlət ödəyir.

Aqrar sığorta yemiş əkinlərini çoxsaylı risklərdən qoruyur. Bura dolu, sel-su basma, leysan, ildırım, yanğın, qasırğa, fırtına, bitki xəstəlikləri və ziyanvericilər, üçüncü şəxslərin hərəkətləri və s. hallar aiddir.

Yemiş təsərrüfat sahələrinin sahibləri onu baza sığorta zərfi ilə yanaşı, ayrıca olaraq bitki xəstəlikləri və zərərvericilərdən, eləcə də dolu riski nəticəsində yaranan miqdar itkisi ilə yanaşı, keyfiyyət itkisi üzrə də sığorta edə bilərlər.

Belə ki, ölkəmizdə yemiş istehsalının 24,1 faizi Saatlı, 19,1 faizi Kürdəmir, 17,1 faizi Sabirabad, 9,5 faizi Naxçıvan Muxtar Respublikası, 5,3 faizi Salyan, 3,8 faizi Masallı, 2,5 faizi Hacıqabul, 1,8 faizi Ağsu, 1,5 faizi Zərdab, 1,4 faizi Astara rayonlarının payına düşür. Yemişin əsas istehsalçı rayonları olan Saatlı (285,9 sent/ha), Zərdab (281,0 sent/ha), Sabirabad (251,5 sent/ha) və Kürdəmirdə (184,2 sent/ha) məhsuldarlıq göstəricisi ölkə üzrə orta göstəricidən yüksəkdir.

Relyef və iqlim baxımından ölkəmizdə bu bostan bitkisinin yetişdirilməsində biznes baxımından böyük imkanlar və fürsətlər var. Belə ki, daxili bazarın tələbatının ödənilməsi ilə yanaşı, həmçinin böyük ixrac potensialı da mövcuddur.

Yemiş təsərrüfatlarının baza sığorta zərfi ilə sığortası tarifi ölkənin ayrı-ayrı regionları üzrə fərqlidir və 1,87-4,56 faiz arasında dəyişir. Bu bitkinin ən çox əkildiyi Aran bölgəsində sığorta tarifi 1,96 faiz təşkil edir. Hesablanan sığorta haqqının 50 faizini fermerə dəstək üçün dövlət ödəyir.



## Məqsəd taxıl idxalını minimuma endirməkdir

### Bunun üçün Hacıqabulda bütün daxili imkanlar səfərbərliyə alınıb

Qlobal istiləşmə Azərbaycanda da kəskin hiss olunur. Aran ərazilərə qış boyu 2-3 dəfə çiləmə yağış düşməsi, onun da bitkilərin kökünə belə gedib çatmaması ilk növbədə qlobal istiləşmənin nəticəsidir.

Biz hələ yağıntının az olmasından çaylarda, o cümlədən həmişə kürlüyündən narahatlıq keçirdiyimiz, xüsusən yaz aylarında coşub-daşaraq bəndə-bərəyə sığmayan Kürdə suyun həddinin aşağı düşməsini, suvarma suyunun xeyli azalmasını demirik. Dəli Kür indi miskin görkəmdədir. Halbuki insanlar həmişə onu bolluq mənbəyi hesab etmişlər:

Kür ana yurdumun şah damarıdır,
Yüz eldən, obadan dolanıb keçir.
Pambıqlı, taxıllı Muğanım, Milim
Onun ovucundan su alıb içir.

Sahilboyu ərazilərdə yaşayan ən yaşlı sakinlərin dediyinə görə, Kür heç vaxt belə susuz olmayıb. Ancaq nə etmək olar?! İndiyədək heç kim və heç nə təbiətə qarşı çıxa bilməyib. Kim bu niyyətdə olubsa, cəzasını çəkib.

İndi başlıca vəzifə az olan sudan daha qənaətlə və daha səmərəli istifadə etməkdir. İlk növbədə isə taxılın suvarılması həyata keçirilməlidir. Bəli, taxılın. Bu da səbəbsiz deyil. Əvvəlki illərdə bu məsələnin heç kəs fərqinə varmırdı. Torpaq mülkiyyətçiləri, fermerlər hansı bitkini əkmək istəyirdilərsə, onu da əkirdilər. Məsələ ciddidir və bu həm də əsas taxıl idxalçılarımız olan Rusiya və Ukrayna arasındakı gərginliklə bağlıdır. Buna görə bütün imkanları səfərbər etməklə daxili potensial hesabına taxıl istehsalını maksimum artırmaq olduqca vacibdir.

Bu istiqamətdə Hacıqabul rayonunda da lazımi işlər görülür. Qeyd edək ki, rayon üzrə cari ilin məhsulu üçün 2021-ci ilin payızında 35 min hektara taxıl toxumu əkilmişdir. Onun 12 min 285 hektarının su təchizatı rayon Suvarma Sistemləri İdarəsinin öhdəsinə düşür. Bunlar əsasən pay torpaqlarıdır. Zəhmətlərinin və çəkdikləri xərclərin daha çox fayda verməsi məqsədilə torpaq mülkiyyətçiləri hələ qış aylarından vaxtaşırı olaraq əkin sahələrinə baş çəkmiş, aqrotexniki tədbirləri vaxtında həyata keçirməyə çalışmışlar. Vegetasiya dövrünün bir çox mərhələsi artıq arxada qalmışdır. Yemləmə gübrəsi, onun ardınca suvarma işləri demək olar başa çatdırılmışdır. Hazırda alaq otlarına qarşı mübarizə tədbirləri həyata keçirilir, zəmilərə herbisid səpilir.

Su qıtlığı üzündən yaranan problemlər rayon Suvarma Sistemləri İdarəsinin kollektivi, eləcə də Sudan İstifadə Birliyinin işçiləri tərəfindən aradan qaldırılır. Bir çox halda bu işə ağsaqqallar, nüfuzlu ziyalılar da cəlb olunur. Suyun tərtib edilmiş növbəlilik qrafiki əsasında verilməsi narazılıqların, şikayətlərin sayını minimuma endirir.

Məsələ ilə daha yaxından tanış olmaq üçün Suvarma Sistemləri İdarəsinin rəisi Mafisəd Cəfərov və su satışı şöbəsinin müdiri Zakir Sadıqovla bir neçə kəndə baş çəkib əkinçilərlə görüşməyi qərara alırıq. Bakı-Qazax magistral şose yolu ilə 15 kilometr getdikdən sonra sola dönərək cənub istiqamətinə - Abdulabad kəndinə doğru irəliləyirik. Yolboyu söhbətimiz yalnız su haqqında gedir. Öyrənirəm ki, bütün xərclər - enerji, əməkhaqqı, təmir-tikinti və digər xərclərlə birlikdə suyun 1000 kubmetri 50 manata başa gəlir. Dövlət isə onu mülkiyyətçiyə, fermerə 50 qəpiyə verir. Amma bir çox mülkiyyətçi həmin 50 qəpiyi də vaxtında ödəmir.

Yolun hər iki tərəfi əkin sahələridir. Taxıl, yonca əkinləri yaşıl xalını xatırladır. Arabir sellofan örtüklü yerlər diqqətimizi cəlb edir. Marağımızı gizlətmirik:

- Buralarda da qarpız əkməyə üstünlük verirlər?

Z.Sadıqov:

- Qarpız deyil, badımcandır, - deyir.

- Yəni buralarda badımcan yetişir?

Yol yoldaşım:

- Özü də necə! Abdulabad kəndinin badımcanı adladır.

Yolumuz fermer Əliseyran Nəzərovun təsərrüfatınadır. 7-8 dəqiqədən sonra onun sahəsinə çatırıq. Yol yoldaşlarım torpaq mülkiyyətçiləri ilə birlikdə Ə.Nəzərovun taxıl sahələrini gəzib öz fikirlərini bildirirlər. Bu, bir növ təcrübə mübadiləsi rolunu oynamış olur. Suvarma suyu ilə bağlı hər kəs öz fikrini söyləyir. Dialoq formasında keçən görüş, bizcə, hər kəs üçün faydalıdır.

Vaxt tapıb fermer Ə.Nəzərovla söhbət edirik. Məlum olur ki, təsərrüfatını 2004-cü ildə yaradıb. Hazırda 22 hektar buğda, 10 hektar arpa, 14 hektar yonca və 4 hektar bostan sahəsi var. Taxıl sahələrində vaxtında yemləmə aparmış, sonra da sahələri suvarmışdır. Nəticədə yüksək məhsul əldə edəcəyinə inam var. Sahələrin görünüşü, mütəxəssis rəyi onun inamının əbəs olmadığını təsdiqləyir.

Sahənin bir tərəfində daşdan tikilmiş tövlələr, bir qədər aralıda isə yaşayış evi görünür.

- Bunlar mənimdir. Quzusu ilə birlikdə 500 baş qoyunum da var. Oğlum Elçin təsərrüfatın idarə olunmasında mənə çox yaxşı kömək edir. Demək olar ki, işin ağırlığı onun çiyinlərindədir, - deyə Əliseyran bildirir.

Ə.Nəzərov və digər mülkiyyətçilərlə sağollaşıb yola düşmək istəyəndə Nicat İskəndərov xahiş edir ki, sahəsi lap yolun yaxınlığındadır, onun da taxılına baxaq. Xahişini yerə salmırıq, sahəsinə baş çəkirik. Yaxşı işin, uğurun olanda istəyirsən ki, çəkdiyin zəhməti başqaları da görüb qiymətləndirsin. Görürük ki, Nicatın becərdiyi taxıl sahəsi doğrudan da nümunəvidir. Zəmi adamın üzünə gülür. Oradakı mütəxəssislər fermerə ən azı hər hektardan 40 sentner məhsul götürəcəyini deyirlər.

Bəli, taxıl elin sərvətidir. Bu sərvət, bu bərəkət haqqında nə qədər hikmətli sözlər söyləyib ulularımız. "Çörək bol olarsa, basılmaz Vətən" deyən də olub, bu neməti müqəddəs Qurandan üstün hesab edənlər də. Bir də deyiblər ki, Allah heç kimi çörəklə sınağa çəkməsin. Elə Hacıqabul taxılçıları da bu cür sınaqla üzüzə qalmamaq üçün bütün imkanlarını səfərbər ediblər.

*Seyran CAVADOV, "Azərbaycan"*

# İcbari tibbi sığorta əlçatan olacaqmı?

## Yeni dəyişikliklər bu problemi həll edəcək

Dünyanın inkişaf etmiş ölkələrində icbari tibbi sığorta geniş tətbiq olunur. Nəticələr uğurludur. Bu sistem əhalinin tibbi yardım almaq hüququnu təmin edir, istədiyi səhiyyə müəssisəsində müalicə və müayinə olunmaq imkanı verir.

Ölkəmizdə "Tibbi sığorta haqqında" qanun 28 oktyabr 1999-cu ildə qəbul olunub. 2007-ci ildə Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta Agentliyinin yaradılması haqqında Prezident İlham Əliyev tərəfindən sərəncam imzalanıb. Dövlət başçısının 2016-cı il 15 fevral tarixli fərmanına əsasən bu qurum fəaliyyətə başlayıb, 2016-cı il 24 noyabr tarixli fərmanı ilə onun əsasında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs yaradılıb və ilkin olaraq Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonlarında pilot layihə şəklində tətbiq olunmağa başlanılıb.

### 3000-dən çox tibbi xidmətin icbari tibbi sığorta çərçivəsində göstərilməsi nəzərdə tutulub

Qeyd edək ki, respublikamızda 2020-ci il yanvarın 1-də icbari tibbi sığortanın hər bir vətəndaşa şamil olunması nəzərə tutulmuşdu. Ancaq dünyanın əksər ölkələri kimi, Azərbaycanı da cənginə alan pandemiya bu sahədə də ləngimələrə səbəb oldu. Lakin pandemiyanın davam etdiyi 2021-ci ildə icbari tibbi sığortanın tətbiqi bütün ölkəni tam əhatə etdi. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin ötən il icbari tibbi sığorta çərçivəsində dövlət tibb müəssisələrinin əhaliyə göstərdiyi xidmət sayı 22 milyondan çox olub. Bu dövrdə agentliyin müqavilə bağladığı özəl tibb müəssisələrində göstərilən cərrahi xidmət sayı isə 27305-ə yüksəlib. İcbari tibbi sığortanın tətbiq olunduğu ərazilərdə əhalinin 42 faizi tibbi xidmətlərdən yararlanıb. Xidmətlər zərfi çərçivəsində göstərilən tibbi xidmətlər vətəndaşların ən çox müraciət edilən, habelə əlillik və ölüm riski olan xəstəliklər üzrə müayinə və müalicə olunmalarını təmin edib.

Ölkəmizdə icbari tibbi sığortanın tətbiqi ildən-ilə genişlənir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən xidmətlər zərfinə dəyişikliyin edilməsi barədə layihə hazırlanıb və aidiyyəti quruma təqdim olunub. Sözügedən layihədə 700 tibbi xidmətin xidmətlər zərfinə daxil edilməsi ümumilikdə 3000-dən çox tibbi xidmətin icbari tibbi sığorta çərçivəsində göstərilməsi nəzərdə tutulub. Yeni tibbi xidmətlər limitli qaydada orqan transplantasiyası, ürək-damar cərrahiyyəsi, oftalmoloji və travmatoloji əməliyyatları əhatə edir. Eyni zamanda, hazırda limit sayı 300 olan koxlear implantasiya və endoprotezləşdirmə əməliyyatlarının sayının müvafiq olaraq 400-ə və 1200-ə qədər artırılması təklifi irəli sürülüb.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin tibb müəssisələrində struktur dəyişiklikləri aparılır. Məqsəd idarəetməni təkmilləşdirmək və vətəndaşın tibbi xidmətə əlçatanlığını artırmaqdır. İslahatlar çərçivəsində keçən il ölkə üzrə fəaliyyət göstərən Ailə Sağlamlıq mərkəzlərinin sayı 278-ə yüksəlmiş, Bakı şəhərinin rayonları üzrə 11 Tibb mərkəzi, Sumqayıt şəhərində isə Sumqayıt Tibb Mərkəzi yaradılmışdır. Ən mühüm yeniliklərdən biri isə 2021-ci ilin oktyabr ayından etibarən Şuşa şəhərində modul tipli xəstəxananın fəaliyyətə başlamasıdır. Müəssisə ötən il ərzində 1 256 pasiyent qəbul edib.

### Həkimlərin əməkhaqqı artırılacaq

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydası"na dəyişikliklər edilməklə 31 ixtisas üzrə çalışan həkimlərin aylıq əməkhaqlarının bütün məcburi tutulmalardan sonra tam məbləğinin 1000 manata çatdırılması nəzərdə tutulur. Maaş artımı üzrə illik əlavə maliyyə xərci təqribən 100 milyon manat təşkil edir. 17 ixtisas üzrə çalışan həkimlərin maaşında artım iki dəfəyədək olacaq.



Tibbi statistik göstəricilərlə yanaşı, səhiyyə işçilərinin əməkhaqqı artımı və tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi də nəzərdə tutulub. 2021-ci ildə səhiyyə işçilərinə 717 milyon manatdan çox vəsait ödənilib və bu nəticə 2020-ci illə müqayisədə 18 faiz artım əldə edildiyini göstərir. Təchizata gəldikdə isə, ötən il ərzində tibb müəssisələri 5248 ədəd yeni cihaz və avadanlıqla təmin olunub, 274 tibb müəssisəsində İKT infrastrukturunun qurulması üzrə işlər görülüb.

Əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və tibb işçilərinin sosial rifahının yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Səhiyyə işçilərinin əməyinin ödənilməsi qaydasına cari il üzrə edilən sayca 5-ci dəyişiklikdə məqsəd odur ki, tibb xidməti alan tərəf məmnun olduğu qədər xidməti verən tibb işçiləri də icbari tibbi sığortanın tətbiqindən razı qalsın. Bununla da tibb işçilərinin sosial rifahı yaxşılaşdırılsın və tibbi xidmətlərin vətəndaşlara əlçatanlığı təmin edilsin. Hazırkı artım 31 ixtisas üzrə çalışan 8 minə yaxın həkimə şamil olunacaq. 17 ixtisas üzrə çalışan həkimlərin maaşında artım 2 dəfəyədək təşkil edəcək. 14 ixtisas üzrə çalışan həkimin maaşında isə artım 20-90 faiz arası dəyişəcək. Maliyyə imkanları artdıqca təbii ki, səhiyyə işçilərinin əməyinin ödənilməsi qaydasına yenidən baxılacaq və onların sosial müdafiəsi daha da gücləndiriləcək". "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"na dəyişikliklərin məqsədi tibb işçilərinin mənzilə tələbatının ödənilməsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır.

### İcbari tibbi sığorta rüşvətin qarşısını alacaq

Mütəxəssislər ilk günlərdən əminliklə bildirirdilər ki, bu sistem dünyanın inkişaf etmiş ölkələrinin səhiyyə sistemini inkişaf etdirdiyi kimi, Azərbaycan səhiyyəsini də irəli aparacaq. Onlar icbari tibbi sığortanın tətbiqini səhiyyə sisteminin maliyyələşməsinin ən mükəmməl forması hesab edirlər.

Səhiyyə sistemində rüşvətxorluq hallarına rast gəlinir. Hətta bəzi üzdəniraq həkimlərin öz pasiyentlərinin maddi vəziyyətlərinin aşağı olması ilə belə hesablaşmamaları, onlardan müayinə olunmalarının müqabilində pul ummaları kimi faktların da olması təəssüf doğurur. Ekspertlərin fikrincə, icbari tibbi sığorta rüşvətin, korrupsiyanın qarşısını alacaq. Belə ki, bu sistemin tətbiqindən sonra artıq həkimlə xəstə arasında "ödəniş" barədə danışıqlar aparılmayacaq. Tibb müəssisələri sadəcə, öz xidmətlərini göstərəcəklər. Müqabilində isə sığorta qurumu onlara xidmət haqlarını ödəyəcəklər. Bu da hər bir vətəndaşın ehtiyacı olduğu qədər və arzu etdiyi xəstəxanada, klinikada müayinə və müalicə olunmasına imkan yaradacaq. Necə deyərlər, ələbaxımlılığın aradan qalxmasından ən çox faydalanan sıravi vətəndaşlar olacaq. Onlar az vəsait ödəməklə keyfiyyətli xidmət ala biləcəklər. İcbari tibbi sığortanın tətbiqi bu baxımdan da əhalinin sağlamlıq durumunun yaxşılaşmasına ciddi təsir göstərəcək.

İcbari tibbi sığortada məhsuldar islahatlara nail olmaq üçün maarifləndirmə, düzgün məlumatlandırma işlərinin aparılması vacibdir. Ölkəmizdə icbari sığortanın nisbətən zəif inkişaf etməsinin əsas səbəblərindən biri əhalinin bu sahə üzrə az məlumatlı olmasıdır. Problemin aradan qaldırılması üçün əlaqədar qurumlar maarifləndirmə işlərini daha da genişləndirməlidirlər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# "Omikron"un daha iki yeni alt variantı aşkar edilib

İki ildən çoxdur ki, davam edən koronavirus pandemiyası hələ də bəşəriyyət üçün qlobal problem olaraq qalır. İnfeksiya əvvəlki tək təhlükəli olmasa da, yoluxduruculuğu sürətlidir. Eyni zamanda COVID-19 yeni yaranan alt variantları ilə də insan sağlığını təhdid edir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, COVID-19-a yoluxma nəticəsində baş verən ölüm sayında qlobal səviyyədə azalma davam edir. Belə ki, 2020-ci ilin mart ayından bəri koronavirusla bağlı ən aşağı ölüm sayı son günlərdə qeydə alınıb.

Bununla belə, bəzi narahatlıq doğuran məqamlar da var. Bu da "Omikron"un növbəti yeni variantlarının yaranması ilə bağlıdır. ÜST-ün məlumatına görə, COVID-19-un Cənubi Afrika Respublikasında yaranan və dünyada ən çox yayılmış variantı olan "Omikron"un daha 2 yeni alt variantı aşkar edilib. Maraqlısı isə odur ki, "Omikron"un BA.4 və BA.5 adlanan bu yeni alt variantlarını da cənubi afrikalı tədqiqatçılar qeydə alıblar.

Yeni aşkar edilmiş alt variantların digərləri ilə müqayisədə ağır xəstəlik və ölümə səbəb olub-olmaması ilə bağlı dəqiq məlumat yoxdur. Bununla belə ÜST COVID-19-un yeni variantlarına qarşı ən yaxşı qorunmanın peyvənd və sosial məsafə olduğunu bildirir. ÜST-ün baş direktoru Tedros Adhanom Qebreyesus bu barədə deyib: "Koronavirus testləri və genetik testlərin aparılması da vacibdir. Cənubi Afrikanın BA.4 və BA.5 alt variantlarının aşkarlaması da bu cür genetik testlər sayəsində mümkün olub. Bir çox ölkələrdə genetik testlərin aparılması dayandırıldığı üçün bu virusun necə təkamül edəcəyini görə bilmirik".

Qeyd edək ki, hazırda dünyada koronavirusa yoluxanların sayı 512 milyondan, ölənlərin sayı isə 6 milyondan çoxdur. Eyni zamanda bu təhlükəli virusdan sağalanların sayı da 460 milyonu ötüb. Mütəxəssislər isə koronavirusun sürətli yoluxma qabiliyyətinə malik "Omikron" variantı və peyvəndləmə sayəsində kütləvi immunitet qazanılaraq hazırda pandemiya ilə bağlı vəziyyətin normal hala gəldiyini bildirirlər.

Buna görə də bir çox ölkələr koronavirusa qarşı qorunma tədbirlərini xeyli aradan qaldırıb və normal həyata qayıdıb. Əksər ölkələrdə qapalı yerlərdə də maska öhdəliyi aradan qaldırılıb.

Hazırda Azərbaycanda da epidemioloji vəziyyət ürəkaçandır. Pandemiyaya qarşı uğurlu mübarizə, xüsusilə də vaksinasiya sahəsində düzgün strategiya həyata keçirilməsi COVID-19 infeksiyası ilə bağlı vəziyyəti müsbətə doğru yönləndirib.Virusa yoluxma sayı birrəqəmli həddə düşüb, son dövrlər ölüm halı qeydə alınmır.

Sadalanan bu müsbət göstəricilər isə qapanmaların açılmasına səbəb olub, tətbiq olunan qadağaların böyük əksəriyyəti aradan götürülüb. Nazirlər Kabinetinin qərarına əsasən, mayın 1-dən etibarən, xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və s.) istifadə tələbi də ləğv edilib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "Qarabağ Azərbaycandır!" etirafını ilk dəfə Sarkisyan edib, yoxsa Paşinyan?

## Ermənistanda iqtidarla müxalifət biri-birinə bu ittihamı irəli sürür











Ermənistanda narazılıq və qarşıdurma hallarının daha da yüksəlməsi, müxalifətlə hakimiyyət arasında ziddiyyətlərin kəskinləşməsi aydın müşahidə olunur. Müxalifətin İrəvanda keçirdiyi etiraz aksiyaları artıq iki həftədir davam edir. Mitinqlər istər iştirakçıların sayı, istərsə də miqyası baxımından genişlənməkdədir. Hətta vəziyyət o həddə çatıb ki, Paşinyan parlamentdə olan zaman etirazçılar binanı ələ keçirmək planları qurmağa başlayıblar.

### Baş nazirin etirafları müxalifəti qıcıqlandırdı

Parlamentdə çıxışı zamanı baş nazirin səsləndirdiyi fikirlər keçmiş hərbi xunta təmsilçilərinin aksiyalarda daha fəal iştirakına təkan verib. Bildirib ki, danışıqlar prosesini Serj Sarkisyan uğursuzluğa düçar etdi: "Serj Sarkisyan 2018-ci il aprelin 17-də bunu etiraf edərək bildirib ki, danışıqlar prosesi nikbinlik yaratmır, daha doğrusu, dayandırılıb, çünki Azərbaycanın tələbləri bizim üçün qəbuledilməzdir və Sarkisyan bu tribunadan gələcək müharibəni elan edib. Biz uzun müddətə ümid etməməliydik ki, Azərbaycan məsələni müharibə yolu ilə həll etməyəcək".

Paşinyan deyib ki, 2020-ci il sentyabrın 27-də parlamentin tribunasından müharibəni həmin gün dayandıra biləcəyini də bəyan edib. Bunun üçün Qarabağı Azərbaycanın tərkibində tanımaq lazım idi: "Bunu Serj Sarkisyanın məntiqi ilə bağlasaq, belə çıxır ki, müharibəni dayandırmaq üçün Azərbaycanın qəbuledilməz şərtlərini qəbul etmək və Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımaq lazım idi. Qeyd etmək istəyirəm ki, Ermənistan hakimiyyəti, o vaxt Madrid prinsiplərini danışıqlar üçün əsas kimi qəbul etdi, onlar Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdı", - deyə Paşinyan müxalifətə cavab verib.

Müxalifətçi deputat Rüstəmyan buna cavab olaraq bildirib ki, günahı keçmiş hakimiyyətin üzərinə atmaq indiki hakimiyyətin hərəkətlərinə haqq qazandırmır. O qeyd edib ki, Paşinyan özü də Qarabağın Azərbaycandan kənarda mövcudluğunun perspektivini görmədiyini bəyan edib.

Paşinyan Rüstəmyana cavab vermək istəyəndə müxalifət deputatları iclas zalını tərk etməyə başlayıblar. Baş nazir iqtidaryönlü deputatların alqış sədaları altında "Qulaq asmaq istəmirsiz... Həmişə qaçdığınız kimi, həmişə də qaçacaqsınız" fikirləri ilə müxalifətçi deputatlara səslənib.

Göründüyü kimi, Paşinyan da artıq reallıqları etiraf etməyə başlayıb. O, ölkəsinin yaranmış ağır sosial-iqtisadi böhrandan çıxmasının yeganə yolunun Azərbaycanla normal münasibətlər qurulmasından keçdiyini anlayır. Baş nazirin siyasəti cəmiyyətin, o cümlədən nümayişə çıxan insanların gözünü açmaqdan ibarətdir. Paşinyan düşündüyü reallıqları xalqa aşılamaq istəyir. Paşinyan demək istəyir ki, keçmiş iqtidar da vaxtilə Qarabağın Azərbaycanın tərkibində qalmasını etiraf edib. Bir sözlə, Paşinyan bu prinsiplərdən çıxış edərək Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf edir.

### İrəvanda etirazlar xalq hərəkatına çevrilir

Paşinyanın parlamentdəki çıxışlarından sonra reallıqlarla barışmaq istməyən keçmiş hərbi xuntanın tərəfdarları dünən səhər saatlarında şəhərin bir çox körpü və yollarını betonqarışdıran maşınlarla bağlayıb. Əraziyə çoxsaylı polis qüvvələri cəlb olunub. Etirazçılar "Nikolsuz Ermənistan!" şüarı səsləndiriblər. Polislə etirazçılar arasında toqquşma da yaşanıb, həbs edilənlər var. Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın oğlu Levon Koçaryan da saxlanılanlar arasında olub.

Ermənistan polisi paytaxtdakı etiraz aksiyalarında kobud pozuntular aşkarlandığını açıqlayıb. Polisin bəyanatında bildirilir ki, etirazçılar dövlətə məxsus, eləcə də mülki vətəndaşların avtomobillərinin təkərlərini kəsici və deşici alətlərlə sıradan çıxarırlar. Bu isə aksiya iştirakçılarında kəsici-deşici alətlərin, yəni soyuq silahın olduğu anlamına gəlir. Buna görə də polis aksiyada iştirak edənlərə qarşı zor tətbiqini daha da gücləndirib. Yerli mətbuatın yazdığına görə, dünən 100 nəfərdən çox adam polis şöbələrinə gətirilib, 1 nəfər isə ölüb.

Aksiyalarda diqqətçəkən məqam müxalifətin Paşinyanı elə öz silahı ilə vurmaq cəhdidir. Çünki 2018-ci ildə baş nazir də məhz İrəvanda yürüşlər keçirməklə küçələri bloklayırdı. Müxalifət də eyni taktikadan istifadə edərək Fransa meydanını seçməklə həmin ssenarinin tətbiqinə başlayıb. Müxalifət fraksiyasının nümayəndəsi İşxan Saqatelyan Fransa meydanında bildirib ki, hakimiyyət əleyhinə aksiyaları dayandırmayacaqlar.

### Müxalifətlə bağlı "Beşinci kolon" iddiaları

Ermənistanın hakim "Vətəndaş müqaviləsi" partiyasından olan deputat Vladimir Vardanyan isə deyib ki, parlament seçkiləri hələ ötən ilin iyun ayında başa çatıb. O zamandan çox vaxt keçib, amma heç nə dəyişməyib: "Niyə aprelin sonunda yürüş və yürüşlərə başlamaq qərarına gəldiniz? Mayın əvvəlində də başlaya bilərdiniz. Ona görə ki, hava yaxşılaşıb? Sizin üçün daha rahatdır? İndi havalar yenidən soyusa, isti yerlərinizə qayıdacaqsınız".

Erməni siyasətçinin fikrincə, müxalifətin hərəkətləri sadəcə öz varidatlarını və siyasi kimliklərini qorumağa yönəlib: "Bu, hakimiyyət uğrunda mübarizə deyil. Bu, "beşinci kolon"a xas hərəkətlərdir. Həmin adamlar "beşinci kolon"un funksiyasını yerinə yetirirlər. Onlara nə iqtidar, nə Milli Assambleya, nə ölkə, nə beynəlxalq münasibətlər, nə də Qarabağ lazımdı. Heç nə alınmayacaq!"

Amma qeyd olunur ki, müxalifətin başladığı etiraz aksiyaları bir aya kimi davam edərsə, bu, Paşinyan üçün ciddi problemlər yarada bilər. Bundan başqa, diqqət ona yönəlir ki, məhz baş nazirin son 4 il ərzində ölkəyə rəhbərliyi təkcə Qarabağ müharibəsindəki məğlubiyyətlə bitmir, Ermənistan üçün həm iqtisadi, həm enerji, həm də nəqliyyat baxımından təhdid vəziyyəti yaradıb. Digər tərəfdən, Ermənistandan əhalinin köç prosesi artıq yeni mərhələyə daxil olub. Ermənilər özləri qeyd edirlər ki, vaxtilə Ermənistandan əhali ədədi silsilə ilə baş götürüb qaçırdısa, indi artıq həndəsi silsilə ilə ölkəni tərk edirlər.



Görünən isə odur ki, yaranmış vəziyyətdə Paşinyan hakimiyyətdə yerini daha da möhkəmlətmək üçün bütün addımları atacaq və ölkənin tənəzzülü daha da sürətlənəcək. Bu, Ermənistanın durumunu daha da ağırlaşdıracaq ki, elə ictimaiyyət də məhz bundan narazıdır. Belə vəziyyətdə ölkədə hakimiyyətlə xalq arasında uçurumun daha da dərinləşməsi gözlənilir. Bu isə Ermənistanı növbəti vətəndaş qarşıdurmasına sürükləyəcək.

Bu arada aparılan müstəqil sorğulara görə, baş nazirə etimad azalmaqda davam edir. Hakimiyyətdə olduğu ötən müddət ərzində müharibədə məğlubiyyətlə yanaşı, ölkənin makroiqtisadi göstəriciləri, əhalinin güzəranı yaxşılaşmayıb. Sosial-iqtisadi göstəricilər daha da pisləşib, ölkədən kütləvi köç azalmayıb, xarici borclar artıb, Ermənistana böyük sərmayə yatırımına nail olunmayıb. Bütün bunlar Erməmənistanın sosial-iqtisadi durumunu getdikcə daha da ağırlaşacağını söyləməyə əsas verir.

Ermənistanın bu fəlakətdən qurtuluşu Azərbaycan Prezidentinin irəli sürdüyü 5 prinsipi özündə ehtiva edən sülh sazişinə imza atmaqdan keçir. Əgər bu reallaşarsa, regionda yaranacaq hərtərəfli sabitlik və yeni əməkdaşlıq formatları Ermənistan üçün əlverişli imkanlar açacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

